**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI SLAVYAN UNİVERSİTETİ**

**Mikayılzadə Lalə Ağa qızı**

# AZƏRBAYCAN DİLİNİN TƏDRİSİ MƏSƏLƏLƏRİ
**(əcnəbi tələbələr üçün dərs vəsaiti)**

*Bakı Slavyan Universitetinin*
*Elmi Şurasının qərarı ilə*
*çapa tövsiyyə olunmuşdur*
*(08 saylı protokol,*
*7 iyul 2021-ci il).*

**BAKI – 2023**

**Rəyçilər:** AMEA Nəsimi adına Dilçilik İnstitutunun Türk dilləri şöbəsinin aparıcı elmi işçisi, fil.ü.f.d., dos. **Şəkər Orucova**

AMEA Nəsimi adına Dilçilik İnstitutunun Elmi katibi, fil.ü.f.d., dos. **Aynel Məşədiyeva**

Bakı Dövlət Universitetinin Azərbaycan dili və nitq mədəniyyəti kafedrasının dosenti, Azərbaycan Respublikasının əməkdar müəllimi **Əliheydər Yunis oğlu Ağakişiyev**

Bakı Slavyan Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru **Hümmətova Sevil Əhməd qızı**

Bakı Slavyan Universitetinin Müasir Azərbaycan dili kafedrasının dosenti, filologiya üzrə fəlsəfə doktoru **Əhmədova Şəhla Əhməd qızı**

**Elmi redaktor:** Bakı Slavyan Universitetinin Azərbaycan dili və onun tədrisi metodikası kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent **Qafarova Səməngül Hüsü qızı**

Dərs vəsaiti ali məktəblərdə təhsil alan əcnəbi tələbələr üçün nəzərdə tutulmuşdur. Həmçinin dərs vəsaitindən Azərbaycan dilini müstəqil öyrənən rusdilli və rus dilini bilən oxucular da faydalana bilər.

$\frac{4602010000}{176\text{-}2023}$ Qrifli nəşr

İSBN: 978-9952-28-657-1

©L.A.Mikayılzadə, 2023.

# ÖN SÖZ

Azərbaycan Respublikasinin dövlət dili Azərbaycan dilidir. Dövlət dilini bilmək hər bir Azərbaycan vətandaşının borcudur. Ulu öndərimiz Heydər Əliyev cənabları "Azərbaycan Respublikasında Dövlət dili haqqında" ( Bakı şəhəri, 2 yanvar 2003-cü il) Azərbaycan Respublikası qanununun tətbiq edilməsi barədə fərman verdi. Bu fərman Azərbaycan dilinin tədrisini daha da yaxşılaşdırılması və təhsildə yeni-yeni nailiyyətlərin əldə edilməsi üçün yeni üfiqlər, imkanlar açdı. Bu gün təhsil sistemində aparılan islahatlar bir daha onu göstərir ki, artıq təhsil sistemində islahatlar konkret dövlət proqramı əsasında həyata keçirilir. Bu fərman bizim dilçilər, metodislər və təhsil işçilərinin qarşısına dərslik və proqramların təkminləşdirilməsi, yenilərinin tərtib edilməsi kimi ciddi vəzifələr qoymuşdur.

Ali Ümumtəhsil müəssisələri içərisində özünün xüsusi yeri olan BSU-da tədris və təlim-tərbiyə proseslərinin keyfiyyətlərinin yüsəldilməsinə ciddi diqqət yetirilir. Universitet üçün bir sıra fənnlər üzrə dərsliklərin hazırlanması və onların müasir tələblərə uyğunlaşdırılması da buna nümunə ola bilər. Buna görə də BSU-da yaradılan yeni fakültələr, ixtisaslar məhz Azərbaycan dilinin tədrisinə yeni aspektdən baxmağı tələb edir. Tərtib edilən yeni "Azərbaycan dilinin tədrisi məsələləri (əcnəbi tələbələr üçün)" adlı dərs vəsaiti də bu baxımdan işlənib hazırlanmışdır. Tərtib edilmiş bu dərsliyin əsas məqsədi Azərbaycan dilini öyrənən əcnəbi tələblərin dilə hərtərəfli yiyələnməsi, yazı vərdişlərinin düzgün aşılanması, tərcümə sahəsində işgüzarlıq və fəallıqlarını təmin etməkdir. Dərslikdə dövrün tələblərinə uyğun olaraq praktik məşğələlərə daha çox yer verilmişdir. Azərbaycan dili materiallarının mənimsədilməsi dərslikdə üç istiqamətdə aparılmışdır.

I. Dil materialları. Dil materialları bölmələr üzrə verilmişdir. Nəzəri materialların verilməsi tələbənin düzgün yazı və tələffüz vərdişlərinə, cümlə qurmaq bacarığına və s. kömək edir.

1. Fonetika. Bu bölmədə əsasən əcnəbi tələblərə Azərbaycan dilinin fonetik qanunlarını, orfoqrafik qaydaları, heca, vurğu, sözlərin sətirdən-sətrə düzgün keçirilməsi və s. çatdırmaq və bunların mənimsədilməsinə nail olmaqdır.

2. Leksikologiya. Bu bölmədə əsas istiqamət kimi tələblərin lüğət ehtiyatının zənginləşdirilməsi, səlis nitq fəaliyyətinə nail olunması nəzərdə tutulmuşdur.

3. Frazeologiya. Azərbaycan dilinin frazeoloji birləşmələrinin spesifik cəhətləri nəzərdə tutulmuşdur.

4. Morfologiya. Ayrı-ayrı nitq hissələrinin öyrədilməsi, bilik, bacarıq və vərdişlərin və s. məsələlərin öyrədilməsi nəzərdə tutulmuşdur.

5. Sintaksis. Dilçiliyin bu geniş bölməsində nəzəri məlumatlar üstünlük təşkil etsə də, bu bölmədə müxtəlif istiqamətlərdə bir fikrin müxtəlif formalarda verilməsi imkanları nəzərdə tutulmuşdur.

II. Şifahi və yazılı nitq vərdişlərinin fəaliyyəti üzrə istiqamət. Bu dərs vəsaitinin əsas istiqaməti məhz tələbələrin düzgün, səlis Azərbaycan dili üzrə yazılı və şifahi nitq vərdişlərinin inkişafına nail olmaqdır. Dərs vəsaitində nitq inkişafına kömək edən mətnlər, imla və inşa yazıları, müxtəlif mövzulara aid dialoqlar, əməli yazı nümunələrinin öyrədilməsi və sair (yaddaş çalışmaları, fərqləndirmə çalışmaları, yaradıcı çalışmalar) daxildir.

III. Tələbələrin bacarıq və vərdişlərinin inkişaf etdirilimləsi.Əcnəbi tələbələr öyrəndikləri hər bir dilə yüksək şüarla, sənətkarlıq məsuliyyəti və tələbi ilə yanaşmalıdır.

Sözsüz ki, gələcək tələbələrə müasir bilik verən və onların yaxşı hazırlığını təmin edən Azərbaycan dilini tədris edən hər pedaqoq dərsliyin yuxarıda verilən əsas tələblərinə əməl etməli, tədrisə yaradıcı yanaşmaqla bərabər, eyni zamanda hər bir hərəkəti, mədəniyyəti ilə örnək olmalıdır. Didaktik interaktiv təlim metodlarından tədris prosesində yaradıcı istifadə etməlidir.

# FONETİKA

Fonetika dilçiliyin danışıq səslərindən bəhs edən bir şöbəsidir. İnsan öz fikirlərini həm şifahi, həm də yazılı formada ifadə edir. Fikrin şifahi ifadə forması dilin səs sisteminə, yazılı forması isə hərflərə əsaslanır.

Danışıq səsləri danışıq üzvləri vasitəsilə əmələ gəlir. Bu səslərin yaranmasında danışıq üzvlərinin böyük rolu vardır, (ag ciyərlər, nəfəs borusu, qırtlaq və səs telləri, ağız boşluğu, dil, dodaqlar, dişlər, burun boşluğu.)

Səslərin yazıdakı işarələri hərf adlanır. Səsləri deyir və eşidirik, hərfləri oxuyur və yazırıq.

Azərbaycan dilində 33 səs və 32 hərf vardır. Lakin bu heç də o deməқ deyildir ki, bütün hərflər yazıldığı kimi də oxunur. Bir sıra hallarda hərflər başqa cür tələffüz olunur. Məsələn:

| Yazılır: | Oxunur: |
|---|---|
| aşpaz | aşbaz |
| səkkiz | səkgiz |
| doqquz | dokquz |
| bağça | baxca |

## Fonetikaya aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Aşağıdakı səslərin tələffüzündə danışıq üzvlərindən hansılarının fəal iştirak etdiyini izah etməyə çalışın:
[t], [o], [f], [n], [b].

**Tapşırıq 2.**

Əvvəlcə iki, sonra isə üç səsdən ibarət sözlərə aid bir neçə misal söyləyin və onları cümlədə işlədin.

**Tapşınq 3.**
Mötərizədəki hərflərdən düzgün olanını yazın:
Tüfən... (k,g), mü...təla (b,p), Məmmədo... (v,f), nö...tə (k,q). kən... (d,t).
**Tapşırıq 4.**
Verilmiş misallarda sözü fərqləndirən səsləri göstərin və cümlədə işlədin:

| I | II | III |
|---|---|---|
| yol | gül | bel |
| kol | göl | sel |
| qol | gəl | tel |
| bol | gel | yel |

**Tapşırıq 5.**
"Dövlətimiz" mövzusunda yığcam esse yazın, əvvəlcə deyilişi və yazılışı eyni olan sözləri, sonra deyilişi və yazılışı fərqli olan sözləri seçib yazın və aralarındakı fərqləri aydınlaşdırın.
**Tapşırıq 6.**
Aşağıdakı sözlərin hər birinə aid iki cümlə yazın:
I. Qrammatika, norma, taktika
II. Poetika, palata, forma
III. Fonetika, respublika, botanika
**Tapşırıq 7.**
"Odlar yurdum Azərbaycan" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin.

## ƏLİFBA. ƏLİFBANI BİLMƏYİN ƏHƏMİYYƏTİ

Bütün hərflərin müəyyən sıra ilə düzülüşü əlifba adlanır. Lüğətlərdə sözlər əlifba sırası ilə düzülür. Buna görə də əlifbanı əzbər bilmək lazımdır.

Lüğətlərdə və siyahılarda əvvəlcə *a,* sonra isə *b* hərfi ilə başlanan sözlər verilir. Dildə *a* hərfi ilə başlanan sözlər cox ola

bilər. Bəs onların içərisindən *alma* sözünü tapmaq üçün nə etmək lazımdır? Bunun üçün sözləri lüğətdə daxili əlifba sırası ilə düzürlər. *Alma* sözünü *al* hərf birləşməsi ilə başlayan sözlər sırasında axtarmaq lazımdır.

**Əlifbaya aid çalışma nümunələri:**

**Tapşırıq1.**

Aşağıdakı sözləri I hərflərinə görə əlifba sırası ilə düzüb dəftərinizə yazın və tərcümə edin.

Şam, meşə, ütü, yol, qonaq, jaket, ələf, gəmi, alça, dekabr, fil, baba, hikmət, ipək, külək.

**Tapşırıq 2.**

Aşağıdakı sözləri I, II və III hərflərinə görə əlifba sırası ilə düzüb dəftərinizə yazın:

Rəşid, Şaban, noxud, Yaqut, vaxt, baçşı, rəhbər, Valeh, yaxşı, Novruz, Abbas, Nataşa,Şamil, avqust.

**Tapşırıq 3.**

Vətən haqqında 3 bayatı əzbərləyin.(nümunə).

Əzizim vətən yaxşı,
Geyməyə kətan yaxşı,
Gəzməyə qərib olkə
Ölməyə vətən yaxşı .

Əzizim nə səfərdir?
Gedirsən nə səfərdir?
Vətəndən ayrı düşən
Bal da yesə, zəhərdir.

## SƏSLƏRİN NÖVLƏRİ.
## SAİTLƏRİN TƏSNİFİ PRİNSİPLƏRİ

Səslər tələffüz zamanı ağız boşluğunda maneəyə rast gəlib, gəlməməsinə görə 2 yerə ayrılır: 1) sait səslər, 2) samit səslər.

Ağız boşluğunda heç bir maneəyə rast gəlmədən tələffüz olunan səslər sait səslər adlanır. Azərbaycan dilində belə səslər

doqquzdur: a, ı, o, u, e, ə, i, ö, ü. Bunlardan altısı (a, ı, o, u, e, i) əsasən rus dilindəki saitlərə uyğun gəlir, üçü isə (ö, ü, ə) spesifik saitdir.

Ağız boşluğunda müəyyən maneəyə rast gəlməklə tələffüz olunan səslər samit səslər adlanır. Azərbaycan dilində 23 samit səs vardır: b, v, q, ğ, d, j, z, y, k, g, l,m,n,p,r,s,t,f,x,h,c,ç,ş.

Sait səslər aşağdakı kimi təsnif olunur:

I. Dilin arxa və ön hissəsində deyilməsinə görə:

1) Dil arxası, yaxud qalın saitlər: a,i,o,u.
2) Dilönü, yaxud incə saitlər: ə,e,ö,i,ü.

II. Dodaqların vəziyətinə görə:

1) dodaqlanan saitlər: o,u,ö,ü.
2) dodaqlanmayan saitlər: a,ı,e,ə,i.

III. Dilin üst damağa doğru qalxması və nisbətən aşağı enməsi vəziyyətinə görə:

3) Qapalı saitlər: ı, i, u, ü.
4) açıq saitlər: a,ə,o,ö,e.

**Saitlərə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Səslər necə əmələ gəlir? (şifahi cavab verin).

**Tapşırıq 2.**

Nöqtələrin yerinə müxtəlif saitlər artırmaqla sözlər düzəldib yazın: k..l, g..l, k..ç, b..l, t..p, ş..r, m..l..k, m..r..l.

**Tapşırıq 3.**

Verilmiş mətnin planını tutun, çətin sözləri seçib yazın və mənalarını açın. Mətndəki saitlərin altından xətt çəkin və mətnin məzmununu danışın.

Bülbül və qızılquşun hekayəti
(N. Gəncəvi)

Çəməndə, gül bağında güllər açanda qızılquşa bülbül

söylədi: “Hər quşun bir cəh-cəhi var, bəs sənin niyə səsin çıxmır? Sən nə üçün quşlardan üstünsən? Azad nəfəs alırsan, ancaq dilin həmişə bağlıdır. Ağlın da adamı həmişə heyran qoyur. Yerin Səncər sarayı olsa da peşən təklikdir.” Qızılquş cavab verdi: “Dinlə, bacar susmağı. Yüz iş görsəm yenə biri dilimə gəlməz. Sən isə hər solub gedən gülə min təranə qoşursan. Nalə, fəryad qoparma, yoxsa Nizami tək dövrün əsiri olarsan”.

Plan:

1.Bülbülün qızılquşa söylədikləri.

2.Qızılquşun bülbülə cavabı.

**Tapşırıq 4.**

Dilimizdəki 9 saitdən hər birini aşağıdakı kimi səciyyələndirin.

Nümunə: a- qalın, dodaqlanmayan, açıq saitdir.

**Tapşırıq 5.**

Verilmiş şer parçasmdakı saitləri dilin vəziyyətinə görə təsnif edib yazın. M.Dilbazi: “Göydə gül yarpağı uçur”

**Tapşırıq 6.**

Verilmiş mətni köçürün, incə saitlərin altından bir, qalın saitlərin altından iki xətt çəkin və mətnin planını tutun və məzmununu danışın.

Aprel ayının ortaları idi. Bütün varlıq qış yuxusundan ayılmışdı. Təbiətdə bir canlanma, insanlarda bir sevinc hiss olunurdu. Yaşıl otlar məxmər kimi bağ-bağçanı bəzəmişdi. Əlvan çiçəklər bu mənzərəyə xüsusi bir gözəllik verirdi. Bəzi ağaclar bahar çiçəklərini tökmüş, bəziləri də hələ öz çiçəyi ilə xüsusi bir gözəllik verirdi. Dənizin qara bulanıq suları indi yaşıl - göy rənglərlə gülümsəyir, ağ köpüklü ləpələr oynaşırdı. Yenikənd bu yaz gözəlliyi içində parlayır, günəş tellərindən özünə bəzək vururdu.

(M. Süleymanovdan)

**Tapşırıq7.**

Şeir parçasını oxuyun, saitləri dodaqların vəziyyətinə görə təsnif edib yazın (M.Müşfiq. "Yenə o bağ olaydı") (bir hissə).

**Tapşırıq 8.**

Şeiri oxuyun, saitləri alt çənənin vəziyyətinə görə təsnif edib yazın (S.Vurğun "Azərbaycan" 4 bənd).

**Tapşırıq 9.**

Aşağıdakı sözlərdə saitin necə tələffüz olunduğunu izah edin.

| | | | |
|---|---|---|---|
| alim | saat | sakit | aləm |
| qala | təkrar | qaymaq | qabil |
| alçaq | Tahirə | maaş | aşıq |

## SAMİTLƏR. SAMİTLƏRİN NÖVLƏRİ

Samit səslər kar və cingiltili olur. Kar samitlər təkcə küydən əmələ gəlir. Cingiltili samitlərin əmələ gəlməsində isə səs telləri iştirak edir, buna görə onlar küydən və səsdən ibarət olur.

Sait səslər aşağdakı kimi təsnif olunur:

I. Səs tellərinin iştirakına görə:

1) Kar samitlər: k, p, s, t, f, x, h, ç, ş.
2) Cingiltili samitlər: b,v,q, ğ, d, j, z, y, g, l, m, n, r, c,

II. Küy və tonun iştirakına görə:

1) Küylü - kar samitlər:k, p, s, t, f, x, h, ç, ş.
2) Küylü- cingiltili samitlər: b,v,q, ğ, d, j, z, y, g, c.
3) Sonor samitlər: l, m, n, r,

III. Əmələgəlmə yerinə görə:

1) Dodaq samitləri: b,v,m, p, f.

Bunlardan b, m, p qoşa dodaq samitləri; v, f dodaq-diş samitləridir.

1) Dil samitləri: q, ğ, d, j, z, y, k, g, l, n, r, s, t, x, ç, c, ş.

Bunlar da öz növbəsində üç qrupa ayrlır:

1) dilarxası samitləri: q, ğ, x, k;

2) dilortası samitləri: y, k, g:

3) dilönü samitləri: d, j, z, l, n, r, s, t, ç, c,

1) Boğaz samiti: h

IV. Əmələgəlmə üsuluna görə:

1) Kipləşən samitlər: p,b,t,d,k,g,q:
2) Novlu samitlər: f, v, s, z, ş, j, y, x, ğ, ı;
3) Kipləşən- novlu samitlər: n, m, l:
4) Titrək samitlər: p**;**
5) Afrikat (qovuşuq) samitlər: ç.c:

**Samitlərə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Şeirdəki küylü-kar samitlərin altından bir, küylü- cingiltili samitlərin altından iki xətt, sonorların altından isə dalğalı xətt çəkin.

**ANA DİLİ**

Səni şəfəq bildim bu cahanda mən,
Bəzən şimşək olub qəzəblə çaxdın,
İlk dəfə dünyaya göz açanda mən,
Qəlbimə günəşin özüylə axdın.

Ana gözlərindən süzən nur kimi,
Hopdun ürəyimə sən gilə-gilə,
Hər kəlmən, hər sözün bəzənməyibmi?
Mehriban anamın təbəssümüylə.
...Ucalır bağçadan bülbülün səsi,
Çay susur, əsməyir çəməndə yel də.
Nə qədər doğmadır onun nəğməsi,
Bülbül də elə bil ötür bu dildə.

(Nəbi Xəzri)

**Tapşırıq 2.**

Hər samitin ayrı-ayrılıqda xüsusiyyətlərini qeyd edin.

Nümünə; *b - cingiltili, küylü- cingiltili, qoşa-dodaq, kipləşən,*

**Tapşırıq 3.**

Verilmiş sözlərdə əvvəlinci kar samiti onun cingiltili qarışığı ilə əvəz edin. Sözdə hansı dəyişikliyin baş verdiyini deyin. Nümünə; tar-dar

kül- tar

tələ- saman-

səhər- paxır-

**Tapşırıq 4.**

Verilmiş sözlərdə cingiltili samiti onun kar qarşılığı ilə əvəz edin. Bu zaman hansı sözlərin alındığını söyləyin.

dağ- tağ

zaman-

zər-

boz-

dər-

zəfər-

tanış-

göz-

Bərdə-

**Tapşırıq 5.**

Tərkibində yalnız kar samitlər işlənən sözləri seçib yazın.

Dükan, top, çay, köpük, taxıl, hissə, şəffaf, güşə, şam.

**Tapşırıq 6.**

Verilmiş dörd sözdən hansının tərkibində kar samit yoxdur? Gavalı, alça, gilas, xurma.

**Tapşırıq 7.**

Verilmiş sözlərdə samitləri nümunədə göstərildiyi qaydada təhlil edin.

Nümunə: *tələ sözündə [t] samiti kardır, onun cingiltili qarışığı [d] səsidir; [1] samiti cingiltilidir, onun kar qarışığı yoxdur.* Qapı, tüfəng, kitab, vağzal, qəhrəman, yaxşı.

## QOŞASAİTLİ SÖZLƏRİN YAZILIŞI VƏ TƏLƏFFÜZÜ

Dilimizdə elə sözlər var ki, onlarda iki sait yanaşı

işlənir. Bunlar qoşasaitli sözlər adlanır. Məsələn, saat, camaat, təəccüb, təəssüf, mətbəə, bədii (əsər), təbii (hadisə), ailə, dairə, zəif, radio, teatr və s. belə sözlər heç də yazıldığı kimi deyilmir. Məsələn, saat, təəccüb, bədii sözlərindəki müxtəlifcinsli saitlər bir uzun sait ([a:], [ə:], [i:]) kimi tələffüz edilir.

### Qosaitli sözlərin yazılışı və tələffüzünə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Verilmiş hər sözü əvvəl yazıldığı kimi, sonra isə düzgün tələffüzlə oxuyun. Onların yazılışı və tələffüzü arasındakı fərqi izah edin. Sözləri cümlədə işlədin.

| Yazılır: | Tələffüz olunur. |
|---|---|
| Nailə | N[ayi]lə |
| ailə | a[yi]lə |
| daima | d[ayi]ma |
| dairə | d[ayi]rə |
| radio | rad[iyo] |
| zəif | z[əyi]f |
| Səidə | S[əyi]də |

**Tapşırıq 2.**

Verilmiş hər sözü əvvəl yazıldığı kimi, sonra isə düzgün tələffüzlə oxuyun. Onların yazılışı ilə tələffüzü arasındakı fərqi izah edin.

| Yazılır: | Tələffüz olunur: |
|---|---|
| saat | s[a:]t |
| camaat | cam[a:]t |
| maaş | m[a:]ş |
| inşaatçı | inş[a:]tçı |
| təəccüb | t[ə:]ccüb |
| mətbəə | mətb[ə:] |
| təbii | təb[i:] |

**Tapşırıq 3.**

Oxuyun, qoşasaitli sözləri köçürün,onların yanında böyük mötərizədə həmin sözlərin düzgün tələffüz şəklini qeyd edin.

Cəmiləgilin ailəsi beş nəfərdən ibarətdir. Anası müəllimədir. İbtidai sinifdə dərs deyir. Atası isə həkimdir. O, xəstələri müalicə edir. Bacısı Səidə altıncı sinifdə oxuyur. Onun gözləri bir az zəif görür. Buna görə də gözlük taxır.

**Tapşırıq 4.**

Üç bayatı əzbərləyin.

## QOŞASAMİTLİ SÖZLƏRİN YAZILIŞI VƏ TƏLƏFFÜZÜ

Eynicinsli qoşasamitli sözlərdən bəzilərinin yazılışı ilə tələffüzü fərqlənmir; məsələn: *rəssam- rə[ss]am, addım- a[dd]ım, güllə- gü[ll]ə*. Qoşa tt, kk, pp hərfləri ilə yazılan sözlərdə isə həmin kar samitlərdən ikincisi cingiltili tələffüz olunur; məsələn: *hətta hət[d]a, səkkiz –sək[g]iz, hoppanmaq - hop[b]anmaq.*

Qoşa qq hərfləri ilə yazılan sözlərdə isə həmin cingiltili samitlərdən əvvəlincisi kar samit kimi tələffüz olunur; məsələn: *toqqa-to[k]qa, diqqət - di[k]qət.*

Qoşa y ilə yazılan sözlərin çoxu bir y ilə tələffüz olunur; məsələn: *xasiyyət-[xasiyət], vəziyyət-[vəziyət].*

### Qoşasamitli sözlərin yazılışı və tələffüzünə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Köçürün, sonra düzgün tələffüzlə oxuyun. Hansı sözlərdə qoşa samit hərflərin yazılışı ilə tələffüzü fərqlənir?

Qüvvət, əvvəl, ləzzət, tappıltı, guppultu, qəssab, kassa, rəssam.

**Tapşırıq 2.**

Verilmiş sözlərdən hər birini hecalarla oxuyun. Qaşa q hərflərindən əvvəlincisi ilə sonrakının səslənməsindəki fərqi izah edin və sözləri cümlədə işlədin.

| | |
|---|---|
| toqqa | diqqət |
| rəqqasə | doqquz |
| çaqqal | haqqmda |

**Tapşırıq 3.**

B.Vahabzadənin "Azərbaycan" şeirini əzbərləyin və nəsrə çevirin. Qoşa-saitli, qoşa samitli sözlərin altından xətt çəkin.

## SONU QOŞA SAMİTLƏ BİTƏN SÖZ KÖKLƏRİNİN YAZILIŞI

Dilimizdə elə tək hecalı sözlər var ki, onların sonu qoşa samitlə bitir. Belə sözlərə samitlə başlanan şəkilçi qoşduqda həmin samitlərdən ancaq biri yazılır.

Məsələn: xətt-xətdə, xətdən, xətlə(mək); sirr-sirli, sirlər, sirdən, sirdaş.

**Qeyd**. Bu qayda küll və hiss sözünə aid deyil, çünki həmin sözlər bir samitlə yazıldıqda başqa məna verir (məsələn. *Lampanın şüşəsi hisdən qaralmışdı. Ocağın külü sönmüşdü).*

### Sonu qoşa samitlə bitən söz köklərinin yazılışına aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Oxuyun, sonu qoşa samitlə bitən təkhecalı sözləri göstərin.

1. Təbiətin qanunlarına zidd çıxmaq olmaz. (S.R) 2. Ələddin elə zənn edirdi ki, onun xahişini rədd edəcəklər. 3. Onlar vaxtın necə ötdüyünü hiss etmədilər. 4. Mən bilirdim ki, cəbhə xəttinin o tərəfində düşmən durur. (H.S.) 5. Sirr açandan el qaçar. (Atalar sözü) 6. Haqq öz yolunu tapar. (Atalar sözü) 7. Həddini aşmaq pis əlamətdir.

**Tapşırıq 2.**

Buraxılan sözlərin yerinə xətt sözünü artırmaqla köçürün və

həmin sözlərin altından xətt çəkin.

1.Cümlənin sintaktik təhlilində mübtədanın altından bir, xəbərin altından isə iki düz .... çəkilir. 2. Tamamlıq cümlədə qırıq .... işarə edilir. 3. Elçinin gözəl .... var. 4. Həmişə aydın və oxunaqlı .... yazmağı adət et! 5. Bu, dalğalı, bu isə düz ... . 6. Müəllim öz tələbələrindən hər birinin .... tanıyır.

**Tapşırıq 3.**

Elə sərbəst mətn tərtib edin ki, tərkibində həm qoşasaitli, həm də qoşasamitli sözlər olsun.

## SONU Q VƏ K İLƏ BİTƏN ÇOXHECALI SÖZLƏRİN YAZILIŞI VƏ TƏLƏFFÜZÜ

Son səsi [x']və ya [ğ] kimi tələffüz olunan coxhecalı sözlər ilə yazılır. Həmin sözlərə saitlə başlanan şəkilçilər qoşulduqda q samiti ğ samitinə keçir; məsələn: *otaq- otağ -ın -, otağ-a.*

Son səsi [y] və ya y samitinin kar qarışığı kimi tələffüz olunan coxhecalı sözlər k [y] ilə yazılır. Belə sözlərə saitlə başlanan şəkilçilər qoşulduqda k samiti y samitinə keçir; məsələn: *çiçək- çiçəy-in, çiçəy-ə.*

### Sonu Q və K ilə bitən çoxhecalı sözlərin yazılışına aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Oxuyun. Hər sətirdə əvvəlinci sözün sonundakı k hərfi hansı səsi ifadə edir?

| | |
|---|---|
| çiçək ətri | çiçək dəstəsi |
| çürük ağac | çürük taxta |
| ördək əti | ördək yumurtası |

**Tapşırıq 2.**

Şeiri ifadəli şəkildə və düzgün tələffüzlə oxuyun. Xüsusi olaraq nəzərə alın ki, qara hərflə verilmiş sözlərin sonundakı k samiti [y] və ya [x'] kimi oxunmalıdır.

Ay qızım, **göyçək** qızım,
Qumaş, **ipək** deyildir.

Saçları **ipək** qızım,
hər üzündən xoş görünən
Qoy könlünü bəzəsin
hələ **göyçək** deyildir.
Ən gözəl **istək**, qızım
ay qızım, Gülər qızım,
Bil ki, insana zinət
Mənim bəxtəvər qızım.
**Bəzək- düzək** deyildir
Ağıl, zəhmət, **bilikdir**
Gözəlliyin nişanı
Ən böyük hünər qızım.
(Rəsul Rza)

Şeirdəki *göyçək, istək, insan, zinət* sözlərinə mənaca yaxın olan sözlər hansılardır? Onları nümunədə göstərildiyi kimi yazın.

Nümunə: *insan- adam, ...*

## HECA. Sözün sətirdən sətirə keçirilməsi

Tələffüz zamanı sözlərin asanlıqla bölünə bilən hissələrinə heca deyilir. Məsələn: A-zər- *bay-can, sə-ya-hət-çi-lər, i-yir-mi və s.*

Sözdəki hecaların sayı onda işlənən saitlərin sayı qədər olur. Heca yalniz bir saitdən də ibarət ola bilər. Məsələn: *i-lan, di-a-loq, u-şaq-lar və s.* Sözlər sətirdən sətrə hecalarla keçirilir. Lakin bir hərfdən ibarət hecanı sətrin sonunda saxlamaq və ya yeni sətrə keçirmək olmaz (i-nək, sün-i).

Qoşasamitli sözlər sətirdən sətrə keçirilərkən samitlərdən biri sətirdə saxlanılır, digər isə yeni sətrə keçirilir. Məsələn: sək-kiz, gül-lər, ad-dım (bu cür keçirmək səhvdir: güll-ər, add-ım)

**Tapşırıq 1.**

Verilmiş sözləri oxuyun, hər birinin neçə hecadan ibarət olduğunu söyləyin.

Neft, neftçilər, stansiya, stadion, klub, sərnişin, elektrik, traktorçular, dostluq, kombayn, təəssürat, direktor, təcili, feil, isim.

**Tapşırıq 2.**

Verilmiş sözləri hecalarına ayırıb yazın. Hər hecanın neçə və hansı səslərdən ibarət olduğunu deyin.

Numunə: *tramvay — bu sözün birinci hecası iki samit, bir sait və bir samitdən; ikinci hecasi isə bir samit, bir sait və bir samitdən ibarətdir.*

Üzümçü, həqiqət, stend, sitrus, rəsmxət, kəndli, məruzəçi, saatsaz, istirahət, trolleybus.

**Tapşırıq 3.**

Əvvəl bir, sonra iki, daha sonra isə üç hecadan ibarət isimlərin hərəsinə aid iki nümunə yazın.

**Tapşırıq 4.**

Verilmiş sözləri əvvəl kök və şəkilçilərinə, sonra isə hecalara ayırmaqla köçürün. Universitetimiz, oxuyurlar, kitabların, valideynim, yeddinci, dəyirmançı.

**Tapşırıq 5.**

Tərkibində təkcə bir saitdən ibarət hecası olan sözlərə aid misallar söyləyin və cümlələrdə işlədin.

**Tapşırıq 6.**

"Bilik günü" mövzusunda şifahi mətn tərtib edin və məzmununu danışın.

## VURĞU

Sözdə hecaların birinin o birinə (və ya o birilərinə) nisbətən qüvvətli tələffüzünə vurğu deyilir. Üzərinə vurğu düşən heca vurğulu heca adlanır.

Azərbaycan dilində vurğlu hecanın saiti vurğusuz hecalardakı saitlərdən iki əlaməti - yüksək səs tonuna malik olması və qüvvətli deyilməsi ilə fərqlənir.

Azərbaycan dilində vurğu çox zaman sözün son hecasınn üzərinə düşür. Əgər söz şəkilçi qəbul edirsə vurğu şəkilçinin

üzərinə keçir. Məsələn: *yaxşı* - *yaxşılıq, oxu — oxuyur*. Ümumən vurğu qəbul etməyən bəzi şəkilçilər müstəsnalıq təşkil edir. Xəbərlik (-dır, -dir, -dur, -dür), inkarlıq (-ma, -mə), bəzi feili bağlama şəkilçiləri (-madan, -mədən, -kən) bura daxildir.

Azərbaycan dilində vurğu geniş planda məna fərqləndidrici səciyyəyə malik deyil, lakin bəzən vurğunun yerdəyişməsi sözün mənasının da dəyişməsinə səbəb olur. Məsələn: *qazma-qazma, gəlin-gəlin.*

Əvvəlinci hecalarında vurğusu olan sözlər də az deyil; Məsələn: *traktor, kombayınçı, kosmos və s.*

**Vurğuya aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Aşağdakı sözlərin hansı hecaları daha qüvvətlə deyilir?

Meşə, meşələr, meşələrdə, sirdaş, sirdaşın, sirdaşımız, qayıq, qayıqçılar, qayıqçıların.

**Tapşırıq 2.**

Köçürün, vurğulu hecanın üstündə vurğu işarəsi qoyun. Həmin sözlərdə uzanan saitlərin altından xətt çəkin. Mənası aydın olmayan sözləri seçin və izahını yazıb öyrənin.

Füzuli, Sabir, Natavan, hekayə, sifariş, səyahət, səliqə, təcili, elan, məlumat, şikayət, xahiş.

**Tapşırıq 3.**

“Vətənim "mövzusunda şifahi mətn tərtib edin və mətnin planını tutun.

**Tapşırıq 4.**

Sözləri köçürün, vurğulu hecanın üstündə vurğu qoyun. Həmin sözlərdə uzanan saitlərin alından xətt çəkin.

Tra..vay, traktor, tr..lleybu.., st...kan, d..rektor, fonetika, oktyabr, noyabr, ...alstuk, a.tobus, botanika, coğrafiya.

## FONETİK TƏHLİLİN APARILMA QAYDASI

1. Sözün səs və hərf tərkibi.
2. Sait səslər (qalın, incə; dodaqlanan, dodaqlanmayan; açıq qapalı).

3. Samit səslər (kar, cingiltili).
4. Sözün hecaları və vurğusu.

**Fonetik təhlilə aid çalışma nümunələri:**

**Tapşırıq1.**

Aşağıdakı sözləri fonetik təhlil edin:
Ləyaqət, müəllif, şöhrət, intizar, əhvalat, pedaqoq, gülünc

**Tapşırıq 2.**

"Qələbə günü" mövzusunda mətn tərtib edin, mətni öyrənin və ilk iki cümləyə daxil olan sözləri fonetik təhlil edin.

## AHƏNG QANUNU

Müəyyən cəhətdən həmcins olan səslərin sözdə bir-birini izləməsinə ahəng qanunu deyilir.

Ahəg qanunu üç cür olur:

1) Saitlərin ahəngi
2) Saitlərlə samitlərin ahəngi
3) Samitlərin ahəngi
4) Saitlərin ahəngi iki cür olur:

1) incə saitlərin incə saitləri, qalın saitlərin qalın saitləri izləməsi - damaq ahəngi. Məsələn:

a) ağac, aşıq, qulaq, odun, otaq, yaxşılıq, bahar, payız, yazıçı
b) ərik, əlcək, əkin, yemiş, gözəl, günəş, əziz, içmək, dəmirçi, üzük, ördək.

2) dodaqlanan saitlərin bir-birini, dodaqlanmayan saitlərin bir-birini izləməsi - dodaq ahəngi. Məsələn:

a) odun, üzük, öküz, bulud.
b) açıq, bağlı, əkin, kitab, işıq, yeşik.
c) Saitlərlə samitlərin ahəngi iki cür olur:

1) İncə və qalınlığına görə. Burada incə saitlərlə incə samitlər, qalın saitlərlə qalın samitlər uyuşur. Məsələn: göz, *qoz, qaşıq, ağac, ağ, qara, qadın, külək, gəl, get.gör, qal, qaç, qol.*

2) Sədalılığına görə. Bir sıra hallarda saitlər samitləri cingiltililəşdirir, yaxud karlaşmış cigiltili samitlərin cigiltililiyi-

ni bərpa edir. Məsələn: *kəklik-kəkliyi, gəzmək-gəzməyə, danışıq-danışığı, et-edir, get-gedir.*

Samitlərin ahəngi kar samitlərin kar samitlərə, cigiltili samitlərin cingiltili samitlərə uyuşması deməkdir. Bu hadisə daha çox söz köklərinin son samitləri ilə şəkilçilərin ilk samitləri arasında olur. Məsələn: *kəskin, küskün, satqın, gərgin, vurğu, vergi, durğun.*

## Ahəng qanununa aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Şeirdəki "möhtac" sözündə ahəng qanunu pozulubmu? (şifahi izah edin.)

Millət necə tarac olur - olsun, nə işim var?!
Düşmənlərə möhtac olur - olsun, nə işim var?!
Qoy mən tox olum, özgələr ilə nədi karım,
Dünyavü cahan ac olur - olsun, nə işim var?!
(M.Ə.Sabir)

**Tapşırıq 2.**

Şeirdəki "dastan", "kainatdır" sözündə ahəng qanunu pozulubmu? Pozulubsa şifahi izah edin. Şeiri əzbərləyin.

Budur, yer uzunun əşrəfi insan
Yaradır gündə bir hicranlı dastan.
Nəydi o yazığın, nəydi günahı?
İndi çöllərmidir onun pənahı?
İnsan! O müqəddəs bir kainatdır,
O saf qəlbi pozan yalnız həyatdır.
(S.Vurğun)

**Tapşırıq 3.**

Elə on söz yazın ki, sözlərin beşində ahəng qanunu pozulsun, beşində ahəng qanunu pozulmasın. Sözləri cümlələrdə işlədin.

**Tapşırıq 4.**

"Şəhidlərin xatirə günü" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin.

**Tapşırıq 5.**

N. Gəncəvinin bu kəlamlarını necə başa düşürsünüz, şifahi izah edin.

Bilir bu hikməti hər arif kişi,
Pis nəticə verməz yaxşının işi.

(Yeddi gözəl)

Dünyada xoşbəxtdir yalnız o kəslər
Ki, öz çörəyini dostlarla yeyər.

(İsgəndəmamə)

Dünyada zülm etmək qoçaqlıq deyil,
Rəiyyət bəsləmək çox yaxşıdır, bil.

(Xosrov və Şirin.)

## FONETİK HADİSƏLƏR

Azərbaycanın ədəbi tələffüzündə bir sıra qanunauyğun fonetik hadisələr özünü göstərir. Bu hadisələr bəzən yazıda da öz əksini tapır və ya sözün yazılışına təsir göstərir. Ona görə də Azərbaycan dilində düzgün yazmaq, oxumaq və danışmaq üçün bu hadisələri nəzərə almaq lazımdır.

1. Assimilyasiya hadisəsi: bir səsin başqa səsə təsir edərək onu müəyyən cəhətdən ya tam, ya da qismən yaxınlaşdırılmasına deyilir. Assimilyasiya hadisəsi

a) irəli assimilyasiya,
b) geri assimilyasiya,
c) tam assimilyasiya,
d) tam olmayan assimilyasiyaya bölünür.

məsələn:

a) qızlar-qızdar, ondan-onnan, gözlər-gözdər,
b) gəlirlər-gəlillər, çıxarlar-çıxallar, rusca-rucca,
c) narlar-narrar, oğlanlar-oğlannar, məndən-mənnən,
d) otlar-otdar, addamlar-addamnar və s.

2. Dissimilyasiya hadisəsi: zərər-zərəl, sararmaq-saralmaq.
3. Proteza hadisəsi: şkaf-işkaf, stəkan-istəkan, qrup-qurup.

4.Eliziya hadisəsi: oğul-oğlu, fikir-fikri, yazmayır-yazmır. 5.Metateza hadisəsi: məşhur-məhşur, yanlış-yalnış, doğra-dorğa.

**Fonetik hadisələrə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Gedir, gəlir, bilir, oxuyar, yazar feil formalarına; oxuyan, yazan, bilən feili sifətlərinə; qənd, qız, qaz, saz isimlərinə *lar, lər* şəkilçisini artırın, sonra onların assimilyasiyaya uğramış formalarını göstərin.

*Nümunə: gedirlər- gedillər*

**Tapşırıq 2.**

Sərbəst mətn seçin, fonetik hadisələrə uğramış sözlərin altından xətt çəkin.

**Tapşırıq 3.**

Beş atalar sözü öyrənin.

**Tapşırıq 4.**

Şeirlərdəki fonetik hadisələri qruplaşdırın.

Başına döndüyüm ay gözəl Pəri,
Adətdir, dərəllər yaz bənövşəni.
Ağ nazik əlinlə bir dəstə bağla,
Tər buxaq altında düz bənövşəni.

(Aşıq Qurbani)

Şah Xətai der: neylərsən,
Hər müşkülü həll eylərsən.
Ansan çiçək iylərsən,
Yarın səndən gül istərlər.

(Ş.İ.Xətai)

Dilbəra mən səndən ayrı təndə canı neylərəm?
Tacü-təxtü mülki-malü xanimanı neylərəm?

(Nəsimi)

O zaman ki, sahib oldum qonata,
Bir quş kimi nəzər saldım həyata,
Etdi məni gənclik şövqü əhata,

Verdim sərxoş küləklərə könlümü.

(M.Müşfiq)

Ürəyim ilk bahar selləri kimi
Atlana - atlana qaynamamışdır.
Ruhum Mil düzünün çölləri kimi
Bəyaz çiçəklərlə oynamamışdır.

(M.Müşfiq)

Əmr etdi verildi belə bir fərman:
Alimdir gözümdə ən əziz insan.
Elmlə, hünərlə başqa cür heç kəs,
Heç kəsə üstünlık eyləyə bilməz.

(N.Gəncəvi)

Növcavan ol pir ikən, dövran ki, canan dövrüdür,
Şad ol, ey xəstə könül, kim, dərdə dərman dövrüdür.

(Ş.İ.Xətai)

**Tapşırıq 5.**

Mətndəki “kiprikləri” sözü hansı fonetik hadisələrə aiddir:
... Kiprikləri ilə od götürüblər, gecələr od- ocaq olmayanda, yorğan- döşək nazik, sırsıra buz bağlayanda onlar səni öz nəfəsləri ilə isidiblər, əziz tikələrini yeməyib sənə veriblər, elə indi də səndən ötəri canlarını belə fəda etməyə hazırdılar, lazım olsa sinələrini yarıb səni orada gizlədərlər.... (İ.Şıxlı)

**Tapşırıq 6.**

“Universitetin oxu zalında” mövzusunda dialoq tərtib edin, dialoq şəklində tərtib etdiyiniz mətni vasitəli nitqə çevirərək danışın.

## LEKSİKA

Söz dilin əsas vahididir. Dildəki sözlərin hamısı birlikdə dilin lüğət tərkibini, yəni leksikasını təşkil edir.

Dil haqqındakı elmdə dilin lüğət tərkibindən bəhs edən bölmə leksikoiogoya adlanır. Sözlər əşyaları, hərəkəti, əlaməti, miqdarı ifadə etməyə xidmət göstərir. Hər bir sözün ifadə etdiyi mənaya onun *leksik mənası* deyilir. Leksik məna odur ki, həmin sözü deyərkən nəyi başa düşürük. Sözlərin leksik mənası izahlı lüğətlərdə öz ifadəsini tapır. Məsələn: Dəryaz- ot çalmaq üçün uzunsaplı, dişsiz, orağa oxşayan alət; *Yaşıl çəmənlərdə dəryazlar hərlənir, ot tayaları basılırdı.* Sözün leksik mənası ilə yanaşı, qrammatik mənası da olur. Məsələn, *izin* sözünün icazə mənasını bildirməsi onun leksik mənasıdır; isim olması, adlıq halda işlənməsi isə onun qrammatik mənasıdır.

### Leksikaya aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Verilmiş sözlərin leksik mənalarım izahlı lüğətdən tapın.

*Nümunə*: düha- dahilik, alimlik, ağıl və zəkanın ən yüksək zirvəsi.

Qatı, dəymədüşər, divan, etiraf, ekologiya, ehtiram, ecazkar, çalarlıq, dilək, əliaçıq.

**Tapşırıq 2.**

Verilmiş sözləri cümlələrdə işlədin. Mənası aydın olmayan sözləri izahlı lüğətdən tapıb yazın.

Ümman, kamal, aynalı, çuval, neştər, kaman, bürc.

## SÖZÜN HƏQİQİ VƏ MƏCAZİ MƏNASI

Sözün əsas, ilk mənası onun müstəqim mənasıdır, başqa mənaları isə onun məcazi mənalarıdır. Ona görə də əvvəlcə sözün əsas mənasını öyrənmək lazımdır.

Sözün əsas mənası onun lüğəvi mənasıdır, ayrılıqda

ifadə etdiyi mənadır; məsələn, düşmək; göz; sözün əlavə mənaları isə mətndə, başqa sözlərlə əlaqədə meydana çıxır: məsələn: yola düşmək, başa düşmək, əsir düşmək, əldən düşmək; şkafın gözü, bulağın gözü.

**Sözün həqiqi və məcazi mənasına aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Verilmiş söz birləşmələrini oxuyun. Onlarda hansı sözlər məcazi mənada işlənmişdir? Həmin söz birləşmələrinin tərəfləri hansı nitq hissələri ilə ifadə olunmuşdur?

Ağır çamadan, ağır xasiyyət; yumşaq çörək, yumşaq söz; güclü yumruq, güclü cavab; şirin qarpız, şirin söhbət; dumanlı dağ, dumanlı fikir.

**Tapşırıq 2.**

Oxuyun, məcazi məna bildirən felləri başqa cümlələrdə həqiqi mənada işlədib yazın.

Fırtına hələ də balıqçı gəmisini dalğaların arasında oynadırdı. Bir azdan külək yatdı. Ay buludların arxasından işardı. Coşğun dalğalar birdən - birə yumşaldı. Dənizin hirsi soyudu.

**Tapşırıq .**

Oxuyun, cavab verin: şair hansı sözləri məcazi mənada işlətmişdir? II və III şeiriləri əzbərləyin.

1. Səhərdir, darayır saçlarını gün,
   Tərləyir Qafqazın qarlı dağları.

(S.Vurğun)

2. Quş qanadla uçar, insan diləklə.
   Yatır hər ürəkdə min-min arzular.
   Tutub əlimizdən ucaldır bizi
   Arzular, arzular, şirin arzular

(B. Vahabzadə)

3. Cığırlardan mahnı, gülüş

Əskilməyir nə zamandır.
Meşə gözəl, göylər gümüş,
Sanki çay da büllurdandır.

(N.Xəzri)

**Tapşırıq 4.**

"Tələbənin asudə vaxtı" mövzusunda mətn tərtib edin və plan tutun.

**Tapşırıq 5.**

Məcazi mənada işlənmiş sözlərin altından xətt çəkin.

1.Onlar dərsdən sonra xörək hazırlayıb, xəstə analarına baş çəkməyə getdilər. Onlar analarının bütün sözlərinə diqqətlə qulaq asır və dediklərini yerinə yetirməyə çalışırdılar. 2. Qızlar bulaq başında dəstə - dəstə dayanıb söhbət edirdilər. 3. Siz mənim malımı ayağa salıb almaq istəyirsiniz. 4. Uşaqların bütün hərəkətinə göz qoyurdular. 5. Bizdən ayaq çəkən gözəl, Dur gəl nazlana - nazlana.

**Tapşırıq 6.**

"Çəkmək" və "saxlamaq" sözlərini həqiqi və məcazi mənalarda işlədin:

*Nümunə: əl çəkmək, özünü çəkmək; dilini saxlamaq, əldə saxlamaq.*

## TƏKMƏNALI VƏ ÇOXMƏNALI SÖZLƏR

Yalnız bir leksik mənası olan sözlərə təkmənalı sözlər deyilir. Məsələn, təyyarə, avtobus, yaşıl, moruq və s.

Eyni leksik məna ilə bağlı bir - birinə yaxın müxtəlif mənaları bildirən sözlərə çoxmənalı sözlər deyilir. Məsələn, ağız- quşun ağzı, yolun ağzı, qazanın ağzı, qapının ağzı, üz- adamın üzü, suyun üzü, yorğanın üzü və s.

**Təkmənalı və çoxmənalı sözlərə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Sol tərəfdə verilmiş çoxmənalı sözlərin hansı leksik mənalarda işləndiyini izah edin. Bunun üçün onları sağ tərəfdəki müvafiq sözlərlə söz birləşməsi şəklində yazm.

*Nümunə*: *qapının ağzı*

| | |
|---|---|
| burun | gəmi, ayaqqabı, dəvə |
| diş | mişar, pələng, daraq |
| qol | insan, ağac, çay |

**Tapşırıq 2.**

Verilmiş sözlərdən hansıları çoxmənalı, hansıları təkmənalıdır? Təkmənalı sözlərdən hər birini cümlədə işlədib yazın, isimlərin altından xətt çəkin.

Baş, duma, kəsmək, mübtəla, itburnu, dil

**Tapşırıq3.**

Beş atalar sözü əzbərləyin.

**Tapşırıq 4.**

"Tələbə həyatı" mövzusunda dialoq tərtib edin, dialoq şəklində tərtib etdiyiniz mətni vasitəli nitqə çevirərək danışın.

## OMONİMLƏR

Deyilişi və yazılışı eyni olan, lakin leksik mənalarına görə tamamilə fərqlənən sözlərə omonimlər deyilir.

Çoxmənalı sözlərdən fərqli olaraq, omonimlər ayrı - ayrı mənaları bildirir.

Lüğətlərdə omonimlər ayrı - ayrı sözlər kimi verilir və onların üzərinə sıra nömrələri qoyulur. Məsələn,

Divan$^1$ - oturmaq və yatmaq üçün ev avadanlığı. *Uşaq divanın üstündə yuxuya gemişdi*.

Divan$^2$ - cəza. Divan tutmaq.

Azərbaycan dilində omonimlər də çoxdur. Rus dilindən fərqli olaraq, bu dildə omonim sözlər həm eyni nitq hissəsinə, həm də müxtəlif nitq hissələrinə aid ola bilər.

**Omonimlərə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Oxuyun, omonimləri göstərin. Onların mənalarını izah edin, hansı nitq hissəsinə aid olduğunu söyləyin.

Qaz göldə üzürdü . Mətbəxdən qaz iyi gəlirdi.

Sürüdən ayrılan qoyunu qurd yeyər. (Atalar sözü). Ləklərdəki kələmləri qurd basmışdı.

Uşaqlar körpünü təmir etmək üçün özləri ilə külüng və bel də gətirmişdilər. Mühəndis iki gün idi ki, bel ağrısından şikayətlənirdi.

**Tapşırıq 2.**

Omonimlərə aid bir neçə nümunə yazın və cümlələrdə işlədin.

**Tapşırıq 3.**

“Milli müstəqillik günü ” mövzusunda mətin tərtib edin və şifahi danışın.

## SİNONİMLƏR

Yazılışı və deyilişi müxtəlif olan, lakin eyni və ya yaxın mənaları bildirən sözlərə sinonimlər deyilir.

Sinonimlər eyni mənanı bildirsə də, onların nitqdə işlənməsində incə fərqlər var. Məsələn, qaçmaq-yüyürmək sinonimlərindən ikisində də hərəkət daha güclüdür. Yaxud hündür, yüksək sinonimləri eyni əlaməti bildirsə də, bunlardan birincisini, məsələn, rütbə sözünə,ikincisini isə, ağac sözünə şamil etmək mümkün deyil.

Sinonimləri təşkil edən sözlər eyni bir nitq hissəsinə aid olur. Sinonim cərgələrində əsas söz dominant adlanır. Məsələn; gözəl - göyçək - cazibədar və s.

## Sinonimlərə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Əvvəlcə sinonim isimləri, sonra sinonim sifətləri, daha sonra isə sinonim feİlləri seçib yazın.

Külək, qısa, dincəlmək, meh, nəhəng, insan, incə, istəmək, gödək, böyük, adam, arzulamaq, istirahət etmək, zərif.

**Tapşırıq 2.**

Verilmiş sinonimləri müxtəlif cümlələrdə işlədib, onların məna incəliklərini izah etməyə çalışın.

Odlamaq, alışdırmaq, yandırmaq; müxtəsər, qısa; yatmaq, mürgüləmək, yuxulamaq; müfəssəl, geniş, gözəl, göyçək, yaraşıqlı; oturmaq, əyləşmək.

**Tapşırıq 3.**

Oxuyun, sinonim sözləri tapıb göstərin. Bir neçə sözü cümlədə işlədin, onların hansı nitq hissəsinə aid olduğunu izah edin.

**1.** Dağlara səs düşsün, çöllərə səda,
Gürlayan sellərin dinlə səsini.
(N.Xəzri)

**2.** Dünyadan qovulan kədər, qəm olsun,
Qəzəbin, nifrətin bəxti kəm olsun.
(M.Rahim)

**3.** Yurdum, yuvam, məskənimsən...
Anam, doğma vətənimsən
(S.Vurğun)

**4.** Hündür, uca qovaq ağaclarının arxasında uca bir bina görünürdü.

**Tapşırıq 4.**

Verilmiş sinonim sifətləri mötərizədəki isimlərə qoşmaqla mümkün olan söz birləşmələri düzəldib yazın.

*Nümunə*: qalın meşə, qalın kitab.

Qalın, sıx (meşə, kitab); zərif, incə (parça, xasiyyət); nəm, yaş

(hava, paltar); mehriban, səmimi (dost, söhbət).

Verilmiş sinonim sifətlərdən istifadə etməklə həmcins üzvlü iki cümlə tərtib edib yazın və həmcins üzvlərin altından xətt çəkin.

**Tapşırıq 5.**

"Ramazan bayramı" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin.

## ANTONİMLƏR

Mənaca bir-birinin əksi olan sözlərə antonimlər deyilir; məsələn, arıq-kök, çalışqan-tənbəl. gödək-hündür, işıq-qaranlıq, sülh-müharibə və s. Antonimləri təşkil edən sözlər eyni bir nitq hissəsinə aid olur.

**Tapşırıq 1.**

Verilmiş sözlərin antonimlərini tapın. Həmin antonimləri təşkil edən sözlər hansı nitq hissəsinə aiddir?

| | |
|---|---|
| qara- | yatmaq- |
| uzun- | oturmaq- |
| böyük- | susmaq- |
| gecə- | örtmək- |

**Tapşırıq 2.**

Verilmiş tapmacalarda antonim sözləri seçib yazın və tapmacaları əzbərləyin.

**1.** Ağ çala, qara toxum
Əlim ilə əkərəm,
Dilim ilə biçərəm. (Yazıb-oxumaq)

**2.** O nədir ki, baldan şirin, zəhərdən acı. (Dil)

**3.** Gecə dağılar.
Gündüz yığılar. (Yük)

**4.** Axşam oldu, saralar,
Sübh tezdən qaralar. (Lampa)

**Tapşırıq 3.**

Verilmiş sözlərin antonimlərini tapıb birlikdə köçürün. Gözəl-, çalışqan-, düzgün-, soyuq-, güclü-, yoxuş-.

**Tapşırıq 4.**

Verilmiş atalar sözlərində antonimləri göstərin, onların hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin və atalar sözlərini əzbərləyin.

1. Əyri otur, düz danış. 2. Söz böyüyün, su kiçiyindir. 3. Ağır ayaq başa dəyər, yüngül ayaq daşa dəyər. 4. Yaxşılıq et, yamanlıqdan qaç. 5. Böyük olan yerdə kiçik danışmaz. 6. Dost yüz olsa, azdır, düşmən bir olsa, çoxdur. 7. Ayın on beşi işıqdı, on beşi qaranlıq.

**Tapşırıq 5.**

"Novruz bayramı" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. Antonimlərin altından xətt çəkin.

## ƏSL AZƏRBAYCAN SÖZLƏRİ VƏ ALINMA SÖZLƏR

Dilimizin lüğət tərkibindəki sözlərin böyük əksəriyyəti mənşəyinə görə əsl Azərbaycan sözlərindən ibarətdir. Xüsusən əvəzliklərin, feillərin, demək olar ki, hamısı əsl türk mənşəli sözlərdir. Lakin bütün dillərdə olduğu kimi, bizim dilimizdə də başqa dillərdən alınma çoxlu sözlər var; məsələn. *təşəkkür, şikayət, xatirə, əlifba, qrammatika və s.* Belə sözləri iki qrupa ayımaq olar: 1) Ərəb-fars dillərindən alınma sözlər; məsələn, *sahib, qanun, hökm, müalicə və s.* 2) Avropa dillərindən alınma sözlər: məsələn, *velosiped, traktor, tramvay, demokratiya, respublika və s.*

Aşağıdakı xüsusiyyətlər əsl Azərbaycan sözləri üçün xarakterik deyil:

a) Sözün əvvəlində iki samitin yan-yana işlənməsi; məsələn, plan, stansiya, snayper və s.

b) Sözlərdə iki saitin yan-yana gəlməsi;, məsələn, ailə, mətbəə və s.

c) Sözün r, j hərfi ilə başlanması; məsələn, rahat, rəf, reys, Jalə, jaket və s.

## Əsl Azərbaycan sözləri və alınma sözlərə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Göstərilən xüsusiyyətləri nəzərə almaqla aşağıdakı sözlərdən hansılarının alınma olduğunu müəyyənləşdirin. Respublika, stəkan, uşaq, zoopark, müdafiə, sümük, günəş, şair, plakat, projector, qırmızı, bloknot, planet.

**Tapşırıq 2.**

Əslində ərəb-fars mənşəli olub, tərkibində uzun tələffüz olunan saitlərdən ibarət aşağıdakı sözləri köçürün, uzun tələffüz olunan saitlərin altından xətt çəkin və üstündə vurğusunu işarə edin. Əhali, şikayət, təcili, elan, tarix, əmanət, cinayət, istirahət, təmir, mədən, mötərizə, şöbə, memar, müalicə, xəyanət.

**Tapşırıq 3.**

Məhəmməd peyğəmbərin elm haqqında kəlamlarını əzbərləyin:

Beşikdən məzara qədər elm öyrənin. Ya elm öyrən, ya öyrət, ya elm öyrədənləri dinlə, ya elm əhlini sev. Başqa yola getsən, özünü məhv edərsən.

Elm, savad daima öyrənmək qadınlı-kişili bütün müsəlmanların borcudur.

Alimin yuxusu cahilin ibadətindən xeyirlidir.

Elm sahibinin dostu çox, mal sahibinin isə düşməni.

Elm insanı təvazökar, mal sahibi isə lovğa edər.

Elm qəlbə güc verər, mal isə qəlbi daşlaşdırar.

**Tapşırıq 4.**

"Qurban bayramı" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. Alınma sözləri seçib yazın.

## YENİ SÖZLƏR (NEOLOGİZMLƏR). KÖHNƏLMİŞ SÖZLƏR(ARXAİZMLƏR)

İctimai həyatda baş verən bir sıra yeniliklərlə əlaqədar olaraq, elmə, texnikaya, mədəniyyətə, məişətə və s. aid yeni əşyaları, hadisələri yeni sözlərlə ifadə etməyə ehtiyac yaranır, məsələn, *kosmodrom, sərinkeş, biznesmen, ekologiya, alışqan, telefilm və s.* Belə sözlərə yeni sözlər və ya neologizmlər deyilir.

Dilin lüğət tərkibinə daxil olan yeni sözlərin bir qismi müəyyən müddətdən sonra ümumişlək sözlərə çevrilir (telefılm, sərinkeş,yetərsay və s. kimi). Bəzi sözlər isə ümumişlək olmayan sözlər sırasında qalır (rotoprint, elektron, nitron və s.).

Dilə daima yeni sözlər daxil olmaqla yanaşı, bəzi sözlər dövrdən-dövrə köhnəlir, öz ümumişləklik xüsusiyyətini itirir. Məsələn, çuxa (üstündən geyilən, beli büzməli kişi geyimi), dinar (pul vahidi), qorodovoy (keçmişdə aşağı rütbəli polis işçisi), mədrəsə (dini məktəb) sözlərindən geniş istifadə olunardı, indi isə bunlar dilimizdə az işləndiyinə görə köhnəlmiş sözlər sırasına keçmişdir.

Neologizmlər və arxaizmlərə aid çalışma nümunələri:

***Tapşırıq 1.***

Verilmiş sözlərdən hansılar yeni sözlərdir?

Süpürgə, tozsoran, kibrit, yetərsay, gəmi, bərə, buzxana, soyuducu, teletaym, kinoteatr, teleteatr, bina, göydələn, pəncərə, nəfəslik, özəlləşdirmə, dabankeş (rajok).

**Tapşırıq 2.**

Aşağıdakı mənalara uyğun yeni sözlər hansılardı.

1.Otkrıtka mənasında işlənən yeni söz (?)

2.Müasir mənasında işlənən yeni söz (?)

3.Elektron hesablayıcı cihaz (?)

4.Kosmik gəmilərin uçuş meydanı (?)

5.Plyaj mənasında işlənən yeni söz (?)

**Tapşırıq3.**

Yazlışı səhv verilmiş aşağıdakı sözləri düzgün şəkildə yazın,

orfoqramların altından xətt çəkin. İstəkan, dəgirmi, məhşur, nərbənki, şafdalı, çekic, pencərə, pəndir, telqraf, mator, zəmbil, səliqə, zəyif, xoşbaxt, dəqiyqə, qabliyyət, billur, əysik, yumuruq, binövrə, həqiqət, tokqa, xəcalət

**Tapşırıq 4.**

M.Müşfiqin "Həyat sevgisi" şerini əzbər öyrənin.

**Tapşırıq 5.**

"Dünya azərbaycanlılarının həmrəylik günü" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin.

## FRAZEOLOJİ BİRLƏŞMƏLƏR

Nitqdə ayrı-ayrı sözlərlə yanaşı, bütövlükdə müəyyən bir leksik məna ifadə edən frazeoloji birləşmələrdən (sabit söz birləşmələrindən) də istifadə ounur. Frazeoloji birləşmələr dedikdə, tərkibcə dəyişməz, hazır şəkildə işlənən məcazi mənalı birləşmələr nəzərdə tutulur; məsələn, qorxmaq mənasında ürəyi ağzına gəlmək, inanmamaq mənasında gözü su içməmək, qaçmaq mənasında dabana tüpürmək, yorulmaq mənasında əldən düşmək və s. belə birləşmələr frazeoloji birləşmələr adlanır.

Frazeoloji birləşmələrin tərkibindəki ayrı-ayrı sözlər öz həqiqi mənalannı itirir, birlikdə məcazi məna ifadə edir. Bu baxımdan frazeoloji birləşmələr ağacın budağı, məktəbin binası, kitab mağazası və s. kimi sərbəst söz birləşmələrindən kəskin şəkildə fərqlənir; bunların tərkibindəki sözlər öz həqiqi mənalarında işlənir.

Frazeoloji birləşmələr bütövlükdə cümlənin bir üzvü olur. Frazeoloji birləşmələr nitqə xüsusi ifadəlilik, canlılıq gətirir. Belə birləşmələrdən əsasən, danışıq üslubunda, bədii uslubda istifadə olunur.

## Frazeoloji birləşmələrə aid çalışma nümunələri:

**Tapşırıq 1**

Oxuyun. Frazeoloji birləşmələri seçib göstərin.

1. Murtuzu bir addım da gözdən qoymaq olmaz. 2. Ağzını qıfıllayıb oturmaq ona baha başa gəldi. 3.Telli arvad Rüstəmin başına ağıl qoymaq istəyirdi. (M.İ) 4. Kim bacarmır çalışmasın, əl saxlasın. (R.R) 5. Neçə yüz adam əlini ağdan qaraya vurmayıb müftə dolanır. (N.V.) 6.Mən Eldarın kefinə dəyməmək üçün tüfəngə əl atmadım. 7.O, Rəisin otağından çıxanda qaş -qabağı yer süpürürdü.

**Tapşırıq 2.**

Oxuyun. Mənalarını izah edin. Hər birini cümlədə işlədin. Dilə gətirmək, dilini saxlamaq, dilotu yemək, dili boğaza qoymamaq, əl çəkmək, ələ almaq, əldə saxlamaq, ələ salmaq, əli üzülmək.

**Tapşırıq 3.**

Köçürün, yanında bir sözdən ibarət sinonimləri yazın.

Nümunə: əldən düşmək- yorulmaq.

Qəm dəryasına batmaq, iş görmək, gözünün suyunu axıtmaq, ürəyi düşmək, gözü kəlləsinə çıxmaq, gözü yolda qalmaq, gözün acısını almaq, burnunu sallamaq, yaxın yola yük daşımaq.

**Tapşırıq4.**

"Milli ordunun yaranması günü" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin.

**Tapşırıq 5.**

"Tələbə həyatı" mövzusunda dialoq tərtib edin, dialoq şəklində tərtib etdiyiniz mətni vasiləli nitqə çevirərək danışın.

# MORFOLOGİYA
# AZƏRBAYCAN DİLİNDƏ SÖZ YARADICILIĞI VASİTƏLƏRİ

Azərbaycan dilinin lüğət tərkibi daim inkişaf edir və zənginləşir. Lüğət ehtiyatının zənginləşməsinin özünəməxsus yolları mövcuddur.

Azərbaycan dilinin lüğət tərkibi əsasən aşağıdakı yollarla genişlənir.

Morfoloji yolla, yəni şəkilçi vasitəsilə dilimizdə çoxlu düzəltmə sözlər yaranmışdır. Dilimizdəki çoxlu sözdüzəldici, yaxud leksik şəkilçilər vardır ki, bunlar müxtəlif sözlərə artırılaraq düzəltmə sözlər əmələ gətirir.

İkinci söz yaradıcılığı yolu sintaktik yoldur ki, bunun vasitəsilə sözləri bir-birinə yanaşdırmaqla mürəkkəb sözlər düzəldilir.

Bunlardan başqa, ümumxalq danışıq dilindən sözlər götürməklə də dilimizin lüğət tərkibinə yeni sözlər gəlir.

Sözlərin mənaca dəyişməsi və inkişaf yolu ilə də lüğət ehtiyatımız genişlənə bilir. Yəni leksik yolla.

Dilimizin daxili imkanları hesabına söz yaratmağın yollarından biri də kalka üsuludur. Başqa dillərdən hər hansı sözü tərcümə tərcümə etməklə də söz yaradılmışdır. Samokritika – özünütənqid, priyomnik – qəbuledici və s.

## SÖZÜN TƏRKİBİ. KÖK VƏ ŞƏKİLÇİ. LEKSİK VƏ QRAMMATİK ŞƏKİLÇİLƏR.

Azərbaycan dilində sözlər kök və şəkilçidən ibarət olur. Əslində həm kök, həm də şəkilçi sözün mənalı hissələridir. Lakin bunların fərqi var. Belə ki, sözun ayrıca işləndikdə məna verən və dəyişməyən hissəsi kök adlanır. Azərbaycan dilində söz kökləri leksik mənaya malik olur.

Sözlərə bitişərək yeni mənalı söz əmələ gətirən və sözlər arasında əlaqə yaradan hissə şəkilçi adlanır. Məsələn, dəmirçi sözündəki dəmir kök, -çi isə şəkilçidir. Yaxud, yazıçının sözündəki yaz kök, - i,-çı,-m hissələri isə şəkilçilərdir.

## Kök və şəkilçiyə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Yalnız köklərdən ibarət olan bir neçə söz yazın.

**Tapşırıq 2.**

Aşağıdakı sözlərdən hansılar yalnız köklərdən ibarətdir?

İstirahət, idmançı, kəpənək, quşlar, dağlıq, pilləkən, stadion, saatsaz, yaşıl, əkiz, ovçu, müsahibə, yaralı, gavalı, erkək, sevinc, tüfəng.

**Tapşırıq 3.**

Oxuyun, şəkilçiləri olan sözləri kök və şəkilçilərinə ayırmaqla köçürün.

Siz böyük ümmansınız,
Mən kiçik bir zərrəyəm
Analar, ay analar.
Siz coşqun dalğasınız,
Mən körpəcə ləpəyəm,
Analar, ay analar.

(M.Gülgün)

**Tapşırıq-4.**

Aşağıdakı sözlərin hansında şəkilçilərin sayı daha çoxdur?

İşləyəcəyik, traktorçuların, balıqçılardan, əkinçiliyin.

**Tapşırıq 5.**

Köçürün, nöqtələrin yerinə müvafiq hərf yazın.

Şeh düşmüş as..alt yol günəşin şəfə…ləri altında parıldayırdı. Göz işlə…ikcə uzanan üzüm sahələrinin sonu görünmürdü. Üzümçü qızlar dirə...dərdən asılmış şaxələri təzədən bağlayıb

qaydaya salırdılar. Sıx yarpa..ların arasında qoralanmış iri salxımlar görünürdü. Salx..mlardan qızmar günəşin həsrəti duyulurdu. Xırda qoraların iki aydan sonra şəf.af gilələrə çevriləcəyini təsə..vürə gətirmək o qədər də çətin deyildi. (Y. Əzimzadədən)

**Tapşırıq 6.**
"Təbiət (ilin fəsilləri, iqlim, ətraf mühit)" mövzusunda mətn tərtib edin, və mətni təhlil edin.

## ŞƏKİLÇİLƏRİN NÖVLƏRİ

Şəkilçilər vəzifələrinə görə müxtəlif olur. Dilimizdəki şəkilçilər iki qrupa ayrılır.

1. Sözdüzəldici - leksik şəkilçilər.
2. Sözdəyişdirici -qrammatik şəkilçilər

Sözlərin kök və əsaslarına artırılaraq yeni mənalı söz əmələ gətirən şəkilçilər sözdüzəldici, yaxud leksik şəkilçilər adlanır. Məsələn: toxum-luq, əkin-çi, çeşmə-li sözlərindəki -luq, -çi və -li sözdüzəldici şəkilçilərdir.

Azərbaycan dilində əksər sözdüzəldici şəkilçilər söz köklərinin sonuna artırılaraq yeni mənalı söz əmələ gətirir. Bu cür şəkilçilər dilimizdə çoxdur.

Sözlərin əvvəlinə artırılaraq yeni mənalı söz əmələ gətirən şəkilçilər vardır. Məsələn: naxoş, antifaşist, biqeyrət sözlərindəki bi-, anti-, na-, hissələri ön şəkilçilərdir. Belə şəkilçilər dilimizə başqa dillədən keçmişdir.

Sözdüzəldici şəkilçilərin bir qismi sözə artırılır və dilimizin lüğət tərkibinin daxili imkanı hesabına zənginləşdirir. Belə şəkilçilər məhsuldar şəkilçilər adlanır.

Bəzi sözdüzəldici şəkilçilər isə yalniz bir neçə sözə artırlaraq yeni söz əmələ gətirir, bu cür şəkilçilər qeyri-məhsuldar şəkilçilər adlanır.

Bir sözə bəzən bir, bəzən də bir neçə sözdüzəldici şəkilçi artırıla bilər. Məsələn: dəmirçilik, yazıçılıq

Sözdəyişdirici şəkilçilər də sözdüzəldici şəkilçilər kimi, ayrılıqda işləndikdə məna vermir. Lakin fərq ondan ibarətdir ki, sözdüzəldici şəkilçilər sözlərə artırılaraq yeni mənalı söz əmələ gətirirsə, sözdəyişdirici şəkilçilər yeni mənalı söz əmələ gətirmir.

Sözlər arasında sintaktik əlaqə yaradan şəkilçilər sözdəyişdirici və ya qrammatik şəkilçilər adlanır. Məsələn: Tellini bağçada gördüm - cümləsindəki (n)i, da, dü+m şəkilçiləri üç söz arasında sintaktik əlaqə yaratmışdır.

**Şəkilçilərin növlərinə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Aşağıdakı sözlərə mümkün olan qədər sözdüzəldici, yaxud leksik şəkilçilər artırmaqla yeni sözlər düzəldin.

**Tapşırıq 2.**

-lıq, -lik, -luq, -lük; -çı, -çi, -çu, -çü; -lı, -lu, -li, -lü; -sız, -siz, -suz, -süz şəkilçilərinin hər birini ahəngə görə dörd sözə artıraraq yeni sözlər əmələ gətirin və bunları dəftərinizə yazın.

**Tapşırıq 3.**

"Xocalı faciəsi" mövzusunda mətn tərtib edin və şifahi danışın.

**Tapşırıq 4.**

Aşağıdakı parçadan sözdəyişdirici şəkilçisi olan sözləri seçib, köklərdən defislə (-) ayıraraq dəftərinizə yazın.

Deyin ki, uçmasın süzən dumanlar,
Bizim çayırlara, çöllərə düşsün.
Sonam qanadlanıb, pərvaz etməsin,
Suları dumduru göllərə düşsün.
Dağları əks edən səsim işləsin,
Çağlayan sulara, sellərə düşsün.
Könül rübabının şirin xalları,
Azad ölkələrə, ellərə düşsün.

İndi ki, açmışam söhbəti səndən,
Sözüm ağızlara, dillərə düşsün.
(M.Rahim)

**Tapşırıq 5.**

Kitab, məktəb, ferma və zavod sözlərinin hər birinə müxtəlif cümlələrdə yeddi cür sözdəyişdirici şəkilçi artıraraq dəftərinizə yazın.

Nümunə: Kitabın cildi təzədir. Kitaba maraq artır. Kitabı oxumalısınız. Bu kitabda maraqlı şeylər var. Bunu kitabdan öyrənmişəm. Bu olduqca maraqlı kitabdır. Kitabxananın kitabı təmiz saxlanmalıdır.

**Tapşırıq 6.**

Köçürün, leksik şəkilçilərin altından bir, qrammatik şəkilçilərin altından isə iki xətt çəkin.

1. Satıcı öz alıcılarının hörmətini qazanmışdı.
2. Tamaşaçılar cavan məzhəkəçini xeyli alqışladılar.

## ŞƏKİLÇİLƏRİN YAZILIŞI

Qrammatik şəkilçilər ahəng qanununa uyğun olaraq həmişə iki və dörd cür yazılır; məsələn, -lar, -lər, (kitab-lar, dəftər-lər); -dan, -dan (kitab-dan, dəftər-dən); -in, -in, -un, -ün (kitab-in, dəftər-in, qoyun-un, göl-ün); -dı, -di, -du, -dü (apar-dı, gətir-di, yu-du, süpür-dü) və s.

İki cür yazılan şəkilçilərin tərkibində yalnız iki açıq sait iştirak edir: a, ə. Digər açıq saitlər (e,o,ö) şəkilçilərdə ona görə iştirak etmir ki, əsl Azərbaycan sözlərində həmin səslər sözün birinci hecasından sonrakı hecalarında işlənmir. Açıq saitli şəkilçilərin yalnız iki cür yazılması məhz bu səbəblə bağlıdır.

Qapalı saitlər isə (i,ı,u,ü) sözün bütün hecalarında işləndiyi üçün şəkilçilərin də tərkibində iştirak edir. Buna görə də qapalı saitli şəkilçilər ahəng qanununun tələbinə uyğun olaraq dörd cür yazılır.

## Şəkilçilərin yazılışına aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Oxuyun. Sözlərdəki şəkilçiləri göstərin, ahəng qanununa görə onların neçə cür yazıldığını deyin. Bayatıları əzbərləyin.

Aşıq deyər, nə qaldı?
Nə qaydadı, nə qaldı?
Mərd igiddən şan-şöhrət,
Bəs namərddən nə qaldı?

**Tapşırıq 2.**

Sözləri kök və şəkilçilərinə ayırmaqla köçürün (məsələn: otağ-a).

Dağa, qayaya, şəhərə, körpüyə, qalacaq, qalayacaq, dərəcək, deyəcək.

**Tapşırıq 3.**

Verilmiş söz birləşməsində birinci tərəfə yönlük hal şəkilçiləri artırıb yazın. Bitişdirici samitlə işlənən şəkilçilərin altından xətt çəkin.

Yaşıllıq., qayğı, xəstə., qayğı, böyük., hörmət, ana., hörmət, yarış., baxış, məktub., cavab, ərizə., cavab, kolxoz., kömək, briqada., kömək, işıq., qənaət, su., qənaət.

**Tapşırıq 4.**

Verilmiş sözlərdə leksik şəkilçiləri göstərin və onların neçə cür yazıldığını izah edin.

Sirdaş, oxucu, satıcı, lüğətçə, qazança, günəşli, çiçəkli, sənətkar, hökmdar, sərinlik, şəhərli, əməkdar, laçınlı, dənizçi.

**Tapşırıq 5.**

Verilmiş sözlərə əvvəl -lı$^4$, sonra isə -sız$^4$ şəkilçisi artırmaqla yeni sözlər düzəldib yazın. Külək, dalğa, köpük, motor, kömək.

**Tapşırıq 6.**

Verilmiş sözlərə -lıq$^4$ şəkilçisi artırmaqla yeni sözlər düzəldib yazın.

Qum, dağ, meşə, təpə, qaya, çəmən, kol, çala, çöl, çinar, çiçək, boş. ot, zibil.

**Tapşırıq 7.**

“Gənclərin tərbiyəsi ” mövzusunda mətn tərtib edin. Şəkilçilərin yazılışına diqqət yetirin.

## SÖZLƏRİN QURULUŞCA NÖVLƏRİ

Dilimizdə olan sözlər quruluşca sadə, düzəltmə və mürəkkəb olmaqla üç qrupa ayrılır. Təkcə bir kökdən və ya köklə sözdəyişdirici şəkilçidən ibarət olan sözlər sadə sözlər adlanır.

Söz köklərinə sözdüzəldici şəkilçilərin artırılması yolu ilə düzələn sözlər düzəltmə sözlər adlanır. Məsələn: qurucu, dəmirçi və s.

İki və daha artıq sözün birləşməsindən əmələ gələn sözlər isə mürəkkəb sözlər adlanır. Məsələn: ağsaqqal, günəbaxan və s.

Mürəkkəb sözlər bir neçə yolla əmələ gəlir və müxtəlif şəkildə yazılır.

İki və daha artıq müxtəlif mənalı sözün birləşməsi ilə əmələ gələn mürəkkəb sözlər bir vurğu ilə tələffüz edilərək bitişik yazılır; Cəlilabad, əlüzyuyan və s.

Mürəkkəb sözlər yaxın və əks mənalı sözlərin birləşməsindən əmələ gəldikdə defislə yazılır. Məsələn, ayaq-baş, yorğan-döşək və s.

Eynimənalı sözlərin təkrarı ilə düzələn mürəkkəb sözlər də defislə yazılır: Məsələn: tez-tez, yavaş-yavaş. Bəzən belə sözlər ba, bə, ha ünsürləri vasitəsilə birləşdirilir və bitişik yazılır. Məsələn: yanbayan, vurhavur və s.

**Sözlərin quruluşca növlərinə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Verilmiş sadə sözlərdən cümlələr düzəldib yazın.

Məqsəd, nöqsan, kitab, rəqs, saat, mədəniyyət, əkiz, övlad, ılıq, işıq, ildırım, əhvalat, həyəcan, süfrə, xasiyyət, müfəssəl.

**Tapşırıq 2.**

Yol, vətən, əmək və sirr sözlərinə -daş şəkilçisi artırmaqla yeni sözlər düzəldib cümlələrdə işlədin.

**Tapşırıq 3.**

Əmək, anbar, qayğı, zəhmət sözlərinə -dar və -keş şəkilçiləri artırmaqla yeni sözlər düzəldib cümlələrdə işlədin.

**Tapşırıq 4.**

Verilmiş sözlərə əvvəlcə -li$^4$, sonra -siz$^4$ şəkilçilərini artırmaqla sifətlər düzəldib yazın. Düzəltdiyiniz sifətlərdən beşini cümlələrdə işlədin.

Nümunə: duzlu-duzsuz

Zəfər, su, toz, qar, kirəmid, qənd, savad, işıq, tikan, şəkil, dad.

**Tapşırıq 5.**

Müxtəlif nitq hissələrinə aid verilmiş aşağıdakı sözlərdən -lıq$^4$ şəkilçisi vasitəsilə isimlər düzəldib yazm. Düzəltdiyiniz sözlərin mənalarını izah edin

Ad, göz, palto, mühəndis, həkim, uzun, kök, əsir, bir, on, nəm, mən.

**Tapşırıq 6.**

Şerlərdəki leksik və qrammatik şəkilçiləri seçib yazın.

Qatar-qatar olub qalxıb havaya,
Nə çıxıbsız asimana, durnalar!
Qərib-qərib, qəmgin-qəmgin ötərsiz,
Üz tutubsuz nə məkanə, durnalar!

Ərz eyləyim, bu sözümün sağıdır,
Yollarınız həramidir, yağıdır,
Şahin, şonqar sürbənizi dağıdır,
Boyanarsız qızıl qanə, durnalar!

(M.V.Vidadi)

Uşaqlıq günlərimi xatırlayıram hərdən,
Yadıma coşğun sular, bir də ki, dəniz düşür.
Xəyalımda quş kimi qanadlanan, ötüşən
Qəyalı sahildəki kiçik kəndimiz düşür.

Biz beş altı uşaqdıq, səhərdən axşamacan,
Gəzərdik ayaqyalın çılpaq qayalıqları.
Başqa nəşə duyardıq sahilə dönən zaman
Ağ yelkənli xırdaca balıqçı qayıqları.
Açılardı qəlbimiz xoş üzlü səhər kimi,
Belə olur adətən balıqçı uşaqları.
Bir parıltı saçaraq sıyrılmış xəncər kimi,
Gümüş pullu balıqlar sıçrayırdı yuxarı.

(Ə.Əlibəyli)

**Tapşırıq 7.**

Bitişik, defislə və ayrı yazılan mürəkkəb sözlərin hər birinə aid on söz yazın.

**Tapşırıq 8.**

"Tələbənin asüdə vaxtı" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. Düzəltmə sözlərin altından xətt çəkin.

## SÖZÜN BAŞLANĞIC FORMASI

Sözün başlanğıc forması onun leksik mənasını bildirən hissəsidir. Demək, sözün qrammatik şəkilçilərini atsaq, yerdə qalan hissəsi onun başlanğıc forması kimi başa düşülməlidir.

### Sözün tərkibinə görə təhlili

1. Təhlil edilən sözün hansı nitq hissəsinə aidliyi göstərilir.
2. Sözün başlanğıc forması (ya kökdən, ya da köklə leksik şəkilçidən ibarət olan hissəsi) müəyyən edilir.
3. Əgər başlanğıc forması düzəltmə sözdürsə, onun necə əmələ gəlməsi izah olunur.
4. Sözün qrammatik şəkilçilərindən hər birinin mənası (hansı halı, hansı zamanı və s. bildirməsi) müəyənləşdirilir.

# ƏSAS NİTQ HİSSƏLƏRİ
## İSİM

Əşyaların adlarını bildirən, *kim? nə?* və bəzən də *hara?* suallarından birinə cavab olan nitq hissəsinə isim deyilir. Məsələn: bağban, bayraq, dağ, qələbə və s.

Əşya dedikdə bütün varlıqlar nəzərdə tutulur. Varlıqlar iki cür olur: gözlə görünən (çörək, qapı, dəniz, iynə, duman və s.) və mücərrəd varlıqlar (xəyal, yuxu, məna, fikir, uğur, elm və s.).

İsimlər tək və cəm ola bilir, hallara görə dəyişir.
İsimlər cümlədə, əsasən, mübtəda və ya tamamlıq olur; bəzən də digər cümlə üzvləri vəzifəsində işlənə bilir. Məsələn:

Müb. — Gəmi körpüdən uzaqlaşdı.
Tam. — Dənizçilər gəmini körpüyə bəndlədilər.
Xəbər. — Bu, nəhəng gəmidir.
Zərflik. — Mən gəmidə Eldarla rastlaşdım.

**İsmə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

İsimlərə aid aşağıdakı qaydada misallar söyləyin.

1. İnsan adlarını bildirən isimlər:
2. Qohumluq əlaqələrini bildirən isimlər:
3. Heyvan adlarını bildirən isimlər:
4. Bitki adlarım bildirən isimlər:
5. Nəqliyyat vasitələrinin adlarını bildirən isimlər:
6. Ev əşyalarının adlarını bildirən isimlər:
7. Silah adlarını bildirən isimlər:
8. Çalğı alətlərinin adlarını bildirən isimlər:
9. Təbiət hadisələrinin adlarını bildirən isimlər:
10. Mücərrəd varlıqların adlarını bildirən isimlər:

**Tapşırıq 2.**

Mücərrəd varlıqların adlarını bildirən isimləri seçib yazın.

Müsahibə, ağac, qartal, mərhəmət, fikir, qaya, şaftalı, xasiyyət, həvəs, xatirə, çiçək, yağış, qonaq, hövsələ, üfüq.

**Tapşırıq 3.**

Verilmiş cümlələrdə isimləri göstərin, onlann hansı cümlə üzvü vəzifəsində işləndiyini müəyyənləşdirin.

Külək şiddətlə əsirdi. Ağaclar yellənirdi. Mən böyük bir ağacdan yapışdım.

**Tapşırıq 4.**

"Biz gənclər Azərbaycanın gələcəyiyik" mövzusunda mətn tərtib edin. Mətnin planını tərtib edin və isimlərin altından xətt çəkin. Çətin sözləri öyrənin.

**Tapşırıq 5.**

A. Səhhətin "Vətən" şerindəki bu misraları necə başa düşürsünüz, şifahi izah edin.

"Vətəni sevməyən insan olmaz,
Olsa da ol, şəxsdə vicdan olmaz."

## SADƏ VƏ DÜZƏLTMƏ İSİMLƏR

Sadə isimlər yalnız köklərdən, yaxud kök və qrammatik şəkilçilərdən ibarət olur. Məsələn: torpaq, torpağın, torpağa və s.

Düzəltmə isimlər isə müxtəlif söz köklərinə leksik şəkilçilər artırmaqla düzəlir. Məsələn: təpə-təpəlik, sənət-sənətkar, quş- quşçu və s.

Düzəltmə isimlər iki qrupa ayrılır:

1.İsimdən düzələn düzəltmə isimlər

2.Feildən düzələn düzəlmə isimlər

### İsimdən düzələn düzəltmə isimlər:

-çı$^4$ şəkilçisi ilə düzələn düzəltmə isimlər: balıq-baqlıqçı, çörək-çörəkçi və s.

-lıq$^4$ şəkilçisi ilə düzələn düzəltmə isimlər: dağ-dağlıq, dərzi- dərzilik, ağac- ağaclıq və s.

-daş şəkilçisi ilə düzələn düzəltmə isimlər:

əmək-əməkdaş, sirr-sirdaş və s.

-ça$^2$ şəkilçisi ilə düzələn düzəltmə isimlər: meydan - meydança, dəftər - dəftərçə və s.

**Feildən düzələn düzəlmə isimlər:**

-iş$^4$ şəkilçisi feillərə qoşularaq hərəkətlə bağlı müxtəlif mənalı düzəltmə isimlər əmələ gətirir; məsələn, bax-baxış, dur-duruş, gül-gülüş, dön- dönüş və s.

-aq$^2$,,-q, -k şəkilçisi vasitəsilə feillərdən müxtəlif mənalı düzəltmə isimlər əmələ gətirilir; məsələn, yat-yataq, dara-daraq, qaç-qaçaq, istə-istək və s.

-ma$^2$ şəkilçisi feil köklərindən müxtəlif mənalı düzəltmə isimlər əmələ gətirir və vurğulu tələffüz edilməsi ilə fərqlənir; məsələn, qovur-qovurma, süz-süzmə, qoş-qoşma və s.

-tı$^4$ şəkilçisi də müxtəlif mənalı düzəltmə isimlər əmələ gətirir; məsələn, qışqır-qışqırtı, çığır-çığırtı və s.

-qı, -ğı, -qu, -ğu; -ki, -gi, -kü, -gü şəkilçiləri feil köklərindən ən çox mücərrəd mənalı isimlər düzəldir; əvvəlincilər qalın saitli, sonrakılar isə incə saitli feillərə qoşulur. Məsələn, as- asqı, çal-çalğı, pus-pusqu, vur-vurğu; səp-səpgi, sürt-sürtkü, böl-bölgü və s.

**Sadə və düzəltmə isimlərə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Verilmiş sadə və onlardan əmələ gəlmiş düzəltmə isimlərin məna fərqlərini izah etməyə çalışın.

Gəmi-gəmiçi, pambıq-pambıqçı, gül-gülçü, meşə-meşəlik, kol-kolluq, kitab-kitabça, qazan- qazança, vətən-vətəndaş, yol-yoldaş.

**Tapşırıq 2.**

Verilmiş isim köklərinə -lıq$^4$, -çı$^4$ şəkilçilərindən uyğun gələnini artırmaqla düzəltmə isimlər düzəldib yazın.

Çəmən, qayıq, məruzə, gül, kölgə, qoyun, ticarət, pambıq, həkim, balıq, işıq.

**Tapşırıq 3.**

Aşağıdakı mənalardan hər birini bir sözlə ifadə edin.

Kombayn sürən şəxs-
Bolqarların vətəni olan olkə-
Kömək göstərən şəxs-
Kiçik meydan-
Çoxlu çinar ağacı olan yer-
Balaca döşək-

**Tapşırıq 4.**

Köçürün , düzəltmə isimlərin altından xətt çəkin.

Gənc v..leybolçular meydan..aya toplaşdılar. Bir azdan məşqçi də gəldi və oyunçularla məşqə başladı. Ətrafda xeyli azarkeş tamaşaçı da vardı. Onların b..ziləri çəmənlikdə yerə sərilmişdilər.

**Tapşırıq 5.**

Oxuyun, düzəltmə isimləri seçib göstərin. Düzəltmə isimləri necə varsa, eləcə dəftərinizə köçürün və onları tərkibinə görə təhlil edin (şərti işarələrlə).

1.Bizim kəndin adamları taxılçılıqla məşğul olur. 2. Pambıqçılar topladıqları məhsuldan böyük gəlir götürürlər. 3. Təyyarəçi olmaq Şahinin çoxdankı arzusu idi. 4. Quzular dağın yamacındakı otlağa tərəf yan aldılar. 5. Döyüşçülərimiz mərdliklə vuruşurdular.

**Tapşırıq 6.**

Verilmiş söz birləşmələrinin tərkibindəki düzəltmə isimləri başlanğıc formada dəftərinizə köçürün.

Uçuşa hazırlıq, əsgərliyə çağırış, balıqçıların hünəri, fabrikin toxucuları, binanın hündürlüyü, kitabçanın cildi.

**Tapşırıq 7.**

Çağırış, toxucu, balıqçı sözlərinin hər birini bir cümlədə işlədib yazın.

**Tapşırıq 8.**

-ça$^{2}$, çığaz$^{4}$, -cıq$^{4}$ şəkilçiləri kiçiltmə mənasını bildirən düzəltmə isimlər əmələ gətirir. Aşağıdakı sözlərə həmin şəkilçilərdən uyğun gələnini artırıb yazın.

Kitab.., quş.., lüğət.., heyvan.., uşaq.., dəftər.., bağ..,

meydan.., qız.., döşək....

**Tapşırıq9.**

Oxuyun, düzəltmə isimləri göstərin, sonra onları başlanğıc formada dəftərinizə köçürün.

1. Birdən qızcığaz bərkdən çığırdı. 2. Səlim qazançanı ocağm yanındakı qara daşın üstünə qoydu. 3. Dənizçi öz qayığını təmirçiyə vermişdir. 4.Yaşıl yarpaqlar arasına sığınmış quşcığazlar səs-səsə verib ötüşürdü.(A.Ş) 5. Evin yuxarı başınada yerə bir döşəkçə salınmışdı.

**Tapşırıq 10.**

Hər cərgədə verilmiş düzəltmə isimdən hansı feildən düzələn düzəltmə isim deyil?

| | | | |
|---|---|---|---|
| Seçki | gülüş | daxmacıq | arayış |
| Meşəlik | partlayış | istək | görüş |

**Tapşırıq 11.**

-ıntı$^4$, -ıcı$^4$ şəkilçiləri də feildən isim düzəldən şəlikçilərdəndir. Verilmiş cümlələri oxuyun, həmin şəkilçilərlə düzələn isimləri seçib göstərin.

1. Arxeoloqların apardıqları qazıntılar qədim Qəbələ şəhərinin qalıqlarını aşkara çıxarmışdır. 2. Günəş yuvarlanır dağlar dalına, qaralır göllərin gəzinti yeri (S.V). 3. Təzə və ucuz mal alıcısı həmişə çox olur. 4. Məlumat verdilər ki, zəlzələ xeyli dağıntıya səbəb olmuşdur. 5. Fabrikin əyiriciləri öz gəlirlərindən razıdırlar. 6. Borunun əyintisi açıqca hiss olunurdu.

**Tapşırıq 12.**

Oxuyun, feildən düzələn isimləri seçib başlanğıc formada yazın. Nəzərə alın ki, şeirdə altı belə isim var. Şeiri əzbərləyin.

Nədən yarandın.
Sən qüdrətin aşıb - coşan vaxtında
Mələklərin gülüşündən yarandın.
Səhər dilli bir fırçanın əli və
Ahuların duruşundan yarandın.
Ay işığı... Gözəlliyin, qızlığın

Çiçəklərlə öpüşündən yarandın.
Sərinlətdin baxışınla könlümü,
Buludların uçuşundan yarandın...
Qələm əldə ilhamını dinlərkən
Sən qəlbimin vuruşundan yarandın.
(Ə.Cavad)

## İSİM DÜZƏLDƏN ŞƏKİLÇİLƏRİN YAZILIŞI

Feil köklərindən isim düzəldən -qı (-ğı,-qu,-ğu), -ki (-gi, kü,-gü) şəkilçilərindən -ğı, -ğu; -gi, gü sonu cingiltili samitlə bitən feil köklərinə artırılır; məsələn, çalğı, qurğu, sərgi, bölgü. Bunların yazılışı ilə tələffüzü bir-birindən fərqlənmir.

Sonu kar samitlə bitən fel köklərinə isə - qı, -qu, -ki, -kü şəkilçiləri artırılır; məsələn. asqı, pusqu, səpki, sürtkü və s. lakin belə sözlərin tələffüzündə -ki, -kü şəkilçilərinin ilk samiti cingiltililəşir, yəni seçgi, bitgi, sürtgü və s. şəklində tələffüz olunur.

-stan şəkilçisi saitlə bitən isimlərə artırılarkən həmişə bir cür yazılır; məsələn, Gürcü¬stan, Qobu-stan. Lakin samitlə bitən isimlərə qoşulduqda ahəng qanununa uyğun olaraq həmin şəkilçinin əvvəlinə ı, i,u,ü saitlərindən biri əlavə olunur; məsələn, gül-üstan, kənd-istan və s.

### İsim düzəldən şəkilçilərin yazılışına aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Beş bayatı əzbərləyin.

**Tapşırıq 2.**

Verilmiş sözlərə -stan şəkilçisi artırıb yazın. Sonra hər sözdə həmin şəkilçinin yazılış qaydasını izah edin. Həmin sözlərin bəzilərinin nə üçün böyük, bəzilərinin isə kicik hərflə yazıldığını izah edin.

Tacik.., Qırğız.., Gürcü.., Qobu.., Qazax.., Türkmən.., kənd.., qəbir.., gül...

**Tapşırıq 3.**

Aşağıdakı cərgələrdən hansındakı bütün sözlər eyniköklüdür?

| | |
|---|---|
| ovçu, ovlaq, ovuc | üzüm, üzücü, üzlük |
| əlcək, ələk, əlvan | çıxış, çıxıntı, çıxarış |

**Tapşırıq 4.**

Verimiş düzəltmə isimləri iki məna qrupuna ayırmaqla yazın: 1) əşyanın çoxluğunu bildirən isimlər, 2) əlamət bildirən isimlər.

Ağaclıq, dağlıq, yaxşılıq, lovğalıq, təmizlik, daşlıq, kolluq, igidlik, şənlik, gözəllik, çiçəklik, samanlıq, meşəlik.

**Tapşırıq 5.**

"Əsrin neft kontraktı" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. İsim düzəldən şəkilçilərin altından xətt çəkin.

## MÜRƏKKƏB İSİMLƏRİN ƏMƏLƏ GƏLMƏSİ VƏ ORFOQRAFİYASI

Mürəkkəb isimlər bir neçə yolla əmələ gəlir:

1. Müxtəlif mənalı iki söz birləşərək başqa bir mənanı bildirən mürəkkəb isim əmələr gətirib bir vurğu altında tələffüz olunur və bitişik yazılır. Məsələn: kəklikotu, ayaqqabı, tozsoran və s.

2. Mürəkkəb isimlərin bir qismi yaxın mənalı, yaxud antonim sözlərin birləşməsindən əmələ gəlib, bir vurğu altında tələffüz olunur və defislə yazılır; məsələn, dəftər-kitab, söz-söhbət, toyuq-cücə, taxta-şalban, ev-eşik və s.

3.Defislə yazılan elə mürəkkəb isimlər də var ki, onların tərəflərindən biri ayrılıqda işlənmir və ayrılıqda heç bir məna bildirmir; məsələn, kağız-kuğuz, uşaq-muşaq, dəmir-dümür. taxta-tuxta, mer-meyvə və s.

4. Bəzi mürəkkəb isimilər isə **"ha", "a"** bitişdiriciləri

vasitəsilə eyni feil kökünün təkrarlarından əmələ gəlir və bitişik yazılır. Məsələn, gəlhagəl, gethaget, qaçaqaç , tetatet, çalhaçal, basabas və s.

Mürəkkəb isimlərin növləri:

1. isim+isim, məsələn, Aygün, Günay və s.
2. sifət+isim, məsələn, istiot, Göyçay və s.
3. isim+fel, məsələn, tozsoran, günəbaxan və s.

***Ağa, bəy, xanım, şah*** tipli sözlər mürəkkəb ismin tərkib hissəsi olduqda bitişik yazılır; məsələn, *Ağabəy, Gülxanım* və s. Həmin sözlər ləqəb, titul, rütbə bildirdikdə, yaxud hörmət mənasında (əsasən, xanım, bəy sözləri) işləndikdə ayrı yazılır, demək, mürəkkəb sözün tərkib hissəsi olmur; məsələn, Abbasqulu ağa Bakixanov, Şah İsmayıl Xətai, Məhsəti xanım Gəncəvi; Üzeyir bəy, Dilarə xanım və s.

## Mürəkkəb isimlərin əmələ gəlməsi və yazılışına aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Verilmiş mürəkkəb isimlərin necə əmələ gəldiyini və hansı məna bildirdiyini izah edin. Həmin sözlərin tələffüzündə vurğu hansı hecanın üzərinə düşür.

Balıqqulağı, sarıköynək, qaratoyuq, adadovşanı, günəbaxan, üçbucaq, bağayarpağı.

**Tapşırıq 2.**

Verilmiş insan adları içərisində quruluşca mürəkkəb olanlarını seçib göstərin, onların necə əmələ gəldiyini izah edin.

Elxan, Gülşən, Səriyyə, Aytən, Məhərrəm, Şirməmməd, Günay, Aysel, Abbasqulu, Elbəy, Kamran, Gülnisə, Gülağa, Ağabəy, Səyavuş, Aybəniz.

**Tapşırıq 3.**

Köçürün, mürəkkəb isimlərin altından xətt çəkin.

1.Ay Allahqulu, yaxşı ki, yaxamızı bu vurhavurdan qurtardıq.(Y.V.Ç) 2. Bu dəstələr bir - birinə rast gələndə

partapart başlanar, qaçaqaç düşərdi (H. Sarabski). 3. Kapitan kəndiri yerə atanda Tahir onu düşhadüşdə tuta bildi (M.H). 4. Əlibəy Tağı bəyin hüzuruna getməyə məcbur oldu. 5. Xanımana Əlibəyli uşaq şairi kimi məhşurdu. 6. Biz bayramqabağı Leyla xanıma təbrik göndərdik.

**Tapşırıq 4.**

A.Səhhətin "Vətən" şeirini əzbər öyrənin, şeiri nəsrə çevirin.

**Tapşırıq 5.**

"İdman zalında" mövzusunda dialoq tərtib edin, dialoq şəklində tərtib etdiyiniz mətni danışın.

## ÜMUMİ VƏ XÜSUSİ İSİMLƏR

İsimlər iki cür olur: ümumi və xüsusi isimlər;

Eynicinsli bütün varlıq və hadisələrin ümumi adları ümumi isimlərdir; məsələn, *ağac, çinar, qərənfil, ot, yovşan, yağış, tufan və s.*

Ayrı- ayrı şəxslərin və tək olması ilə fərqlənən digər varlıqların adları isə xüsusi isimlərdir. Xüsusi isimlərə aşağıdakılar aiddir:

a) Şəxslərin adları və soyadları (eləcə də təxəllüs və ləqəbləri); məsələn, *Məhəmmədəmin Rəsulzadə, Cəfər Cabbarlı, Üzeyir Hacıbəyli, Çingiz Müstafayev, Salatın Əsgərova, Koroğlu, Qaçaq Nəbi və s*

b) Coğrafi və astronomik adlar: məsələn, *Azərbaycan, Türkiyə, Kür, Kəpəz, Gəncə, Kərkicahan, Şuşa, Topxana, Laçın, Xocalı, Ay, Günəş, Mars v. s.*

c) Qəzet və jurnallara, müxtəlif əsərlərə, gəmilərə, kafelərə və s. verilən adlar; məsələn: *Azadlıq, Azərbaycan (qəzet jurnal), Səfillər (roman), Koroğlu (opera), "Şəhidlər" (gəmi), "Lalə " (kafe) və s.*

ç) Heyvanlara verilən xüsusi adlar; məsələn: *Toplan, Gümüş, Qırat, Kürən və s.*

Xüsusi isimlər cümlədəki yerindən asılı olmayaraq böyük hərflə yazılır. Qəzet, jurnal, kitab, musiqi əsəri, gəmi,

kafe və s. adlan böyük hərflə və dırnaqda yazılır.

Bəzi ümumi isimlər xüsusi isimlərə çevrilə bilir; məsələn: *arzu, sevinc, səma, kamal, ceyran, durna* və s. kimi ümumi isimlər şəxs adı bildirdikdə *(Arzu ,Sevinc, Kamal),* bəzən də kafe, kinoteatr, mağaza və s. adlan kimi işləndikdə *("Sevinc "* kafesi, *"Şəfəq "* kinoteatn, *"Arzu "* mağazası...) xüsusi isim olur.

Xüsusi isimlər də ümumi ismə keçə bilir; məsələn: *Badamlı-qəsəbə* adıdır, *badamlı* isə mineral su növlərindən birinin adıdır.

## Ümumi və xüsusi isimlərə aid çalışma nümunələri:

**Tapşırıq1.**

Verilmiş cümləlləri elə dəyişdirib yazın ki, əvvəlinci sözlər cümlənin başında işlənməsin.

1. Sirab müalicə sulanndan biridir. 2. Bahar biz də böyük sevinclə qarşılandıq. 3. Gümüş ilk günlərdə Toplanla yola getmişdi. 4. Ceyran və Maral bir-biri ilə tez-tez məktublaşırlar.

**Tapşırıq2.**

Tanıdığınız şair və yazıçıların adlarını yazın.

**Tapşırıq 3.**

Köçürün, xüsusi isimlərin altından xətt çəkin.

1. Gün..ərin bir günü Koroğlu Qıratın belində Çənlibelin ətəyindəki yola çıxdı. 2. Bakı limandan aynlan "Qəsəbə" tankeri Nargin adasının yarımdan ötərək açıq dənizə çıxdı. 3. Qızıl sü..bülləri qurşağa çıxan Şirvan da, Muğan da öz vətənimdir. (S.V.) 4. Axşamtərəfi biz Lənk..randan Lerikə yola düşdük. 5. Onlar "Bənövşə" kafesinin yanından ötüb "Şəfəq" kinoteatrına tərəf döndülər.

**Tapşırıq 4.**

Oxuyun. Günəş, yer, ay sözlərinin hansı cümlələrdə xüsusi isim kimi, hansı cümlələrdə isə ümumi isim kimi

işləndiyini izah edin.

1.Planetimiz işıq və istiliyi Günəşdən alır. 2. Toz-torpaq göyün üzünü elə bürümüşdü ki, günəş görünmürdü.(A.S) 3. Biz qızmar günəşin altında xeyli yol getməli olduq. 4. Keşikçilər günəşi salamlayır, açılan gözəl bir səhərin müjdəçisi olurlar. (Y.V.Ç) 5. İnşallah, ay başımızın üstünə qalxanda yola düşərik. 6. İlk dəfə Aya ayaq basan amerikan kosmonavtlar olmuşdular. 7. Ay Yerin peykidir, lakin bu planetlərin ikisi də Günəşin ətrafında fırlanır. 8. Təyyarə xeyli uzaqlarda yerdən ayrıldı. 9. İsit yer üzünü bir Günəş qədər. Odlu nəfəsinlə ərisin ayaz...(Z.Y.)

**Tapşırıq 5.**

İl ərzində qarşıladığımız milli və dini bayramlarımız hansılardır? Onların adlarını yazın.

**Tapşırıq 6.**

"Tədbirdə" mövzusunda dialoq tərtib edin, dialoq şəklində tərtib etdiyiniz mətni nəsrə çevirib danışın.

## MÜRƏKKƏB ADLAR VƏ ONLARIN YAZILIŞI

Mürəkkəb adların xüsusi isimlərdən fərqi ondadır ki, xüsusi isimlər ayrı-ayrı sözlər, mürəkkəb adlar isə söz birləşmələrindən ibarət olur. Məsələn,

| Xüsusi isimlər: | Mürəkkəb adlar: |
|---|---|
| Bakı | Bakı İcra Hakimiyyəti |
| Mingəçevir | Mingəçevir Xalq Təhsili Şöbəsi |
| | Azərbaycan Respublikasının Milli qəhrəmanı |

Mürəkkəb adlara a) idarə və təşkilatların; b) respublika bayramlarının; c) dövlət təltiflərinin adları; ç) coğrafi adlar daxildir.

Mürəkkəb adlar cümlənin bütöv üzvü olur.

Mürəkkəb adların yazılışında üç qayda var:

**1. Aşağıdakı mürəkkəb adların tərkibində olan bütün sözlərin baş hərfi böyük yazılır.**

a) Ölkələrin, muxtar respublikaların rəsmi adlarında; məsələn, Azərbaycan Respublikası, İran İslam Respublikası və s.

b) Respublika, şəhər və rayon tabeliyində olan idarə və təşkilatların adlarında; məsələn, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, Bakı Qaz İdarəsi və s.

**2. Aşağıdakı mürəkkəb adların tərkibində olan sözlərin ancaq əvvəlincisi böyük hərflə yazılır.**

a) Məşhur tarixi gün və bayramların adlarında; məsələn:İyirmi yanvar, Novruz bayramı, Milli dirçəliş və s.

b) Tərkibində okean, dəniz çay, meydan, küçə və s. sözlər olan coğrafi adlarda;məsələn: Sakit ocean, Xəzər dənizi, Müəllimlər evi, Gənclər meydanı və s.

c) Dövlət mükafatı və təltiflərinin (orden, medal, nişan) adlarında; məsələn, Dövlət mükafatı, "Xalq təhsili əlaçısı" və s.

**3. Fəxri adların özək hissəsini təşkil edən bütün sözlər kiçik hərflə yazılır**; məsələn, Azərbaycan respublikasının əməkdar müəllimi (əməkdar müəllim) və s.

Mürəkkəb adların bir çoxu, xüsusən ölkə, idarə və təşkilat adları mürəkkəb ixtisarlar şəklində də işlədilir; məsələn:

Azərnəşr – Azərbaycan Dövlət Nəşriyyatı
BMT – Birləşmiş Millətlər Təşkilatı
MDB – Müstəqil Dövlətlər Birliyi
ATS – Avtomat Telefon Stansiyası
AMEA – Azərbaycan Milli Elmlər Akademiyası

**Mürəkkəb adlar və onların aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Aşağıdakı cümlələri cümlə üzvlərinə görə təhlil edin. Unutmayın ki, mürəkkəb adlar cümlənin bütöv üzvü olur.

1. Şəhidlər xiyabanı Dağüstü parkda yerləşir. 2. "Qılınc və qələm" romanını Məmməd Səid Ordubadi yazmışdır. 3. Azərbaycan Respublikası İran İslam Respublikası ilə

qonşudur.

**Tapşırıq 2.**

Köçürün, mürəkkəb adları ixtisar şəklində yazın.

1.Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının üzvüdür. 2. Azərbaycan Pedaqoji Universiteti respublikasmızda böyük ali məktəblərdən biridir. 3. Turistlərin bir qrupu Çin Xalq Respublikasına yola düşdü. 4. Amerika Birləşmiş Ştatlarında da xeyli türk yaşayır.

**Tapşırıq 3.**

A.Ələsgərin "Dağlar" şeirinin dörd bəndini əzbərləyin. Yeni sözlərin mənalarını lüğətdən tapıb yazın və cümlələrdə işlədin.

**Tapşırıq4.**

"Azərbaycanın beynəlxalq əlaqələri" mövzusunda mətn tərtib edin. Mürəkkəb adların altından xətt çəkin.

## TƏK VƏ CƏM İSİMLƏR

İsimlər tək və cəm olur. Cəmdə işlənən isimlər –lar$^2$ şəkilçisini qəbul edir; məsələn, kitab (təkdə), kitablar (cəmdə).

-lar$^2$ şəkilçisi əşyanın iki və ikidən artıq olan çoxluğunu bildirir. Əşyanın konkret çoxluğunu bildirmək üçün isə ismin əvvəlinə say artırılır; məsələn, iki qardaş, otuz vaqon və s. Belə halda isimlər cəm şəkilçisi qəbul etmir (demək, iki qardaşlar, otuz vaqonlar işlətmək səhv hesab olunur).

Dilimizdə elə isimlər var ki, onlar mənaca topluluq bildirir. Məsələn, camaat – bir yerin adamları, bir yerə toplaşmış adamlar; xalq – ölkənin sakinləri, əhalisi; Belə sözlər toplu isimlər adlanır.

Toplu isimlər cümlədə mübtəda yerində işlənərkən xəbər cəm şəkilçisi qəbul etmir. Məsələn, Camaat gəlir. Qoşun hücuma hazırlaşır.

### Tək və cəm isimlərə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Oxuyun, sonar köçürün. Cəmdə işlənən isimlərin altından xətt çəkin.

Üf..qlər qızarıb güləndə səhər,
Bülbül öpə - öpə oyatsın gülü.
Çırm..yıb qolunu qızlar, gəlin..ər,
Yığsın quca..ına sarı sü..bülü.
Torpağa düşməsin havayı bir dən,
Çörək bol olarsa, basılmaz Vətən.
(S.Vurğun)

**Tapşırıq 2.**
Köçürün, orfoqramların altından xətt çəkin.
Sü..bül, zə..bil, la..pa, za..baq, gü..bəz, şə..bə, pa..bıq, tra..vay.

**Tapşırıq 3.**
Verilmiş sözlərə cəm şəkilçisi artırıb köçürün.
Pill..k..n, stək..n, qəhr..man, xoşb..xt, məkt..b.

**Tapşırıq 4.**
Oxuyun, isimləri göstərin. Onların təkdə, yoxsa cəmdə işləndiyini deyin.

Quba yolu da bir ayrı aləmdi. Dağlar, bağlar qoynunda yerləşən bu şəhər gözəllər gözəlidi. Burada qədim binalar, məclislər, hasarlar, qalalar ulu babamızdan yadigardır.

**Tapşırıq 5.**
Oxuyun, verilmiş sözlərdən hansılar toplu isimlərdir?
Dəstə, şagird, əsgər, ordu, batalyon, at, ilxı, inək, camış, naxır, əkinçi, camaat.

**Tapşırıq 6.**
Xalq, əhali, kütlə və camaat sözlərini cümlələrdə işlədib yazın.

**Tapşırıq-7.**
"Kinoteatrda" mövzusunda dialoq tərtib edin, dialoq şəklində tərtib etdiyiniz mətni nəsrə çevirib danışın.

## İSMİN MƏNSUBİYYƏTƏ GÖRƏ DƏYİŞMƏSİ

Azərbaycan dilində isimlər əşyanın şəxsə (yəni I, II, III şəxslərə) mənsubluğuna görə dəyişə bilər. məsələn:

(mənim) kitab-ım, çanta-m
(sənin) kitab-ın, çanta-n

(onun) kitab-ı, çanta-sı
(bizim) kitab-ımız, çanta-mız
(sizin) kitab-ınız, çanta-nız
(onların) kitab-ı (ları) çanta-sı (ları)

Əşyanın hansı şəxsə mənsubluğunu (aidliyini) bildirən qrammatik şəkilçilər ismin mənsubiyyət şəkilçiləri adlanır.
Bütün hallarda mənsubiyyət şəkilçili isimlər özündən əvvəl gələn və yiyəlik halda işlənən əvəzlik və ya isimlə bağlı olur.
**Qeyd.** Dilimizdə saitlə bitən bir neçə elə söz var ki, onların qəbul etdikləri mənsubiyyət şəkilçiləri digər sözlərə artırılan mənsubiyyət şəkilçilərindən bir qədər fərqlənir. Həmin sözlər bunlardır: tale, mövqe, mənşə, mənafe, mənbə. Belə sözlərdə mənsubiyyət şəkilçisinin əvvəlində bir y samiti işlənir. Məsələn,

| | |
|---|---|
| tale-yim | mövqe-yim |
| tale-yin | mövqe-yin |
| tale-yi | mövqe-yi |
| tale-yimiz | mövqe-yimiz |
| tale-yiniz | mövqe-yiniz |
| tale-yi (ləri) | mövqe-yi (ləri) |

## İsmin mənsubiyyətə görə dəyişməsinə aid çalışma nümunələri:

**Tapşırıq1.**
Oxuyun, qara hərflərlə verilmiş isimlərdə hansı mənsubiyyət şəkilçiləri buraxılmışdır?
Bizim **küçə..**, onun **pencək**.., döyüşçünün **silah**.., əsgərin **yara**.., pəncərənin **pərdə..**, sizin **dost**.., qapının **dəstək**.., sənin **cavab..**, pendirin **maya**.., qonşunun **həyət**.., şairin **həyat**.., bizim **sinif**... .
**Tapşırıq 2.**
Buraxılmış mənsubiyyət şəkilçilərini artırmaqla köçürün.
1.Buyurun, qonaq.. olun! 2. Qapı.. həmişə üzünüzə açıqdır! 3. Sizin qulluğunuzda durmağa həmişə hazıram! 4. Bütün ailə

üzvlər.. gəlişinizdən çox şaddır! Qədəmlər... həmişə sayalı olsun!

**Tapşırıq 3.**

Oxuyun, mənsubiyyət şəkilçili sözləri seçib göstərin.

1.Onun atası da, anası da əvvəllər bu zirzəmidə yaşayırdılar. 2. Sizin məqsədiniz mənə gün kimi aydındır. 3. Onunla söhbətim çox uzun sürdü. 4. Bizim analarımız səs-küy və şöhrət bilməzlər. 5. Bəli, mənim əllərim fəhlə əlləridir. 6. Bizim təklifimiz qəbul olundu.

**Tapşırıq 4.**

Verilmiş atalar sözlərini köçürün, isimlərdə mənsubiyyət şəkilçisinin altından xətt çəkin.

Sürünün yaraşığı təkədir, itin peşəsi hürməkdir. Öz əlim, öz başım. Xalqın sədası haqqın nidasıdır. Başin sərinliyi ürəyin rahatlığıdır. Döyüşün yaraşığı silah, ağılın yaraşığı bilikdir. Acın gözü çörəkdə, toxun gözü hənəkdə olar. Sözün ağrısı onun ağırlığındadır. Cavanın ürəyi, qocanın diləyi işıqlı olur.

**Tapşırıq 5.**

Ömür, ağıl, səbir sözlərini mənsubiyyətə görə dəyişdirib yazın.

**Tapşırıq 6.**

Verilmiş sözləri mənsubiyyət görə dəyişin.

Boyun, kömür, isim, cisim.

**Tapşırıq 7.**

"Qız qalası" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. İsimlərin altından xətt çəkin.

## İSMİN HALLANMASI

İsimlər cümlədə başqa sözlərlə əlaqəyə girərkən dəyişir, yəni müəyyən qrammatik şəkilçilər qəbul edir. İsmin belə dəyişməsinə onun hallanması deyilir. İsmin altı halı var, həmin hallar suallarına görə müəyyənləşir.

Adlıq hal Kim? Nə? Hara?

| | |
|---|---|
| Yiyəlik hal | Kimin? Nəyin? Haranın? (nə) |
| Yönlük hal | Kimə? Nəyə? Haraya? |
| Təsirlik hal | Kimi? Nəyi? Haranı? (nə) |
| Yerlik hal | Kimdə? Nədə? Harada? |
| Çıxışlıq hal | Kimdən? Nədən? Haradan? |

Bütün lüğətlərdə isimlər adlıq halda (başlanğıc formada) verilir; məsələn: tikan, əkinçi yaxşılıq və sair isimlər adlıq halda cəm və mənsubiyyət şəkilçiləri ilə də işlənə bilir.

Yiyəlik halda işlənən isimlər yiyəlik, sahiblik, aidlik mənalarını bildirir; məsələn, şagirdin, evin, kəndin və s.

Yiyəlik halda işlənən isim cümlədə özündən sonrakı başqa bir isimdən - mənsubiyyət şəkilçili kimdən asılı olur; məsələn, Eldarın atası traktorçudur, otağın havası ağırlaşmışdı və s.

İsmin yiyəlik halda –ın$^4$(-nın$^4$) şəkilçisini qəbul edir, lakin bu halın şəkilçisiz işlənən forması da var. Əvvəlincisi müəyyənlik bildirən, sonrakı isə qeyri-müəyyənlik bildirən yiyəlik hal adlanır. Qeyri- müəyyənlik bildirən yiyəlik hal nə? sualına cavab olur, məsələn, pəncərə şüşəsi, el gücü, ağac kötüyü və s.

İsmin yönlük halı hərəkətin yönünü, istiqamətini və ya son nöqtəsini bildirir. İsimləri yönlük halda –a$^2$ (-ya$^2$) şəkilçisini qəbul edir və kimə? nəyə? haraya? suallarından birinə cavab olur.

Sonu a, ə açıq saitləri ilə bitən isimlər yönlük halda işlənərkən tələffüz zamanı həmin saitlər ahəngə uyğun olaraq qapalı saitlərindən birinə keçir, məsələn arabaya –arabıya, dərəyə-dəriyə, Şuşay- Şuşuya və s.

İsmin təsirlik halı hərəkətin obyektini, yəni hərəkətin hər hansı bir əşya üzərində icra olunduğunu bildirir, məsələn, o doğradı. – Nəyi? çörəyi.

İsmin təsirlik halı da müəyyənlik və qeyri-müəyyənlik bildirməsinə görə iki cür olur. Bu halda işlənən isim müəyyənlik

bildirərkən –ı$^4$ (-nı$^4$) şəkilçisini qəbul edir və kimi? nəyi? haranı? suallarından birinə cavab olur, məsələn, kitabı, məktubu, Leylanı və s. Qeyri-müəyyənlik bildirdikdə isə şəkilçisiz işlənir və nə? sualına cavab olur. Məsələn, bu zavod maşın istehsal edir. – nə? – maşın.

Təsirlik halda qeyri-müəyyənlik bildirən isimlər adlıq halda işlənən isimlərdən fərqləndirmək üçün aşağıdakıları bilmək lazımdır:

a) təsirlik halda qeyri-müəyyənlik bildirən ismi müəyyənlik bildirən isim kimi də işlətmək mümkün olur, məsələn, o, maşın –(maşını) sürür və s.

b) təsirlik halda qeyri-müəyyənlik bildirən ismin cümlədə feildən uzaqlaşdırdıqda şəkilçisiz işlətmək mümkün olmur; məsələn, balıqçılar dənizə tor atdılar. Balıqçılar toru dənizə atdılar.

c) təsirlik halda qeyri-müəyyənlik bildirən ismin əvvəlinə o, bu əvəzliklərindən birini gətirdikdə həmin isim mütləq şəkilçi qəbul etməli olur, məsələn, Zakir qəzet aldı. Zakir bu qəzeti aldı.

İsmin yerlik halı əşyanın və ya hərəkətin yerini bildirir və -da$^2$ şəkilçisi ilə düzəlir. Kimdə? nədə? harada? suallarından birinə cavab olur. Məsələn, evdə, bağçada, növbətçidə və s.

İsmin çıxışlıq halı hərəkətin çıxış nöqtəsini, başlanğıc yerini bildirir, -dan$^2$ şəkilçisi ilə düzəlir və kimdən? nədən? haradan? suallarından birinə cavab olur. Məsələn, evdən, Sevincdən, ağrıdan və s.

Çıxışlıq hal mənasına görə yönlük halın əksini bildirir, məsələn, ev-ə, ev-dən.

Sonu n, m samitləri ilə bitən sözlərdən sonra çıxışlıq hal şəkilçisi –nan$^4$ şəklində tələffüz olunur. Məsələn,

| Yazılır | deyilir |
|---|---|
| meydandan | meydannan |
| biçindən | biçinnən |

dostumdan dostumnan

**İsmin hallarına aid çalışma nümunələri:**

**Tapşırıq1.**

Oxuyun, adlıq halda işlənən isimləri seçib köçürün, onların yanında mötərizədə sualını qeyd edin.

Qədim kitabxana

Arxeoloqlar İraqda qədim bir kitabxana aşkara çıxarmışlar. Bu kitabxana üç min il bundan əvvəl tikilmiş bir məbədin zirzəmisindən tapılmışdır. Zirzəmidə xüsusi rəflərə düzülmüş gil lövhələr indiyə kimi salamat qalmışdır.Həmin gil lövhələr mətnlərdən ibarətdir.

Kitabxanada üç bölmə varmış. Birinci bölmədəki lövhələr dinə aid kitablardan ibarətdir. ikinci bölmə elmi kitabları əhatə edir. Üçüncü bölmədə isə qrammatikaya aid vəsaitlər saxlanılırmış.

**Tapşırıq 2.**

Bayatıları oxuyun və əzbər öyrənin. Adlıq halda olan isimlərin altından xətt çəkin.

Araza gözüm düşüb,
Üstünə izim düşüb.
Suyuna qulaq asın…
Səsinə sözüm düşüb.

Araz axar çöllərə,
Səsi düşər ellərə.
Dərdimi gizli dedim,
Hardan düşdü dillərə?

Arazım çağlar, axar,
Dörd yanı bağlar, axar..

Əlim suyuna çatmır,
Sinəmi dağlar, axar…

**Tapşırıq 3.**

Atalar sözlərini oxuyun, yiyəlik halda olan isimləri seçib göstərin.

1.Elin gücü bir olsa, düşməni dara çəkər. 2. El gücü, sel gücü. 3. Qurdun qonaqlığına get, köpəyi də yanınca apar. 4. Qonşunun toyuğu qonşunun gözünə qaz görünər. 5. Adamın başına nə gəlsə, dilindən gələr. 6. İgid arxasında igid gizlənər. 7. Çobanın meyli olsa təkədən pendir tutar.

**Tapşırıq 4.**

Aşağıdakı söz birləşməsindən hansı isimlər müəyyənlik, hansılar isə qeyri-müəyyənlik bildirən yiyəlik halda işlənmişdir? Onlarda müəyyənlik və qeyri-müəyyənlik mənasını necə başa düşdüyünüzü izah etməyə çalışın.

Nümunə: Dəftərin vərəqi dedikdə konkret bir dəftər vərəqi mənası anlaşılır, dəftər vərəqi dedikdə isə hər hansı qeyri-müəyyən bir dəftər vərəqi nəzərdə tutulur.

| | |
|---|---|
| maşının təkəri | maşın təkəri |
| çobanın iti | çoban iti |
| qonağın otağı | qonaq otağı |
| qoyunun südü | qoyun südü |

**Tapşırıq 5.**

Aşağıdakı cümlələri cümlə üzvlərinə görə təhlil edin.

1.Lovğalığın sonu xəcalətdir. (Atalar sözü) 2. Dost gəlişi bayram olar. (Atalar sözü) 3. Uşaqlar məktəbin həyətinə toplaşmışdılar. 4. Dostun ətri dost üçün dərmandır. 5. Dövlətin ən yaxşısı ağıldır. (Atalar sözü).

**Tapşırıq 6.**

Sözləri köçürün, sonrar bir-birinizin səhvlərini düzəldin.

N..munə, kino?film, foto?aparat, ..vlad, qızıl?gül, k..sm..navt, res..ublika, s..yahət, pa..bıq, la..pa, sün..ül, zə..bil, əs..ər, p..ndir, p...ncərə, istirah..t, rah..t, d..vlət, d..vran.

**Tapşırıq 7.**

Oxuyun, yönlük halda işlənən isimləri göstərin, onların hansı suala cavab verdiyini deyin.

İstirahət günü idi. Uşaqlar birlikdə yola çıxdılar. Oradan yaxındakı təpəyə doğru yol aldılar. Oğlanlar yol boyu qızlara çiçək toplayırdılar. Bir azdan onlar düzənliyə endilər. Uşaqlar ətrafa xeyli tamaşa etdilər, sonar yollarına davam etdilər. meşəyə tərəf uzanan yol lap qısalmışdı.

**Tapşırıq 8.**

Buraxılmış sözləri artırıb cümlələri köçürün. Yönlük halda işlənən isimlərin altından xətt çəkin.

1.Qatar … yaxınlaşırdı. 2. Aytən məktəbdən birbaş … qayıtdı. 3. Bir azdan futbolçular … çıxdılar. 4. Sərdar otaqdan … çıxdı, sonar pilləkənlə … endi. 5. Biz … çatıb, avtobusa mindik. 6. Dilşad gül dəstəsini … təqdim etdi. 7. … uçan t..arəyə minik başlanmışdı.

**Tapşırıq 9.**

Oxuyun, təsirlik halda işlənən isimləri göstərin.

Dükançı qapıda müştəri gözləyirdi. Başqa bir dükanın sahibkarı alıcıları hörmətlə qarşılayırdı. Müştərilər sözlərinə ayaqqabı, paltar seçirdilər.Yükçülər əl arabalarında müxtəlif yüklər daşıyırdılar. Qəssablar ət şaqqalayır, bir ucdan da satırdılar. Balıq satanlar ötüb- keçənlərə təzə balıq təklif edirdilər.

**Tapşırıq 10.**

Buraxılmış sözləri artırmaqla cümlələri köçürün.

1.Elşad … rəngləyir. 2. Rasim … çantadan çıxartdı. 3. Turan … asqıdan asdı. 4. Salman əmi … inəyin qabağına atdı. 5. Aygün stolun üstünə təzə … saldı. 6. Müəllim … lövhəyə çağırdı. 7. Dostları … Türkiyəyə yola saldılar.

**Tapşırıq 11.**

Verilmiş atalar sözlərini köçürün. isimlərin altından xətt çəkin, hansı halda işləndiyini üstündə qeyd edin.

Çoban var sürünü aparıb gətirər, çoban var sürünü otarıb gətirər. Dovşanın gümanı ayaqlarına gələr. Dost dostun eyibini

üzünə deyər. Dünya malı dünyada qalacaq. Evin zibilini küçəyə atmazlar. Pirə gətirilən qurbanı qaytarmazlar.

**Tapşırıq 12.**

Oxuyun, buraxılmış səhvləri göstərin. Sonra düzgün şəkildə köçürün, yerlik halda işlənən isimlərin altından xətt çəkin. Nəzərə alın ki, həmin cümlələrdə 10 sözün yazılışında səhvlərə yol verilmişdir.

1. Biz iskamyada əyləşdik.2. Onlar körpüdə rastlaşdılar. 3. Tilivizorda yeni film nümayiş etdirilirdi.4. Haçar növbətçidə qalmışdı.5. Habildə gunah olmadığına əmin idim.6. Bizim kamandamız yarışda birincilk qazandı.7. Yarış Gəncədə təşkil olunmuşdu.

**Tapşırıq 13.**

Köçürün, isimləri seçib, hal şəkilçilərinin altından xətt çəkin, üstündə isə hansı halda işləndiyini qeyd edin.

Dalğanı dənizdə, harayı evdə,
Qıy vurub uçmağı qartalda axtar.
Yüksələ bilməzsən sən qürbət eldə,
Adı dogma yurdda, mahalda axtar.

Gəl çəkmə sorğuya, suala məni,
Məhəbbət qoyubsa bu hala məni
Lalənin eşqini, səadətini,
Köksündə qaralan o xalda axtar

(M.Gülgün)

**Tapşırıq 14.**

Cümlələri tamamlayıb köçürün. Yönlük və çıxışlıq hal şəkilçiləri qəbul edəm isimlərin altından xətt çəkin.

1.Təyyarə yerə … . 2. Təyyarə yerdən … . 3. Sərvər suya … .4. Sərvər sudan … 5. Camaat meydana … .6. Camaat meydandan… .

**Tapşırıq 15.**

Oxuyun, çıxışlıq hal şəkilçili sözləri düzgün tələffüz edin.

Hər təzə binanın pəncərəsindən
Yolları bəzəyən işıq süzülür.
Ana laylasından, bala səsindən
Həyətlər şadlanır, otaqlar gülür.

(H.Arif)

**Tapşırıq 16.**

Oxuyun, isimləri köçürün, hansı halda işləndiyini və sualını qeyd edin. Mətndəki qorxu, dövrə, hadisə, kədər sözlərinin sinonimlərini tapıb yazın.

Baharda bürkü

Torpaqdan bahar qoxusu gəlirdi. Kəndimizin dörd dövrəsində yaşıl çöllər görünürdü. Təmiz və saf hava bütün təbiəti yenidən oyadırdı. Zəmilərdə taxıl yaxşı bitmişdi. Bol məhsul gözlənirdi. Lakin havalar birdən-birə istiləşdi. Yazda yay bürkülərinin başlanması gözlənilməz hadisə idi. Bu hadisə kəndin məhsula olan ümidini dərin bir kədərə çevirdi. Bir damcı da yağış yağmadı. Sünbüllər saralıb solmağa başladı.

(M.İbrahimovdan)

## BƏZİ İKİHECALI İSİMLƏRDƏ SON SAİTİN DÜŞMƏSİ

Dilimizdə bəzi elə ikihecalı sözlər var ki, onlara saitlə başlanan şəkilçilər artırdıqda sözlərin kökünün son saiti düşür; məsələn, şəkil-şəkli, şəklim, şəklimiz, şəklə…

Belə sözlər dilimizdə çox azdır. Onlar aşağıdakılardan ibarətdir:

| | |
|---|---|
| isim, qisim, cisim | beyin, çiyin, |
| nəsil, fəsil, şəkil | ağıl, qarın, |
| fikir, ətir, səbir | alın, oğul, |
| sətir, qədir, ömür | burun, boyun, ağız. |
| sinif, eyib | zehin, izin |

Sol sütunda göstərilmiş isimlərin hamısı ərəb-fars mənşəli sözlərdir. Bunlara saitlə başlanan hər cür şəkilçi artırdıqda köklərinin son saiti düşür. Sağ sütundakı sözlər isə əsl

Azərbaycan sözləridir. Bunlara yalnız mənsubiyyət şəkilçisi artırdıqda köklərinin son saiti düşür. Saitlə başlanan hal şəkilçiləri qəbul etdikdə isə kökləri dəyişməz qalır. Məsələn,

| Hal şək. | Mənsub. şək. |
|---|---|
| Ağıla arxalanmaq | onun ağlı |
| Beyinin quruluşu | quşun beyni və s. |

**Bəzi ikihecalı isimlərin son saitinin düşməsinə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Oğul və ağız sözlərini hallara görə dəyişdirib yazın.

**Tapşırıq 2.**

Oxuyun, kökünün saiti düşən sözləri göstərin. Şeirləri əzbərləyin.

Sənin də səbrində qoy olsun qərar
Gövhəri səbirlə qazanmaq olar.
(Nizami)
Pis sözü ağzına alınca insan,
Qarnında öldürsə yaxşıdır, inan.
Bu dünya dolanıb, döndükcə rüzgar
Qoy səndən yaxşı söz qalsın yadigar. (Nizami)

**Tapşırıq 3.**

Verilmiş sözlərdən nümunədə göstərildiyi kimi söz birləşmələri düzəldib yazın.

Nümunə: insanın ağlı

İnsanın (ağıl), qapının (ağız), körpənin (alın), delfinin (beyin), bizim (səbir), qoyunun (qarın), dəvənin (boyun), itin (burun), (oğul) qoçağı, (beyin) quruluşu, şairin (ömür).

**Tapşırıq4.**

Aşağıdakı sözləri cümlədə işlənin.

Mətn-mətin, xeyr-xeyir, həsr (etmək)-həsir, əsl-əsil, hərf-hərif
**Tapşırıq 5.**
"Azərbaycanın görməli yerləri" mövzusunda mətn tərtib edin. Mətni təhlil edin və öyrənin.
İsmin morfoloji təhlil qaydası
1. Sözün hansı nitq hissəsindən olması. Sualı
2. Başlanğıc forması.
3. Quruluşca növü.
4. Ümumi və ya xüsusi isim olması.
5. Halı. Mənsubiyyət şəkilçisi (əgər varsa), tək və ya cəm olması.

## SİFƏT

Ümumi qrammatik mənasına görə əşyanın əlamətini bildirən əsas nitq hissəsinə sifət deyilir. Sifət necə? nə cür? hansı? suallarından birinə cavab olur.

İsim əşyanın adını, sifət isə əlamətini bildiıir. Buna görə də sifət həmişə ismə aid olur. Sifətlər cümlədə ən çox təyin və xəbər vəzifələrində işlənir.

Sifət yalnız o vaxt xəbər vəzifəsində işlənir ki, isimdən əvvəl gəlməsin və müvafiq xəbərlik şəkilçiləri (yaxşıyam, yaxşısan və s.) qəbul etsin.

### Sifətə aid çalışma nümunələri:

**Tapşırıq 1.**
Oxuyun, sifətləri tapıb, aid olduğu sözlə birlikdə köçürün.

1.Kağızlar, ay kağızlar,
Nə geniş qəlbiniz var!
Nə qədər ki, ağsınız,
Körpəcə uşaqsınız.
Nə qəstiniz var sizin,
Nə də küdirətiniz!
Ayna kimi təmizdir

Qəlbiniz, surətiniz!
Elə ki, yazıldınız,
Təzə məna kəsb edib.
Yenidən doğulursuz,

(B. Vahabzadə)

2. Xudam səni nə xoş gündə yaradıb,
Meylim axır sana san, görəndə.
Həsrətindən yüz yara var sinəmdə,
İnsaf eylə, birin sarı, gələndə.
Gözlərindən mana bəla yetişər,
Olar gül irəngim sarı, gələndə.

**Tapşırıq 2.**

Verilmiş sifətləri aşağıdakı kimi qarışdırıb yazın.
1.Rəng bildirənlər: ağ,
2.Dad bildirənlər: şirin,
3.Həcm bildirənlər: uzun,
4.Keyfiyyət bildirənlər: çalışqan,
5.Zahiri görkəm bidirənlər: nurani.

Ala-bula, ala-bəzək, ala-yanmçıq, al-qırmızı, al-əlvan, alicənab, alnıaçıq, əliaçıq, armudu, gümüşü, acıdil, şirindil, açıqürəkli, qəhvəyi, bənövşəyi, çalışqan, rəhmdil, sarışın, nurani, gümrah, abı, ağ, tənbəl, qoçaq, uzun, nazik, qalın, yekə, turş, şirin, dadlı, kor, kar, çəhrayı, mixəyi.

**Tapşırıq 3.**

Verilmiş sifətləri cümlələrdə işlədin.
Abı, qonur, palıdı, narıncı, zoğalı, çəhrayı, qumral.

**Tapşırıq4.**

Oxuyun, antonim sifətləri göstərin.
1. Qışda dağlar ağ geyinər, yaz qara.
Sağ dəstinlə ağ kağıza yaz qara.

Əsər yellər, qəhr eyləyər yaz qara,
Daşar çaylar, gələr daşlar çataçat.

2. Ələsgər, bilirsən qüdrətin sirrin,
Zülmətə işıq var, acıya şirin.
Zikr eylə dilində mərdlərin, pirin,
Qorxma, dar günündə yar olacaqdır.

3.Bu dünyanı mən təcrübə eylədim:
Namərd körpü salsa, onda ad olmaz!
Bir mərd ilə ac yesən şirindir,
Yüz namərdlə şəkər yesən, dad olmaz.

(Aşıq Ələsgər)

**Tapşırıq 5.**

"Azərbaycanın görməli yerləri" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. Sifətlərin altından xətt çəkin.

## SİFƏTİN QURULUŞCA NÖVLƏRİ

Sifətlər quruluşca sadə, düzəltmə və mürəkkəb olur.

Sadə sifətlər bir kökdən ibarət olur və sonunda sözdüzəldici şəkilçisi olmur, məsələn, ağ, qonur, sarı, nəm və s.

Düzəltmə sifətlər isim və feillərin sonuna leksik şəkilçilər artırmaqla əmələ gəlir.

İsimdən sifət düzəldən şəkilçilər:

1. -lı; ağıllı, duzlu, sədaqətli, maraqlı və s.
2. -sız; günahsız, gücsüz, meyvəsiz və s.
3. -dakı; bağdakı, meşədəki və s.
4. -cıl$^4$; zarafatcıl. işcil, ölümcül və s.
5. -ı$^{4;}$ palıdı, armudu, sürməyi, xurmayı və s.
6. -i, -vi; inqilabi, tibbi, dairəvi və s.

Feildən sifət düzəldən şəkilçilər:

1. -ağan (əyən); qaçağan, güləyən və s.
2. -qan (-kən); çalışqan, sürüşkən və s.

3. -ğın ; azğın, gərgin, yorğun, süzgün və s.
4. -iq ; açıq, əzik, soyuq, böyük, sökük və s.
5. -qın (-kin, -qun, -kun); satqın, tutqun, küskün və s.
6. -ıcı ; alıcı, qurucu, söndürücü və s.
7. -inc ; qorxunc, gülünc və s.

Mürəkkəb sifətlər aşağıdakı yollarla əmələ gəlir:

1. İki sadə sözün birləşməsi ilə; qaragöz, hazırcavab və s.
2. İki düzəltmə sifətin (birincisi feildən, ikincisi isimdən düzələn) birləşməsi ilə; sınıqqəlbli, açıqürəkli, soyuqqanlı və s.
3. Bir sadə, bir düzəltmə sözün birləşməsi ilə; sözdüzəldici, qaradinməz, üçtelli və s.
4. Mənsubiyyət şəkilçili sözün iştirak ilə; stolüstü, rayonlararası və s.
5. Sadə və ya düzəltmə sifətlərin təkrarı ilə; şirin- şirin, uzun-uzun, balaca - balaca və s.
6. Biri və ya hər ikisi ayrılıqda işlənə bilməyən sözlərin birləşməsi ilə; kələ-kötür, xtrda- mırda və s.
7. Yaxın və ya əks mənalı sözlərin birləşməsi ilə; bağlı-bağatlı, ağlı-qaralı və s.

## Sifətin quruluşca növlərinə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Birhecalı sadə sifətlərə misallar göstərin və onları cümlədə işlədin.

**Tapşırıq 2.**

Verilmiş isimlərdən əks mənalı sifətlər düzəldin.

Nümunə: ağıl-ağıllı- ağılsız

Yağ, düz, məna, cəsarət, dad, ləzzət.

**Tapşırıq 3.**

Qarpız, bina, ağac sözlərinə mümkün olan sifətlər artırıb, söz birləşmələri düzəldin və cümlədə işlədin. Sifətlərin altından xətt çəkin.

**Tapşırıq 4.**

Təbiət təsvirinə aid kiçik bir inşa yazın. Sifətlərin altından xətt çəkin.

**Tapşırıq 5.**

Nöqtələrin yerinə uyğun gələn şəkilçiləri artırıb yazın.

1.Çoban gülüb deyir: - Böyük hökmdar! Doğru söz kəs..dir, məncə, qılıncdan. (S. Ş) 2. Dilimiz qanadlı xəyalları, coş... ehtirasları, dərin fikirləri gözəl ifadə edə bilir. (M.İ) Ağla… uşaq heç kəsin xoşuna gəlmir, gül... uşağı isə hamı xoşlayır. 4. Dost haqqında deyə bilərik: o, çalış...dır, acı... qəlbə, böyü... ürəyə malik bir şəxsdir. 5. Düşmən haqqında isə az..., sat... kimi sözlər işlədilir.

**Tapşırıq 6.**

Ağla, gül, çalış, sürüş, al, yor, dur, soyu, kəs əz köç, bil feillərindən sifətlər düzəldib yazın.

**Tapşırıq 7.**

Səhvləri düzəldib köçürün.

1.Çox soyuq su içmək xəsdəliyə səbəb ola bilər. 2. Ələsgərəm, ötgün sözüm, kəskin baxdım olaydı. 3. Yaxşılıq insane bir adət olsun. 4. Bitkilərə qullux etməyi unutmayın. 5. Duzlu xörək orqanixmə zərərdir. 6. Həyatda maraxlı hadisələr çox olur. 7. əsgər düşməni ölümcül halda komandirin yanına gətirdi.

**Tapşırıq8.**

Verilmiş sözlərdən uyğun gələnini birləşdirib, mürəkkəb sifətlər düzəldin. Onların necə əmələ gəldiyinə baxın.

Qara, qaş, gözü, yaşlı, hazır, cavab, bel, qoz, düzəldici, dəyişdirici, söz, dinməz, mərtəbəli, beş, hecalı, çox, az, yaşlı.

**Tapşırıq 9.**

Qaraqaş, hazırcavab, qozbel, sözdüzəldici, qaradinməz, gözüyaşlı çoxhecalı sözlərini cümlələrdə işlədin.

**Tapşırıq 10.**

Verilmiş sözlərin təkrarı ilə mürəkkəb sifətlər düzəldib cümlələrdə işlədin, onların nə bildirdiyini izah edin.

Şirin, acı, uzun, yekə, kiçik, böyük.

**Tapşırıq 11.**

“Mənim ailəm” mövzusunda mətn tərtib edin. Sifətləri quruluşuna görə təhlil edin.

## SİFƏTİN MÜQAYİSƏ DƏRƏCƏLƏRİ

Əşyanın əlaməti üç dərəcədə ola bilər: normal, normadan az, normadan çox. Bu baxımdan sifətin üç dərəcəsi var: adi, azaltma, çoxaltma.

1. Əlamətin adi halda olduğunu bildirən dərəcəyə sifətin adi dərəcəsi deyilir; məsələn, sarı, yaşıl, ağ və s.

Adi dərəcə digər dərəcələr üçün ölçüdür. Azaltma və çoxaltma dərəcələri adi dərəcə əsasında müəyyənləşdirilir.

2. Əlamətin adi haldan az olduğunu bildirən dərəcəyə sifətin azaltma dərəcəsi deyilir; məsələn, qırmızımtıl, ağımsov və s.

Azaltma dərəcəsini düzəltmək üçün adi dərəcədə olan bəzi sifətlərin sonuna –ımtıl$^{4}$, - raq$^{2}$, -ımtraq (-mtraq), -sov (-ımsov, -ümsov) şəkilçilərindən biri artırılır. Məsələn, ağımtıl, göyümsov, sarımtıl və s.

Sifətin azaltma dərəcəsini düzəltmək üçün bəzən açıq sözündən də istifadə olunur; məsələn, açıq-sarı, açıq-göy və s.

3. Əlamətin adi haldan çox olduğunu bildirən dərəcəyə sifətin çoxaltma dərəcəsi deyilir.

Sifətin çoxaltma dərəcəsi aşağıdakı üsullarla düzəlir;

1. Adi dərəcədə olan sözlərin sonuna -ca -cə şəkilçisi artırılır; məsələn, canlıca, zorbaca, körpəcə və s.

2. Sifətin ilk hecasının son samiti m, p, r samitlərindən biri ilə əvəz edilir və eyni sifətin əvvəlinə artırılır; məsələn, qıpqırmızı, tərtəmiz, gömgöy və s.

3. Adi dərəcədə olan tünd sözü artırılır; məsələn, lap yaxşı, tünd-yaşıl, dümağ və s.

**Tapşırıq 1.**

Rəng bildirən aşağıdakı sifətləri müvafiq isimlərlə birlikdə söz birləşmələri şəklində işlədin.

1. Qırmızı, açıq- qırmızı, qıpqımızı.

2. Göy, göyümsov.
3. Yaşıl, yamyaşıl.
4. Sarı, sapsarı, açıq-sarı.
5. Ağ, dümağ

**Tapşırıq2.**

Sol sütundakı şəkilçi və sözlərdən hansıları sağ sütundakı sözlərə artırmaqla azaltma dərəcəsi düzəltmək olar?

| | |
|---|---|
| -ımtıl$^4$, (-mıtıl), -raq$^2$, | yaşıl, sarı, yarımçıq, |
| -ımtraq (-mtraq), | hündür, alçaq, dəli, |
| -sov (-ımsov) | uzun, yaxşı, boz, qara, |
| | açıq, ala, geniş |

**Tapşırıq 3.**

Plan üzrə məktub yazın.

Plan:
1. Kimə yazırsınız?
2.Ona nə kimi məlumat vermək istəyirsiniz?
3. Ondan nə kimi məlumat almaq fikrindəsiniz və ya nə xahiş edirsiniz?

**Tapşırıq 4.**

Sol sütundakı söz şəkilçisi və ya söz hissələri sağ sütundakı sifətlərdən uyğun gələnlərə artırmaqla çoxaltma dərəcəsi düzəldin.

| | |
|---|---|
| -ça$^2$, qıp, tər, sap, düm, | qıpqırmızı, doğru, istəkli, |
| | maraqlı, yaşıl, yaxşı |
| Daha, ən, lap, tünd | gözəl, qara, təmiz, göy, |
| | sarı, şirin. |

**Tapşırıq 5.**

"İlin fəsilləri" mövzusunda mətn tərtib edin. Sifətlərin altından xətt çəkin.

## SİFƏTİN İSİM KİMİ İŞLƏNƏ BİLMƏSİ

Əlamət bildirən söz (sifət) cümlədə əşya bildirən sözü (isim) əvəz edə bilir, yəni isimləşərək mübtəda və tamamlıq vəzifələrində işlənir. Məsələn, körpənin təbəssümü anasına sevinc bəxş edir. Belə sifətlər isimləşmiş (substantivləşmiş) sifətlər adlanır. Sifətlər isimləşdikdə ismin suallarına cavab olur.

**Sifətin isim kimi işlənməsinə aid çalışma nümunələri:**

**Tapşırıq 1**

Verilmiş sifətlərdən uyğun gələnini artırmaqla köçürün.

O, .. , .., .. bir qız idi. .. qızlara məxsus.. , .., .. gözləri qələmlə çəkilmiş kimi .. qaşları, .. dodaqları var idi.

Sifətlər: gözəl, girdəsifət, gənc, şərqli, qura, dərin, atəşli, incə, nazik

**Tapşırıq 2.**

"Azərbaycanın Zəfər bayramı" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. İsim kimi işlənən sifətlərin altından xətt çəkin.

Sifətin təhlil qaydası.

1. Ümumi qrammatik mənası (tərifi) və sualları.
2. Quruluşca növü.
3. Dərəcəsi.
4. Əlaqədar olduğu söz.
5. Cümlədə rolu.

## SAY

Ümumi qrammatik mənasına görə əşyanın miqdarını və ya sırasını bildirən əsas nitq hissəsinə say deyilir. Say neçə? nə qədər? və ya neçənci? suallarından birinə cavab olur; məsələn, beş kitab, beşinci sinif və s.

Say da sifət kimi isimlə bağlı olur. Sifət əşyanın əlamətini, say isə miqdar və ya sırasını bildirir.

Saylar da sifətlər kimi cümlədə ən çox təyin vəzifəsində işlənir.

## Saya aid çalışma nümunələri:

**Tapşırıq1.**

"II Qatabağ müharibəsi" mövzusunda inşa yazın. Mətndə işlətdiyiniz sayların altından xətt çəkin.

**Tapşırıq 2.**

"Mənim doğma şəhərim (kəndim). " mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. Sayları fərqləndirin.

**Tapşırıq 3.**

"İstirahət düşərgəsində" mövzusunda dialoq tərtib edin, dialoq şəklində tərtib etdiyiniz mətni nəsrə çevirib danışın.

## SAYIN QURULUŞCA NÖVLƏRİ

Saylar quruluşca üç cür olur; sadə, düzəltmə, mürəkkəb-tərkibi.

Sadə saylar bir kökdən ibarət olur və sözün tərkibində leksik (sözdüzəldici) şəkilçi iştirak etmir; məsələn, bir, beş, doqquz və s.

Düzəltmə saylar tərkibində leksik (sözdüzəldici) şəkilçisi olan saylardır; məsələn, doqquzuncu, altıncı və s.

Mürəkkəb- tərkibli saylar ən azı iki sözün birləşməsi ilə yaranır. Məsələn, üç-dörd, on doqquz, beşdə iki, bir çox və s.

## Sayın quruluşca növləri aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Cümlədə işlədin.

1. 5-6 adam, 3-4 alma, 8-10 quş.
2. 1,5 manat, 82,5 kiloqram, 2 ton.
3. 1950-ci il, 1992-ci il, 1980-cı il.

**Tapşırıq 2.**

"Azərbaycan dünən və bu gün" mövzusunda mənt tərtib edin. Sayların altından xətt çəkin.

## SAYIN MƏNA NÖVLƏRİ

Sayın mənaca iki növü var:
1.Miqdar sayları, 2. Sıra sayları.
Miqdar sayları neçə? nə qədər? suallarından birinə cavab olur.
Miqdar saylarının aşağıdakı növləri var:
1. Müəyyən miqdar sayları.
2. Qeyri - müəyyən miqdar sayları.
3. Kəsr sayları.
1. Əşyanın konkret miqdanm bildirən saylara müəyyən miqdar sayları deyilir və neçə? nə qədər? sualından birinə cavab olur. Məsələn, üç, beş və s.

Müəyyən miqdar sayları ilə isim arasında nəfər, baş, dənə, ədəd, cüt, dəst, kiloqram, metr, litr kimi bir sıra ara sözlər (bunlara numerativ sözlər deyilir) artırmaq olur.

Nəfər sözü ancaq insan bildirən isimlərdən əvvəl işlədilir; məsələn, beş nəfər tələbə, iki nəfər fəhlə və s.

Baş sözü, əsasən, heyvan bildirən isimlərdən əvvəl işlədilir; məsələn, beş baş inək, iki baş öküz və s.

Ədəd, dənə sözləri cansız əşya adını bildirən isimlərdən əvvəl işlədilir; məsələn, beş dənə alma, iki ədəd dəftər və s.

Cüt və dəst sözlərini qoşalıq bildirmək üçün işlədilir; məsələn, bir cüt corab, iki cüt ayaqqabı və s.

Bunlardan əlavə, göz (üç göz mənzil), parça (bir parça çörək), tikə (bir tikə ət), qaşıq (beş qaşıq dərman), top (bir top çit) kimi sözlər də sayla isim arasında işlənə bilər.

1. Əşyanın konkret miqdarını göstərməyən saylara qeyri-müəyyən miqdar sayları deyilir və **nə qədər?** sualına

cavab olur. Məsələn, beş-altı,bir-iki və s.

Az, çox, xeyli, bir çox, bir qədər, onlarla və s. kimi sözlər də qeyri-müəyyən miqdar saylandır.

Az və çox saylarından əvvəl lap, ən, daha sözlərini də işlətmək olur; məsələn, iclasda lap çox adam vardı və s.

Bir sıra, bir çox saylarından sonra gələn isimlər cəmdə olur. Çox, onlarla, onlarca, yüzlərcə, yüzlərlə tipli saylardan sonra gələn isimlər isə həm təkdə, həm də cəmdə olur.

Digər qeyri-müəyyən saylardan sonra gələn isimlər həmişə təkdə işlənir; məsələn, xeylitamaşaçı, bir qədər duz və s.

.

Miqdar saylarının xüsusi növü olan kəsr sayları ya hissəni, ya da tam və hissəni bildirir.

Kəsr sayları **nə qədər? neçə hissə?** kimi suallardan birinə cavab olur; məsələn, Əməkçilər hələlik planın ikidə bir hissəsini yerinə yetirmişdilər.

Əşyanın sırasını bildirən saylara sıra sayları deyilir. Sıra sayları neçənci? sualına cavab olur.

Sıra sayları samitlə bitən müəyyən miqdar saylarının sonuna – $inci^4$ şəkilçisinin artırılması ilə əvvələ gəlir; məsələn, altıncı, üçüncü və s.

Əvvəl, axır, son, filan tipli sözlər də $inci^4$ şəkilçisi qəbul edərək, sıra məzmunu bildirə bilir; məsələn, sonuncu, filanıncı və s.

**Sayın mənaca növünə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Sayların hansı sözə aid olduğunu müəyyənləşdirin.

İki şüşə mürəkkəb, üç səhifəlik yazı, beş vaqon sement, iki səbət üzüm, üç çuval buğda, iki şələ odun, bir damcı su, bir stəkan çay, bir kəlmə söz, beş şiş kabab.

**Tapşırıq 2.**

Litr, kiloqram, metr, qaşıq, ədəd, baş, nəfər sözlərini sayla müvafiq isim arasında yazıb cümlələrdə işlədin.

**Tapşırıq 3.**

Bir-iki, bir sıra, bir çox, üç-dörd, beş-altı, on-on beş, az-çox, xeyli qeyri- müəyyən miqdar saylarını cümlələrdə işlədin.

**Tapşırıq 4.**

Oxuyun sayların məna növünü göstərin.

1. Abasbəyi ağacının hündürlüyü 10-13 metr olur. 2. Respublikamızda yüzlərlə meyvə növü yetişir. 3. Abşeron yarımadasında tez-tez şimal və cənub küləklər əsir. Xəzrinin sürəti bəzən saniyədə 30-40 metrə çatır. 4. Balinanın uzunluğu 2-23 m arasında olur. Onun südü inək südündən 9-10 dəfə yağlıdır. 5. Üç-dörd ildir ki, kəndimizə qaz kəməri çəkilib. 6. Yalçın, dayan, sənə bir-iki kəlmə sözüm var.

**Tapşırıq 5.**

Verilmiş rəqəmləri sözlə yazın:

22; 34; 0,325; 0,012; 1,208; 55,25

**Tapşırıq 6.**

"Azərbaycan idmanının nailiyyətləri" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. Antonimlərin altından xətt çəkin.

## SAYLARIN YAZILIŞI VƏ TƏLƏFFÜZÜ

Bütün tərkibi saylar ayrı, əsl mürəkkəb (təxmini) saylar isə defislə yazılır; məsələn: on bir, on birinci, iyirmi beş, bir qədər, bir az, iyirmi beşinci, beş-altı (5-6), yeddi-səkkiz (7-8), iyirmi beş-otuz (25-30) və s.

Sıra sayları ərəb rəqəmləri ilə yazıldıqda onların sonuna -ıncı (-ncı, -ncı) əvəzinə, sözün son hecasına uyğun olaraq -cı$^4$ şəkilçisi artırılır və şəkilçidən əvvəl defis işarəsi qoyulur: məsələn, 6-cı, 7-ci, 8-ci və s.

Roma rəqəmlərindən sonra heç bir sıra şəkilçisi yazılmır; məsələn, iyirminci əsr – XX əsr, ikinci fəsil - II fəsil və s.

Sıra saylarını ərəb rəqəmləri ilə yazıb onlardan sonra nöqtə və ya yarımmötərizə də qoymaq olar. Yarımmötərizədən sonra nöqtə qoyulmur; məsələn, 1., 5)

**Sayların yazılışı və tələffüzünə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Sayları rəqəmlə yazın.

Birinci, ikinci, üçüncü, dördüncü, beşinci, altıncı, yeddinci, səkkizinci, doqquzuncu, onuncu, on birinci, on ikinci.

**Tapşırıq 2.**

Sayları Roma rəqəmləri ilə yazın.

1-ci, 2-ci, 3-cü, 4-cü, 5-ci, 6-cı, 7-ci. 8-ci, 9-cu, 10-cu, 11-ci,12-ci, 13-cü,14-cü, 15-ci, 16-cı, 17-ci, 18-ci, 19-cu, 20-ci, 50-ci, 70-ci, 100-cü, 80-cı.

**Tapşırıq 3.**

Dili öyrənilən ölkələrə aid bəzi tarixi və coğrafi məlumatlar verin.

**Tapşırıq 4.**

Dili öyrənilən ölkələrə aid bəzi tarixi və coğrafi məlumatlar verin.

**Sayın təhlil qaydası**

1. Ümumi qrammatik mənası, sualı.
2. Hansı isimlə bağlı olması.
3. Quruluşca növü.
4. Mənaca növü.
5. Cümlədə rolu.

## ƏVƏZLİK

İsim, sifət, say və digər nitq hissələrinin yerində işlənən sözlərə əvəzlik deyilir.

Əvəzliyin aşağıdakı məna növləri vardır:

1. Şəxs əvəzlikləri.
2. Qeyri -müəyyən əvəzlikləri.
3. İnkar əvəzlikləri.
4. İşarə əvəzlikləri.
5. Sual əvəzlikləri.
6. Təyini əvəzliklər.

İsmin yerində işlənən və kim? nə? suallarından birinə

cavab verən əvəzliklərə şəxs əvəzlikləri deyilir.

Şəxs əvəzlikləri bunlardır: mən, sən, o, biz, siz, onlar. Şəxs əvəzlikləri kəmiyyətcə tək (mən, sən, o) və cəm (biz, siz, onlar) olur. Bu əvəzliklər şəxsə görə üç növdür. I şəxs (mən, biz), II şəxs (sən ,biz), III şəxs (o, onlar) əvəzlikləri.

İsimlərin yerində işlədilən və qeyri- müəyyən şəxsi bildirən əvəzliklərə qeyri -müəyyən əvəzliklər deyilir.

Qeyri -müəyyən əvəzliklər bunlardır: biri (birisi), kimi (kimisi), kimsə (kim isə), nə isə, hamı, bəzi (bəziləri, bəzisi), hərə, hər kəs, hər şey və s.

Bu əvəzliklərin bəziləri quruluşca sadə (hamı, bəzi), bəziləri isə tərkibi əvəzliklərdir (kim isə, nə isə, bir neçəsi, hər biri və s.). Tərkibi əvəzliklər ayrı yazılır.

Kim isə, nə isə əvəzliklərindən başqa, yerdə qalan qeyri-müəyyən əvəzliklər hallanır.

Qeyri - müəyyən əvəzliklərin bir qismi mənsubiyyət şəkilçiləri qəbul edərək dəyişir.

Əksər inkar əvəzlikləri “heç” sözünün köməyi ilə əmələ gəlir: heç kim, heç nə, heç kəs, kimsə (heç kim mənasında).

İşarə məqsədi ilə işlədilən əvəzliklərə işarə əvəzlikləri deyilir.

İşarə əvəzlikləri bunlardır: o, bu, elə, belə, həmin.

O, bu, həmin işarə əvəzlikləri, adətən, sifətin yerində işlədilir; məsələn, o kitab, həmin şəxs və s.

Elə, belə işarə əvəzlikləri isə həm sifətin, həm də zərfin yerində işlənə bilir; məsələn, belə dostu kim sevməz! Məktubu elə yazmışam ki, dostum təklifimə mütləq şərik çıxacaq.

Bu və o əvəzlikləri omonimdir və işarə bildirdiyi kimi, əşyanı göstərmək üçün də işlədilir. Belə halda həmin əvəzliklər sifətin yox, ismin yerində işlədilir: cəmlənir, hallanır, ismin sualına cavab verir, cümlənin mübtədası, tamamlığı və ya xəbəri olur; məsələn, bu atamın pencəyidir. Bundan çox razıyam. Bunu tanıyırsız? və s.

Mübtəda vəzifəsində işlədilən, o, bu əvəzliklərindən

sonra, adətən vergül qoyulur; məsələn, o, qaynaqçıdır. Bu, bulaq suyudur.

Mübtəda vəzifəsində işlənən o, bu əvəzlikləri feilin və köməkçi nitq hissələrinin əvvəlində gəldikdə onlardan sonra vergül qoyulmur; məsələn, o işləmir. Bu da qaynaqçıdır və s.

Sual bildirən sözlərə sual əvəzlikləri deyilir. Kim? nə? hara? necə? nə cür? nə edir? və s. sual əvəzlikləridir.

Sual əvəzlikləri əvəz etdiyi nitq hissəsinin qrammatik əlamətini daşıyır. Məsələn, kim? İsmin sualı olduğu üçün isim kimi hallanır, cəmlənir, mənsubiyyətə görə dəyişir və s.

Sual əvəzlikləri yalnız başqa nitq hissələrinin deyil, əvəzliklərin də yerində işlənə bilər; məsələn, biz doqquz nəfər idik – kim doqquz nəfər idi?

Əşyanı ümumi şəkildə müəyyən etmək üçün işlədilən əvəzliklərə təyini əvəzliklər deyilir. Təyini əvəzliklər hər, bütün, filan, öz sözlərindən ibarətdir; məsələn, hər çiçəyin öz ətri var və s.

Öz əvəzliyi mənsubiyyət şəkilçisi qəbul etdikdə təyini əvəzlik olmaq xüsusiyyətini itirir və qayıdış əvəzliyi adlanır. Qayıdış əvəzliyi isim kimi hallanır.

### Əvəzliyə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

“Qanlı yanvar” mövzusunda inşa yazın və inşada şəxs əvəzliklərindən istifadə edin.

**Tapşırıq 2.**

Hər kəs, biri, birisi, hər biri sözlərini hallandırın.

**Tapşırıq 3.**

Oxuyun, qeyri-müəyyən və inkar əvəzliklərini ayrı-ayrılıqda seçib yazın.

1. Anası tapşırmışdı ki, Bahar o kağızı heç kəsə göstərməsin. 2. Onlar heç nəyə həsrət deyillər. 3. Hər şey qızına çəkilmiş, heç nə özünü büruzə vermək istəmirdi. 4. O kağız kimə qaldı? – Heç kimdə, özün aparmadınmı?

**Tapşırıq 4.**

Oxuyun, əvəzliklərin hansı cümlə üzvü olduğunu müəyyənləşdirin.

1.Vaxt elə macəra düzəldib ki, tələsməli olmuşam. (B.B) 2. Bəzi şagirdlər dərsə yaxşı hazırlaşa bilmirlər,biz belə şagirdlərə kömək göstərməliyik. 3. Elə danış ki, hamı səni maraqla dinləsin. (C.C)

**Tapşırıq 5.**

Oxuyun, əvəzliyin öyrəndiyiniz növlərini göstərin.

Azərbaycanın Milli Qəhrəmanı Hidayət Eldar oğlu Rüstəmov 1970-ci ildə Ağdamda anadan olmuşdur. O, 1991-ci ildə hüquq mühafizə orqanlarında işə düzəlib. Ermənilər Meşəli kəndinə hücum edərkən Hidayət öz silahı ilə onları qırmışdır.

Biz belə igidlərimizlə fəxr edirik!

**Tapşırıq 6.**

Oxuyun, o, bu əvəzliklərinin cümlədə mübtəda və ya təyin vəzifəsində işləndiyini müəyyənləşdirin. Həmin əvəzliklərdən sonra hansı məqamlarda vergül işarəsi qoyulduğunu izah edin.

1.Bu, emalatxanada hazırladığımız modeldir. Bu emalatxanada biz də çox işləmişik. 2. O, kitabı maraqla oxudu. O kitabı mən də maraqla oxumuşam. 3. Bu, binanın son mərtəbəsidir. Bu binanın son mərtəbəsindən şəhər çox gözəl görünür. 4. O, yaşıl meydançaya tərəf qaçdı. O yaşıl meydançada biz futbol yarışı keçirəcəyik.

**Tapşırıq 7.**

Qara hərflərlə verilmiş sözlərin sual əvəzlikləri ilə əvəz edin köçürün.

Nümunə: qardaşım vağzala tələsirdi. – kim vağzala tələsirdi?

1**.Qardaşım** vağzala tələsirdi. 2. Ördəklər **göldə** üzür. 3. Onlar **təzə** binaya köçdülər. 4. Gənc döyüşçülər **qəhrəmana** gül dəstəsi verdilər. 5. Biz **doqquz** nəfəridik. 6. **Hava** çoxdan qaralmışdı. 7. Qatar **sürətlə** keçdi. 8. Saat **səkkizi** ötmüşdü. 9. Biz səyahətə **hazırlaşırdıq**. 10. **Birazdan** dostlarımız gəldilər.

**Tapşırıq 8.**

“Şəhidlərin xatərə günü” mövzusunda mətn tərtib edin, planını tutun və çətin sözləri lüğətdən tapıb yazın.

**Tapşırıq 9.**

Kim? haçan? nə vaxt? hara? sözlərindən istifadə edərək sual cümlələri düzəldin. Sual əvəzliklərinin altından xətt çəkin.

*Nümunə*: Sən məktəbdən nə vaxt qayıdırsan?

**Tapşırıq 10.**

Hər, filan, bütün, öz sözlərini müxtəlif cümlələrdə işlədin.

**Tapşırıq 11.**

Oxuyun, təyini əvəzlikləri göstərin.

Əminə xalanın oğlu yazırdı: “Ana, indi hər güllə bir düşmənin ölümü deməkdir. Sən də oğlunla fəxr edə bilərsən. biz bütün qüvvəmizi Vətənin müdafiəsinə sərf edirik. Heyif ki, bəzən gülləmiz çatmır”.

Ananı fikir götürdü. Samovarını, mis qazanını müdafiə fonduna verdi.

**Tapşırıq12.**

“Vətəndaş olmaq nə deməkdir?” mövzusunda inşa yazın. İnşada təyini əvəzliklərdən istifadə edin.

## FEİL. FEİLİN MƏNA NÖVLƏRİ.

Ümumi qrammatik mənasına görə hərəkət bildirən əsas nitq hissəsinə feil deyilir. Feillər müxtəlif forma və zamanlarda işlədilən nə etməli? nə etdi? nə edir? nə etmişdir? nə edir? və s. suallarına cavab olur.

Feillər şəxsə və kəmiyyətə görə dəyişir, təsdiq və inkar, təsirli və təsirsiz olur.

Feilin mənaca, əsasən, aşağıdakı növləri vardır:

1. İş feilləri: yağla(maq), tik(mək), döy(mək) və s. Belə feillər əşyanın bir vəziyyətdən digər vəziyyətə salınmasını bildirir.

2. Nitq feilləri: çıxış et(mək), de(mək), dinlə(mək) və s. Belə feillər nitq prosesini bildirir.

3. Hərəkət feilləri: get(mək), gəl(mək), gətir(mək) və s. Belə feillər fəal hərəkəti bildirir.

4. Təfəkkür feilləri: duy(maq), hiss et(mək), fikirləş(mək) və s.

5. Hal-vəziyyət feilləri: ağar(maq), gözəlləşdir(mək), nərildə(mək) və s. Belə fellər əşyanın halını, vəziyyətini bildirir.

**Feilin məna növlərinə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Feillərin məna növlərinin hər birinə aid misallar seçin və onları cümlədə işlədin.

**Tapşırıq 2.**

Müəyyən bir mətni götürüb oradakı feilləri məna növlərinə görə qruplaşdırın.

**Tapşırıq 3.**

Oxu, gəl, get, göstər feillərini zamana və şəxsə görə dəyişdirin.

Nümunə: oxudum, oxudun, oxudu; oxumuşam, oxumuşsan, oxumuşdur; oxuyuram, oxuyursan, oxuyur; oxuyacağam, oxuyacaqsan, oxuyacaqdır; oxuyaram, oxuyarsan, oxuyar.

**Tapşırıq 4.**

Buraxılmış feilləri arırmaqla köçürün. Onların sualını və cümlənin hansı üzvü olduğunu müəyyənləşdirin.

1.1886-cı ilin aprel ayındaAfina şəhərində olimpiya oyunları … 1980-ci ilin yayında Moskvada da olimpiya oyunları … . 2. Babək görkəmli sərkərdə idi. O, 816-837-ci illərdə Azərbaycanı ərəb işğalçılarından … .3. Qızılquş özünə yuva tikmir, qaya çıxıntılarında, başqa quşların köhnə yuvalarında 3-4 yumurta … . O, adətən siçanla … .4. Qısametrajlı film o filmə … ki, lentin ümumi uzunluğu 1200-1500 m, özü isə 4-5 hissədən … .

**Tapşırıq 5.**

“Universitetin həyatində” mövzusunda dialoq tərtib edin, dialoq şəklində tərtib etdiyiniz mətni nəsrə çevirib danışın.

## FEİLİN QURULUŞCA NÖVLƏRİ

Feillər quruluşca üç növü olur: sadə, düzəltmə, mürəkkəb-tərkibi.

Sadə feillər bir kökdən ibarət olur və tərkibində leksik (sözdüzəldici) şəkilçi iştirak etmir; məsələn, al, oxu(yar), gəl(di), get və s.

Düzəltmə feillər bircə kökə malik və tərkibində sözdüzəldici şəkilçiləri olan feillərdir; məsələn, baş-la, gur-ulda, ağ-ar(ır), yay-ıl(dı) və s.

Düzəltmə feillər başqa nitq hissələrindən, eləcə də feillərdən əmələ gəlir.

Başqa nitq hisələrindən feil düzəldən şəkilçilər:

1. –la$^2$; yağ- yağ-la(maq), iş-iş-lə(mək), baş-baş-la(maq) və s.

2. –laş$^2$; arxayın-arxayınlaş-laş(maq), sənaye-sənaye-ləş (mək), bədbin-bədbin-ləş(mək) və s.

3. –lan$^{2;}$ hal-hal-lan(maq), dil-dil-lən(mək), alov-alov-lan(maq) və s.

4. –ar$^2$; ağ-ağ-la(maq), göy-göy-ər(mək), boz-boz-az(maq) və s.

5. –al$^2$(-l); çox-çox-al(maq), gen-gen-əl(mək), düz-düz-əl(mək) və s.

Feildən feil düzəltmək üçün əsasən, aşağıdakı şəkilçilərdən istifadə olunur.

1. –ıl$^4$; yaz-yaz-ıl(maq), çək-çək-il(mək), düz-düz-ül(mək) və s.

2. –dır$^4$; al-al-dır(maq), gəz-gəz-dir(mək), gör-gör-dür(mək) və s.

3. –ış$^4$; yaz-yaz-ış(maq), gör-gör-üş(mək), vur-vur-uş(maq) və s.

4. –ın$^4$; yol-yol-un(maq), sil-sil-in(mək) və s.

Deməli, düzəltmə feillər isimdən (baş-la), sifətdən (yaxşı-laş), saydan (az-al, çox-çoxal), əvəzlikdən (mən-imsə),

zərfdən (geri-lə), feildən (gül-ümsə, um-sun, gör-üş, vur-uş) və digər nitq hissələrindən əmələ gəlir.

Mürəkkəb feillər iki sözün birləşməsindən düzəlir, məsələn atıldı-düşdü, ölşdü-biçdi, çalıb-oynayır, deyir-gülür, çalışdı-vuruşdu, bəzənib-düzənir və s.

Mürəkkəb feilləri əmələ gətirən sözlərin hər biri qrammatik cəhətdən dəyişə bilir; məsələn, çalışır-vuruşur, çalışdı-vuruşdu, atılır-düşür, atıldı-düşdü və s. Tərkibi feillərdə yalnız sonuncu (ikinci) söz dəyişir; məsələn, yaxşı olacaq və s.

Birinci tərəfdə $a^2$ şəkilçisi, ikinci tərəfdə bilmək sözü işlədilən feillər də tərkibi feillərə daxildir; məsələn, ala bildi, gələ bilmədi və s.

## Felin quruluşca növlərinə aid çalışma nümunələri:

**Tapşırıq1.**

Təkhecalı sadə feillərə aid on misal tapıb onları cümlədə işlədin.

**Tapşırıq2.**

Çoxhecalı sadə fellərə aid nümunələr göstərin.

**Tapşırıq3.**

Aşağıdakı fellərin mənaca növünü müəyyənləşdirin.
Gözəlləşdirmək, çıxış etmək, gətirmək, duymaq, demək.

**Tapşırıq4.**

Aşağıdakı mürəkkəb feilləri cümlədə işlədin.

Çalışır-vuruşur, yazdı-yaratdı, kəsdi-doğradı, gəldi-getdi.

**Tapşırıq5.**

Tərkibi feillərə aid altı nümunə yazın.

**Tapşırıq 6.**

Oxuyun, düzəltmə feillərin altından xətt çəkin.

Gəmi sahilə yaxınlaşdı. Kimsə dilləndi: “Deyəsən, biz başqa yerə gəlmişik”. Etiraz etdilər. amma çox adam şübhələndi. Şübhə içində olanların sayı getdikcə çoxaldı, təcrübəli kapitan Jülyen heyrət içində idi. O, gömgöy göyərmişdi. “Ost-İndia” gəmisinin öz yolunu azması xəbəri dünyanın hər yerinə yayıldı.

XVII əsrin başlanğıcında olmuş bu hadisə haqqında çoxları düşünməyə başladı. Fikirləşdilər ki, kompas ildırımın təsiri ilə düzgün işlənməmişdir. Danimarka fiziki Hans Ersted əqrəbə maqnit yaxınlaşdırmış və sübut etmişdir ki, əqrəb öz istiqamətini dəyişir.

İndi gəmilərdə elə qurğular düzəltmişlər ki, ildırım kompasa təsir edə bilmir.

**Tapşırıq7.**

İsimdən və sifətdən düzələn feillərə aid misallar tapıb cümlədə işlədin.

Mən onu xeyli gözlədim. O, ağappaq ağarmışdı.

**Tapşırıq 8.**

"Azərbaycan və Türkiyə əlaqələri" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. İsimdən düzələn felləri seçib yazın.

## TƏSDİQ VƏ İNKAR FEİLLƏR

Feillər hərəkətin icra edildiyini göstərdiyi kimi, icra edilmədiyini də göstərə bilir. Bu cəhətdən feillər iki cür olur: təsdiq feillər, inkar feillər.

Hərəkətin icra edildiyini bildirən feillərə təsdiq feillər deyilir; məsələn, al, gəl, oxu, otur və s.

Hərəkətin icra edilmədiyini bildirən feillərə inkar feillər deyilir; alma, getmə, oturma və s.

İnkar şəkilçisi olan –ma$^2$ isim və sifət düzəldən –ma$^2$ şəkilçisi ilə omonimdir. Onları fərqləndirmək üçün aşağıdakıları bilmək lazımdır.

İnkar şəkilçiləri vurğu qəbul etmir; məsələn, alma, çəkmə, gəlmə və s.

İsim düzəldən –ma$^2$ şəkilçisi isə vurğu altına düşür; məsələn, çəkmə, gəlmə.

Bəzən inkar şəkilçisinin saiti ixtisara düşür; məsələn, almayır-almır, gəlməyir-gəlmir və s.

Bəzi feillər –ma$^2$ şəkilçisi qəbul etmir, onun əvəzinə

deyil sözündən istifadə olunur; məsələn, gələsi deyildir və s.

### Təsdiq və inkar feillərə aid çalışma nümunələri

**Tapşırıq1.**

Verilmiş sözləri cümlədə həm isim, həm də inkar feil kimi işlədin.

Qovurma, qırma, qazma, süzmə, bölmə, yoxlama, yarma.

**Tapşırıq2.**

"Tələbəlik sevinci" mövzusunda dialoq tərtib edin. Dialoq şəklində tərtib etdiyiniz mətni vasitəli nitqə çevirərək danışın.

**Tapşırıq3.**

"Azərbaycan Respublikasının milli müstəqillik günü" mövzusunda mətn tərtib edin. Mətni öyrənin və təhlil edin. Mətndəki inkar və təsdiq feillərin altından xətt çəkin.

## TƏSİRLİ VƏ TƏSİRSİZ FEİLLƏR.

Özündən asılı olan (yəni idarə etdiyi) sözün ismin təsirlik halında işlənməsini tələb edən feillərə təsirli feillər deyilir.

Təsirli feillərlə əlaqəyə girən sözlər ismin təsirlik halının suallarına cavab olur; məsələn, almanı(nəyi?) yedim və s.

Özündən asılı olan (yəni idarə etdiyi) sözün ismin təsirlik halında işlənməsini tələb etməyən feillərə təsirsiz feillər deyilir. Məsələn, evdən(haradan?) gəlirəm.

**Qeyd**. Təsirli feilləri təsirsiz və təsirsiz feilləri təsirli feilə çevirmək üçün müəyyən şəkilçilərdən istifadə olunur. Məsələn, yaz, oxu, aç və b. təsirsiz fellərdən yazıl, oxun, açıl kimi təsirsiz feillər düzəltmək olur.

### Təsirli və təsirsiz feillərə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Feillərin əvvəlinə isim artırın, həmin isimlərin hansı halda olduğunu deyin.

Nümunə: məktəbdən gəlirəm.

1. >>>yeyirəm. 2. >>>görürəm. 3. >>>apardım. 4. >>>qaldırdım.

2. >>>yatıram. 2. >>>gedirəm. 3. >>>gəlirəm. 4. >>>oturdum.

**Tapşırıq 2.**

Sabah görəcəyiniz işlərə aid plan tərtib edin. Planda işlətdiyiniz feillərin təsirli və ya təsirsiz olduğunu izah edin.

**Tapşırıq 3.**

Verilmiş birləşmələri cümlələrdə işlədin və təsirli felləri göstərin.

Kitab oxumaq, kitabı vermək, kitabı sevmək, evdə oturmaq, çarpayıda yatmaq, sürətlə getmək.

**Tapşırıq 4.**

Buraxılmış feilləri yerinə qoyun. Onların təsirli feil olub-olmamasını müəyyənləşdirin.

Fransız yazıçısı Aleksandr Düma 1858-1859-cu illərdə bir neçə ay Qafqazda, o sıradan Azərbaycanda olmuş, "Qafqaz səfəri" adlı kitab … . O, öz xatirəsində xalqımızın gözəl adətlərindən … . Müəllif … ki, Bakı "küləklər məskənidir" deməkdir. Avropada buna bənzər şəhər yoxdur. Torpağına, dənizinə, tikililərinə, istehsalına, balıqlarına, həşəratlarına, sürünənlərinə görə Bakı xüsusi bir şəhərdir.

**Tapşırıq 5.**

"Yaşlı nəsilə münasibət" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. Təsirli və təsirsiz felləri seçib yazın.

## FEİLİN QRAMMATİK MƏNA NÖVLƏRİ

Feilin aşağıdakı qrammatik məna növləri vardır: məlum növ, qayıdış növ, məchul növ, şəxssiz növ, qarşılıq-birgəlik növ, icbar növ.

Feilin məlum növündə iş görən məlum olur: yaz, oxu, gör və s. Bu növü düzəltmək üçün heç bir xüsusi şəkilçidən istifadə edilmir; məsələn, gül açıldı və s.

Qayıdış növ feillər, əsasən -ın$^{4}$,-n, -ıl$^{4}$ şəkilçiləri vasitəsilə düzəlir.

Məlum növ feillər təsirli və təsirsiz olur. Qayıdış növ feillər isə təsirli feillərdən düzəlir, amma təsirsiz olur.

Məchul növ feillərdə iş görən qrammatik cəhətdən məlum olmur; məsələn, Məktub yazıldı – cümləsində məktubu kimin yazdığı məlum deyildir. Hər halda məktubu yazan vardır, lakin cümlədə onun kim olduğuna heç bir işarə yoxdur.

Məchul növ feilləri düzəltmək üçün təsirli feillərə -ıl$^{4}$, -ın$^{4}$, -ıl$^{4}$ (-nil, -yil) şəkilçilərindən biri artırılır; məsələn, (kitab) yazıldı. (Yer) əkildi. (Pay) bölündü və s.

Qarşılıq-birgəlik növ feillər hərəkətin qarşı-qarşıya, ya da şərikli, müştərək icra edildiyini bildirir.

Qarşılıq bildirən feillər əsasən, təsirli, birgəlik (müştərəklik) bildirən feillər isə təsirsiz feillərdən düzəlir: məsələn, yazış(maq), vuruş(maq) və s.

Qarşılıq-birgəlik növdə işlənən feillər nəticə etibarilə təsirsiz olur.

Şəxssiz növ feillər –ıl$^{4}$ şəkilçisi ilə əmələ gəlir; məsələn, baxıldı, gedildi, diqqət yetirildi, yanaşıldı.

Məchul növ feillərlə şəxssiz feillərin aşağıdakı mühüm fərqləri vardır:

1. Məchul növ feillər təsirli feillərdən, şəxssiz feillər isə təsirsiz feillərdən düzəlir; məsələn, yazıldı məchul, baxıldı şəxssiz feldir.

2. Məchul növ feillər –ıl$^{4}$ şəkilçisi ilə düzəldiyi kimi, -ın$^{4}$ şəkilçisi vasitəsilə də düzəlir, şəxssiz növ feillər isə yalnız –ıl$^{4}$ şəkilçisinin köməyi ilə düzəlir.

3. Məchul feilli cümlələrin mübtədası olur, şəxssiz feilli cümlələrdə isə mübtəda olmur.

İcbar növ feillərdə hərəkəti danışan və ya haqqında danışılan şəxs deyil, başqası icra edir: məsələn, Həsən çəkməsini sildirdi.

İcbar növ feillər təsirli feillərin sonuna –dır$^{4}$, bəzən də -t

şəkilçisini artırmaqla düzəlir.

-dır$^4$, -t şəkilçiləri yalnız təsirli feillərin sonuna artırıldıqda icbar söz əmələ gətirir. Həmin şəkilçilər təsirsiz feillərə əlavə edildikdə hələ icbar növ düzəltmir, sadəcə təsirsiz feili təsirli feilə çevirir; məsələn, gül-gül-dür. Belə feillərdən icbar növ düzəltmək üçün yenidən icbar növün şəkilçisini artırmaq lazımdır: məsələn, güldür- güldür-t və s.

**Feilin qrammatik məna növlərinə aid çalışma nümunələri:**

**Tapşırıq1.**

Oxuyun, qayıdış növdə olan feilləri göstərin.

Bir gəncin başı masa üzərinə əyilir. O, kitab oxumaqla məşğuldur. Sonra pəncərəni açır. Pərvanələr və böcəklər içəri doluşur. Oğlan onlara baxıb söylənir:

-Gör özlərini necə oda atırlar!

Ananın incə qəlbi sıxılır, övladının əziyyətinə dözmür. Qeyrətli ana oğlunun gələcəyi haqqında düşünür. Imtahan ona çox ağır görünürdü.

Ana otağına çəkilir. Birdən tüfəng açılır. Oğlan yerə sərilir. Hava açılır, duman çəkilir. Oğlan bir güllənin qurbanı olur. (S.S.Axundovdan)

**Tapşırıq 2.**

Verillmiş feilləri məchul növ üzrə dəyişib cümlələrdə işlədin.

Yaz, at, qaz, çək, vur, süz, al, böl, bəslə, de, ye.

**Tapşırıq 3.**

Cümlələri elə dəyişin ki, feillər məchul növlə əvəz olunsun.

Nümunə: Bir şair öz kəskin şeirləri ilə fırıldaqçıları ifşa edirdi – fırıldaqçılar bir şair tərəfindən kəskin şeirlərlə ifşa edilirdi.

Bir şair öz kəskin şeirləri ilə fırıldaqçıları ifşa edirdi. Dövlətlilər şairi ələ salmaq yolu ilə ondan intiqam almağı qərara alırlar. Onlar xanın sarayında kef məclisi düzəldir və şairin göndərilməsini kəndxudaya əmr edirlər…

**Tapşırıq 4.**

Feilləri təsirli və ya təsirsiz olduğunu müəyyənləşdirin.

Rast gəl(mək), yürüş et(mək), get(mək), fikir ver (mək), qulaq as(maq).

**Tapşırıq 5.**

Feilin şəxssiz növünə aid on cümlə yazın.

**Tapşırıq 6.**

Verilmiş feillərin hansından icbar növ düzəltmək olar?
Get, çal, oxu, yat, qaz, çək, çök, bəslə, tulla, as, görüş və s.

## FEİLİN TƏSRİFLƏNƏN FORMALARI

Feillər iki böyük qrupa ayrılır:

1. Təsriflənən formalar.
2. Təsriflənməyən formalar.

Feilin təsriflənən formalarına şəxsə və kəmiyyətə görə dəyişə bilən formalar daxildir. Bunlara feilin şəkilləri deyilir.

Dilimizdə feilin aşağıdakı şəkilləri vardır:

1. Əmr şəkli
2. Xəbər şəkli
3. Arzu şəkli
4. Lazım şəkli
5. Vacib şəkli
6. Şərt şəkli

Əmr, xahiş, məsləhət, təklif, nəsihət və s. bildirən feil şəklinə feilin əmr şəkli deyilir. Əmr şəkli feilin kökünə və ya başlanğıc formasına şəxs şəkilçisi artırmaqla düzəlir. Əmr şəklinin xüsusi şəkilçisi yoxdur. O, feilin kökünə və ya başlanğıc formasına şəxs şəkilçiləri artırmaqla düzəlir. Məsələn, al-ın, al-sın, al-aq və s.

İsim nə zaman  və neçənci şəxs tərəfindən icra edildiyini (və ya edilmədiyini) bildirən feil şəklinə felin xəbər şəkli deyilir.

Xəbər şəklinin xüsusi şəkilçisi yoxdur. Bu şəkil müxtəlif fellərə zaman və şəxs şəkilçisi artırmaqla düzəlir. Məsələn, al-dı-m, al-dı-n, al-dı, al-dı-q, al-dı-nız, al-dı-lar.

İşin gələcəkdə icrasının arzu edildiyini bildirən feil şəklinə feilin arzu şəkli deyilir.

Feilin arzu şəkli feilə -a$^2$ şəkilçisinin artırılması ilə düzəlir; məsələn, yaz-a, yazıl-a, ged-ə, gedil-ə və s. Arzu şəklində feildən əvvəl çox vaxt gərək, kaş sözlərindən biri işlədilir; məsələn, gərək(kaş) yaza, gərək (kaş) bilə, gərək (kaş) başlaya, gərək (kaş) işləyə və s.

İcra ediləcək işin zəruri olduğunu bildirən feil şəklinə felin vacib şəkli deyilir.

Vacib şəkli feilə -malı$^2$ şəkilçisini artırmaqla düzəlir; məsələn, bax-malı, gör-məli, al-malı və s.

İcra ediləcək işin lazım olduğunu bildirən feil şəklinə feilin lazım şəkli deyilir.

Lazım şəkli feilə -ası (yası$^2$) şəkilçisi artırmaqla düzəlir; məsələn, alası, yazası və s.

Lazım şəklinin inkarında isim, sifət və saylarda olduğu kimi, ***deyil*** sözündən istifadə edilir. Ona görə də lazım şəklinin inkarında şəxsə və kəmiyyətə görə dəyişən ***deyil*** sözü olur; məsələn, mən yazası deyiləm, sən yazası deyilsən və s.

Hərəkətin icrasının müəyyən şərtlə bağlı olduğunu bildirən feil şəklinə feilin şərt şəkli deyilir.

Şərt şəkli feilə -sa$^2$ şəkilçisini artırmaqla düzəlir; məsələn, alsa, gəlsə, baxsa və s.

Şərt şəkli şəxsə və kəmiyyətə görə dəyişir. Şərt şəkli I şəxsin təkində -m, cəmində -k, II şəxsin təkində -n, cəmində -nız$^4$ şəkilçilərini qəbul edir. III şəxsin təkində və cəmində şəxs şəkilçisi yoxdur.

Şərt şəklində olan feillərdən əvvəl bəzən ***əgər*** bağlayıcısı da işlədilir; məsələn, əgər gəlsəm, əgər oxusan və s.

**Feilin təsriflənən formalarına aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Al, gəl, gör, vur, başla, işlə sözlərini şəxslər üzrə əmr şəklində dəyişin.

*Nümunə:alım, al, alsın, alaq, alın, alsınlar.*

**Tapşırıq 2.**

Özünü yoxla.

Ala$\frac{q}{x}$, kələ$\frac{k}{h}$, alsın$\frac{l}{n}$ar, gəlsin$\frac{l}{n}$ər, görsün$\frac{l}{n}$ər, vursun$\frac{l}{n}$ar.

**Tapşırıq 3.**

Oxuyun, xəbər şəklində olan feilləri göstərin.

1.Qədimdə işlədilən ölçü vahidlərindən biri arşın idi. Arşın (“ərzin”) farsca qolun dirsəkdən barmaqların ucuna qədər olan hissəsinə deyilir. Bədənin bu hissəsindən uzunluq ölçüsü kimi istifadə edirdilər.

Qolun dirsəkdən barmaqlara qədər olan hissəsi müxtəlif adamlarda müxtəlif uzunluqda olduğundan “arşınlar” da müxtəlif olurdu. Buna görə də parçanı hər adam öz arşını ilə ölçürdü.

“Rus arşını”, “xan arşını”, “metr” kimi ölçü vahidləri daha sonralar əmələ gəlmişdir. Hazırda “öz arşını ilə ölçmək” ifadəsi məcazi mənada (“özü bildiyi kimi hərəkət etmək, qəbul edilmiş ümumi normalarla hesablaşmaq”) mənasında işlədilir.

II. C.Cabbarlı 1899-cu ildə anadan olmuşdur. Onun dram əsərləri, hekayə və şeirləri maraqla oxunur.

**Tapşırıq 4.**

Oxuyun, keçmiş zamanda olan feilləri seçib yazın.

Biz yenə görüşdük, qalmadı o qəm,
Keçdi o duyduğum hicran günləri.
Başına pərvanə olmuşdur o dəm,
Bir şair qəlbinin xəyal şahpəri.
(S.Vurğun)

Onu babam Qorqud çalıb,
Ellər ondan ilham alıb.
Oğuzlardan miras qalıb,
Cavid, zildir, pəsdir sazım.
(C.Osmanoğlu)

**Tapşırıq 5.**

Oxuyun, nəqli keçmiş zamanda olan feilləri şühudi keçmiş zamanla əvəz edin.

Deyirlər, Muğan düzü bir vaxtlar ilanlar məskəni olub. Bu barədə səyyahlar da yazıblar. Aleksandr Düma göstərir ki, Muğan düzünü keçən adam yüzlərlə ilan görür. 1800-cü ildə qraf Zubav çadır qurmaq üçün yer qazdırıb. Qış ayı imiş. Yerin altından minlərlə donmuş ilan çıxıb. Bəzən yadelli işğalçılar ilanların qorxusundan geri çəkilməli olmuşlar.

İlanların mələməsi və fit çalması Muğanı səs-küyə bürüyür… İlanlar təpəliklərdə rəqs edirlər.

**Tapşırıq 6.**

Oxuyun, feilin arzu şəklində olan sözləri seçib cədvəldəki kimi yazın.

| Feil | Şəkilçilər | |
|---|---|---|
| Seyr edəm | Arzu şəkli | Şəxs şəkilçisi |
| | -ə | -m |

1. X a n. Bu gün çox xoş havadır. İstəyirəm dərya üzündə bir az seyr edəm, könlüm açıla… Mən gərək min-min adamın qəmini çəkəm, dərdinə yetişəm. 2. V ə z i r. Tutdum ki, əyləyib qulluğuna gətirəm, əlimdən dartınıb çıxıb getdi. 3. X a n. Teymur ağa, sənin qərəzin budur ki, mən vilayətlər içində bədnam olam?

**Tapşırıq7.**

Şəxslər üzrə tamamlayın.

| | |
|---|---|
| Gərək ala idim. | Kaş başlaya idim. |
| ----------------- | ------------------- |
| ----------------- | ------------------- |
| Gərək ala idik. | Kaş başlaya idik. |
| ----------------- | ----------------- |
| ----------------- | ----------------- |

**Tapşırıq 8.**

Arzu şəklində işlədilmiş feilləri göstərin.

Müalicə daşı.

Aleksandr Düma 1858-ci ildə şahidi olduğu bir əhvalat barəsində belə yazır: "Adamı zəhərli ilan, əqrəb və s. çalanda gərək yaranın üstünə bir daş sürtəsən, onda yara sağalır. O, deşik-deşik, mavi rəngi olan, qaratoyuq yumurtası böyüklüyündə bir daşdır. Maqnit dəmiri özünə tərəf çəkən kimi, bu daş da zəhəri çəkir. Həmin daş hər şeydən qiymətlidir və yalnız çox dövlətli ailələrdə olur.

Avropada belə daş yoxdur. Onu gərək Qafqazdan aparaq. Orada onun necə daş olduğunu öyrənək. ilan çalanda biz də o daşdan istifadə edək".

**Tapşırıq 9.**

Oxuyun, lazım şəkildə olan feilləri seçib cədvəldəki kimi yazın.

| Feillər | Başlanğıc forması | Şəkilçilər | |
|---|---|---|---|
| | | Lazım şəkli | Şəxs şəkilçisi |
| Başlanasıdır | başlan | -ası | -dır |

1.Toy bu günlərdə başlanasıdır. (C.C) 2. Bahar, sən şəhərdə qalasısan. (S.S.A) 3. Üstünün küləşinə bir kibrit vursan, şam kimi yanasıdır.(M.Ə) 4. Ana, Əli bəyin heç vaxtı varmı? Vallah, gələsiydik bu həftə sizə.(S.V) 5. Daha ikinci dəfə əlimi ağrıdıb bu divarı da sökəsi deyiləm. (S.R)

**Tapşırıq 10.**

Oxuyun, şərt şəklində olan feilləri seçib altından xətt çəkin.

Ürək zövq almasa yaratdığından,
Ümid çırağının şöləsi sönər
(S.Vurğun)

Bir qıy vursam, bu gen dünya
Düşmənlərə dar kəsilər.
(S.Vurğun)

Hər şeyi dinləyər, danışmaq istər,
Yanında bir söhbət açılsa əgər.
(S.Vurğun)

Adam var, tor qurar, danışar yalan,

Utanmaz gözünü gözünə dikər.
Amma var yanında yalan danışsan,
Sənin əvəzinə xəcalət çəkər.
(B.Vahabzadə)
Səhərlər yuxudan tez oyat məni,
Qoyma axşamlarda tez yatım, ana!
Bir qara daş bilər bu həyat məni,
Yuxularda keçsə həyatım, ana!
(M.Araz)

**Tapşırıq 11.**

Cümlələri tamamlayın.

1. Əgər yağış yağsa ---. 2. Şagird dərsə yaxşı hazırlaşsa ---. 3. Bütün xalqlar sülhü müdafiə işini öz əllərinə alsalar, ---, . 4. İkini beşə vursaq, --- . 5. İyirmini ikiyə bölsək, --- . 6. Mən evdən tez çıxsam, --- . 7. Atam icazə versə, ---.

## FEİLİN MÜRƏKKƏB ŞƏKİLLƏRİ

Feilin mürəkkəb şəkilləri sadə şəkillərinin üzərinə *idi, imiş, isə* hissəciklərinin artırılması yolu ilə əmələ gəlir və üç yerə bölünür: feil şəkillərinin hekayəsi, feil şəkillərinin rəvayəti, feil şəkillərinin şərti.

Feilin şəkillərinin hekayəsi feilin digər şəkillərinin (xəbər, arzu, lazım, vacib, şərt) üzərinə *idi* hissəciyinin artırılması ilə əmələ gəlir.

İdi hissəciyi felin əmr şəklinə və şühudi keçmiş zamanına artırıla bilmir.

İdi hissəciyi sonu samitlə bitən feil şəkillərində iki cür (həm ayrı, həm də bitişik) yazılır: *almış idi- almışdı, gələcək idi- gələcəkdi* və s.

Sonu saitlə bitənlərdə isə bütöv şəkildə yazılır; *alası idi, ala idi, gəlməli idi və s.*

Sonu saitlə bitən feillərdə idi aşağıdakı kimi tələffüz olunur: *yazılır; alsa idi, deyilir: alasıydı, yazılır: alası idi, deyilir: alasıydı* və s.

Feil şəkillərinin rəvayəti feilin sadə şəkillərinə *imiş* hissəciyi artırmaqla düzəlir.

İmiş sonu samitlə bitən feil şəkillərində iki cür (bütöv və qısa formada) yazılır: yazmış imiş- yazmışmış, yazacaq imiş- yazacaqmış və s. Sonu saitlə bitən fel şəkillərində isə bütöv yazılır. Deyilişdə isə həmişə ixtisar formasında işlədilir: qalmışmış, bilmişmiş və s.

İmiş hissəciyi feİlin əmr şəklinə və şühudi keçmiş zamanına artırıla bilmir.

Feil şəkillərinin şərtinin aşağıdakı xüsusiyyətləri vardır:

1. Şühudi keçmiş zamanda olan söz feil şəkillərinin hekayə və rəvayətindən fərqli olaraq, *isə* hissəciyi ilə işlənə bilir; *aldısa, yazsdısa* və s. Bunun əksinə olaraq, arzu və şərt formaları *isə* hissəciyi ilə işlənə bilmir.

2. *İsə* hissəciyi şəkil və şəxs şəkilçilərindən sonra artırılır; almış-am-sa, gəlmiş-sən-sə və s.

3. *İsə* hissəciyi iki cür yazılır: bütöv və qısa; almış isə, almışsa.

## Feilin mürəkkəb şəkillərinə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Feilləri verilmiş nümunədəki kimi izah edin.

*Nümunə: a) aldım- kökü al, -di şühudi keçmiş zamanın şəkilçisi, -ım birinci şəxs təkin şəkilçisi, aldım sözü feilin xəbər şəklindədir;*

*b) alırdım- kökü al, -ır indiki zaman şəkilçisi, -dı idi hissəciyinin ixtisarı, -im I şəxs təkin şəkilçisi, alırdım xəbər şəklinin hekayəsi.*

Sökdüm, sökmüşdüm, sökürdüm, sökəcəkdim, sökərdim, sökmüşdük, sökürdük, sökəcəkdik, sökəsi idim, sökməli idim, sökməli idik, sökə idin.

**Tapşırıq 2.**

Oxuyun, -sa(-sə) şəkilçisinin hansı vəzifədə işlədildiyini izah

edin.

1. Əgər adamsansa, sev adamları,
   Demə: -Bu dostumdur, bu düşmənimdir.
   (B. Vahabzadə.)
2. Qəhrəman Bəxtiyar, nədənsə, donmuş,
   Eşqin şərbətini dadmışı o da?
   (S. Vurğun)
3. Yüksəlir tar səsi hər eyvanından,
   Quşlar qanad salar keçsə yanından!
   (S. Vurğun)
4. Gedən Əhməddirsə, onu saxlayın, vacib sözüm var.

**Tapşırıq 3.**

Dərsliyinizdəki müəyyən bədii parçadan feilləri seçib aşağıdakı kimi qruplaşdırın.

1.Xəbər şəkli:
Şühudi keçmiş-
Nəqli keçmiş-
İndiki zaman-
Qəti gələcək-
2.Əmr şəkli.
3.Lazım şəkli.
4.Arzu şəkli
5.Vacib şəkli.
6.Şərt şəkli.
7.Feill şəkillərinin hekayəsi.

**Tapşırıq 4.**

Bu kəlamı necə başa düşürsünüz?

Yamanlıq etməkdən uzaq ol, uzaq,
Pisliyin əvəzi pislik olacaq.
(N. Gəncəvi)

**FEİLİN TƏSRİFLƏNMƏYƏN FORMALARI**

Şəxsə və kəmiyyətə görə dəyişməyən feil formalarına

feilin təsriflənməyən formaları deyilir.

Belə formalar üçdür: məsdər, feili sifət, feili bağlama. Bu formalardan məsdər əsas feil əlamətləri ilə yanaşı isim, feili sifət əsas feil əlamətləri ilə yanaşı sifət, feili bağlama isə əsas feil əlamətləri ilə yanaşı zərf əlamətlərinə də malik olur.

Həm feilin, həm də ismin əlamətlərinə malik olan sözlərə məsdər deyilir.

Məsdər feilin başlanğıc forması üzərinə -maq$^2$ (bəzən də -ma$^2$) şəkilçisi artırmaqla düzəlir.

Məsələn: yaz- yazmaq, gəl- gəlmək...

Həm felin, həm də sifətin əlamətlərini daşıyan sözlərə feili sifət deyilir. Feili sifətdə həm feilə, həm də sifətə məxsus bir sıra cəhətlər vardır.

Feili sifət düzəltmək üçün aşağıdakı şəkilçilərdən istifadə olunur:

1. –mış$^4$ şəkilçisi vasitəsilə keçmiş zaman mənalı feili sifətlər düzəldilir: tapşırılmış, əkilmiş, qurumuş və s.

2. –dıq$^4$ mənsubiyyət şəkilçisi vasitəsilə keçmiş zaman mənalı feili sifətlər düzəldilir:

Yazdığım, gördüyüm, verdiyin və s.

3. –an$^2$ şəkilçisi vasitəsilə indiki zaman mənalı feili sifətlər düzəldilir: uçan, qaçan, oxuyan və s.

4. –acaq$^2$, -ası$^2$, -malı$^2$ şəkilçiləri vasitəsilə gələcək zaman mənalı feili sifətlər düzəldilir: deyiləsi, gələcək, əkilməli və s.

Feili sifətlə onun əlaqəyə girdiyi sözlər birlikdə feli sifət tərkibi adlanır. Bu cür birləşmələr cümlənin mürəkkəb üzvü olur və bir sintatik suala cavab olur. Məsələn, Vətənin müdafiəsində igidlik göstərən qəhrəmanlara eşq olsun.

Həm feilin, həm də zərfin xüsusiyyətlərini daşıyan sözlərə feili bağlama deyilir. Feili bağlama aşağıdakı şəkilçilər vasitəsilə əmələ gəlir:

-ıb$^4$; bitirib, tikib və s.

-araq$^2$; gələrək, hirslənərək və s.

-a$^2$; danışa-danışa, gülə-gülə və s.

-madan$^2$; düşünmədən, danışmadan və s.

Aşağıdakı şəkilçilərlə düzələn feili bağlamalar daha çox hərəkətin zamanını bildirir:

-anda$^2$; alanda, gələndə və s.

-dıqda$^4$; aldıqda, gəldikdə və s.

-arkən$^2$; alarkən, gələrkən və s.

-ınca$^4$; alınca, gəlincə və s.

-dıqca$^4$; yedikcə, oxuduqca və s.

-ar; -maz$^2$; oxuyar-oxumaz, yatar-yatmaz və s.

**Feilin təsriflənməyən formalarına aid çalşma nümunələri:**

**Taşırıq 1.**

Oxuyun. Məsdər tərkiblərinin hansı üzv yerində işləndiyini müəyyənləşdirin.

I. Azad olmaq uğrunda uzun illər mübarizə aparan Azərbaycan indi müstəqil respublikadır.

Öz qəhrəmanlarını təltif etməkdən ötrü "Şah İsmayıl ordeni", "İstiqlal", "Azərbaycan bayrağı", "Şöhrət" ordenləri, "Vətən uğrunda", "İgidliyə görə", "Tərəqqi" kimi medallar təsis etmişdir.

II. Bizim ən qədim bayramımız Novruz bayramıdır. Hər il mart ayında bu bayramı təntənə ilə qeyd etmək üçün hazırlıq görürük. Qurban bayramını keçirməyi də unutmuruq.

**Tapşırıq 2.**

"Müstəqil Azərbaycan" mövzusunda inşa yazın. Feillərin altından xətt çəkin.

**Tapşırıq 3.**

Aşağıda verilmiş feili sifətlərin təsirli və ya təsirsiz olduğunu müəyyənləşdirin.

Nümunə: Oxuyan (nəyi? -kitabı) –təsirli

Gülən (nəyi- mümkün deyil)- təsirsiz

Oxuyan (uşaq), gələn (qonşular), gördüyüm (film), çalınan (zəng), ağlayan (körpə),görüləcək (iş), yeməli (meyvə).

**Tapşırıq 4.**

Aşağıdakı cümlələrdə feli sifətləri uyğun sifətlərlə əvəz edin.

1. O, deyilən sözə fikir vermədi. 2. Çalınan zəng onları xəyaldan ayırdı. 3. Oxunacaq kitabları əvvəlcədən ayırmaq lazımdır. 4. Görülmüş iş hamını fərəhləndirdi.

**Tapşırıq 5.**

Çalış, ütülə, yaz, gör fellərində -dıq$^4$ və mənsubiyyət şəkilçiləri artırmaqla feili sifətlər düzəldin, düzəltdiyiniz feili sifətləri cümlələrdə işlədin.

**Tapşırıq 6.**

-an$^2$ şəkilçisi ilə 4-5 feili sifət düzəldib cümlədə işlədin.

**Tapşırıq 7.**

-acaq$^2$, -ası$^2$, -malı$^2$ şəkilçilərinin hər biri ilə iki feili sifət düzəldib cümlədə işlədin.

**Tapşırıq 8.**

Feillərə-ıb$^4$ şəkilçisi artıraraq feili bağlama düzəldib cümlədə işlədin.

Get, oxu, vur, gör.

**Tapşırıq 9.**

Verilmiş feili bağlamaları cümlədə işlədin.

Görüşmədən, bilmədən, oxumadan, çalışmadan.

## ZƏRF. ZƏRFİN QURULUŞCA NÖVLƏRİ.

Hərəkətin tərzini, zamanını, yerini, miqdarını və s. bildirən əsas nitq hissəsinə zərf deyilir.

Zərflər necə? (nə cür?) nə zaman? (haçan?), nə vaxt? nə qədər? (nə üçün? niyə?) və s. suallarından birinə cavab olur.

Zərflər təkcə fellərə yox, feli sifət, feli bağlama və məsdərə də aid ola bilər; məsələn, Mirzə Əsgər sağa-sola yırğalanaraq düşünürdü. (M.C)

Zərflərin bir qismi ayrı-ayrı nitq hissələri ilə ortaqlı sözlərdən ibarətdir. Ona görə də bu və ya digər sözün felə aid

olub-olmamasına fikir vermək lazımdır.

Zərflər quruluşca sadə, düzəltmə, mürəkkəb - tərkibli olur.

Sadə zərflər bir kökdən ibarət olur və sözdüzəldici şəkilçisi olmur; məsələn, əvvəl, sonra, tez, gec və s.

Düzəltmə zərf kök və sözdüzəldici şəkilçidən ibarət olur; məsələn, zorla, çəpəki və s.

Düzəltmə zərflər, əsasən, aşağıdakı şəkilçilər vasitəsilə əmələ gəlir:

1. –ca$^2$; türkcə, ehmalca və s.
2. –casına$^2$; açıqcasına, hiyləgərcəsinə və s.
3. –yana; -yanə; -anə; dostyana, dahiyanə, şairanə və s.
4. –dan$^2$; birdən, astadan və s.
5. -ən; qəsdən, qəflətən və s.
6. –la$^2$; güclə, zorla və s.
7. –akı$^2$; yanakı, çəpəki və s.

Mürəkkəb zərflər ən azı iki sözün birləşməsindən əmələ gəlir; məsələn, tez-gec, birdən-birə, dilucu və s.

1. Sadə sözlərin təkrarı ilə; yavaş-yavaş, çox-çox və s.
2. Biri və ya hər ikisi şəkilçi qəbul etmiş sözlərin təkrarı ilə: birdən-birə, sonradan-sonraya və s.
3. Antonim və yaxud yaxın mənalı sözlərin yanaşı işlənməsi ilə: gec-tez, əvvəl-axır və s.
4. Yönlük halda işlənmiş bir sayına digər sayların qoşulması ilə; birə-iki, birə-min və s.
5. –ba$^2$ bitişdirici sözlərin təkrarı ilə; üzbəüz, yanbayan, günbəgün və s.
6. Müxtəlif mənalə sözlərin birləşməsi ilə; birbaşa, üzüyuxarı, arabir, hərdənbir və s.

Təkibi zərflər bir neçə sözdən ibarət olur və ayrı yazılır; bu gün, bir an və s.

**Zərf. Zərfin quruluşca növlərinə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

İfadəli şəkildə oxuyun, zərfləri göstərin və suallarını müəyyənləşdirin.

Qaratikan kolu olmayır
Onun çinar kimi görkəmi yoxdur.
Lakin hər “nizəsi”, hər “qalxanıyla”
Öz keşiyində o çox yaman durur.
Batsa da tikanı ələ, ayağa,
İnsafla ona da haqq verək bir az.
Kimsə toxunmasa, kimsə dəyməsə,
Qaratikan belə tikanlı olmaz.
“Qaratikan olun” demirik əsla,
Ayrıdır büsbütün bizim fikrimiz-
Bacarın ətirli qızılgül olun,
Tikansız olmayın lakin bir an siz...

(O. Sarıvəlli)

**Tapşırıq 2.**

Uca, yaman, iti sözlərini cümlədə sifət kimi işlədin.

**Tapşırıq 3.**

Bir an zərfini cümlədə sifət kimi işlətmək olarmı? Niyə?

**Tapşırıq 4.**

Oxuyun, zərfləri tapın və aid olduğu sözlə birlikdə yazın.

Söz qoşursan qəhrəman insanların adına,
Yaşamağını götürüb iclas açan qadına,
Qışda, yazda və yayda,
Hər həftədə, hər ayda.
Sən bu yeni dünyadan baxıb ilham alırsan,
Olub keçən hər şeyi öz sazında çalırsan;
Bəzən də radioda dalğalandıqca səsin,
Bilirəm ki, yaşamaq, çalışmaqdır həvəsin.
Mən demirəm büsbütün dəyişmişdir varlığın...

(S.Vurğun)

**Tapşırıq 5.**

Aşağıdakı sözləri cümlədə zərf kimi işlədin.
Gecə, gündüz, səhər, axşam, sabah, yaxşı, gözəl, şirin, pis, doğru, düz, az, çox, xeyli, çoxlu.

**Tapşırıq 6.**

Dünən, sabah, axşam, cəld, yeyin zərflərini cümlədə işlədin.

**Tapşırıq 7.**

Bir hecalı sadə zərflərə aid neçə nümunə deyə bilərsiniz?

**Tapşırıq 8.**

Dərsliyinizdə verilmiş istənilən nəsr əsərindən iki səhifə oxuyun ordakı zərfləri seçib quruluşuna ayırın.

**Tapşırıq 9.**

Verilmiş sözləri cümlədə işlədin.
Üzbəüz, taybatay, güclə, addımbaşı.

**Tapşırıq 10.**

Aşağıdakı sözlər zərfdirmi?
Az-çox, artıq-əksik, aşağı-yuxarı.

**Tapşırıq 11.**

Oxuyun. Zərfləri göstərin və quruluşca növünü izah edin.
Dəvə susuzluğa yaxşı dözür. Susuzluq keçirdiyi müddətdə o, çəkisini xeyli itirir. Sonra isə yavaş-yavaş sormaqla yüz otuz litrdən artıq içir və əvvəlki çəkisini alır.

Əsrlərdən bəri dəvəni susuzluğa ən davamlı heyvan sayırdılar. Ancaq Meksikada yaşayan dağdələsi dəvəni çox ötüb. Bu dələ yüz gün susuz keçinə bilir. Lakin bu da birincilik deyil. Susuzluq üzrə birincilik kenquruvari siçanlara aiddir. Onlar ömürləri boyu su içmirlər.

## ZƏRFİN MƏNACA NÖVLƏRİ

Zərfin mənaca növləri bunlardır:

1. Tərzi-hərəkət zərfi
2. Zaman zərfi
3. Yer zərfi
4. Kəmiyyət zərfi
5. Səbəb zərfi

Tərzi-hərəkət zərfləri hərəkətin icra tərzini bildirir və

*necə? nə cür?* suallarından birinə cavab olur; məsələn, asta, cəld, bərkdən, yavaş-yavaş, birbaşa və s.

Zaman zərfləri hərəkətin icra zamanını bildirir və *nə zaman? nə vaxt? haçan?* suallarından birinə cavab olur; məsələn, dünən, bu gün, əvvəl, hərdənbir, ara-sıra və s.

Hərəkətin icra olunduğu yeri bildirən zərflərə yer zərfi deyilir və hara? haraya? harada? haradan? suallarından birinə cavab olur; məsələn, içəri, sağa-sola, geri, ora, bura, oradan və s.

Kəmiyyət zərfləri hərəkətin miqdarını və dərəcəsini bildirir və *nə qədər? neçə?* suallarından birinə cavab olur; çox, az, birə-beş, tək-tək və s.

Səbəb zərfləri hərəkətin icra səbəbini bildirir və *nə üçün? niyə? nə səbəbə?* suallarından birinə cavab olur; məsələn, qəsdən, acığa, qorxudan və s.

**Zərfin mənaca növlərinə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Köçürün, zərfləri tapın və mənaca hansı növə aid olduğunu göstərin.

1. Qadın cəld ayağa qalxmaq istədi. 2. Leyla onlarla çox mehribancasına və nəzakətlə görüşüb qapıdan çıxdı. 3. Indi Ağbulaq kəndinin nəinki evlərində, hətta küçələrində də elektrik lampaları yanır. 4. Qonaqlar içəri girəndə İldırım ayağa durdu. 5. Kamran gedəndən sonra Əziz oturub xeyli işlədi. 6. Əli uşağı qəsdən qorxutdu, o isə qorxudan ağlamağa başladı.

**Tapşırıq 2.**

Oxuyun, zərfləri tapıb məna və quruluşca növünü, suallarını aydınlaşdırın.

Futbol həm yaşlılar, həm də uşaqlar arasında çox yayılmışdır. Hər dəfə futbol oyunu keçirilərkən yüz minlərlə futbol həvəskarı bu oyuna həvəslə tamaşa edir.

Bəs həmin oyunun haradan gəldiyini və futbolun neçə yaşı olduğunu bilən varmı? Şübhəsiz ki, var.

Bu yaxınlarda tapılmış qədim yunan vazası hər şeyi aşkar edir.

Vazanın üzərində topa bərk zərbə endirən oyunçu və məşqçi təsvir edilmişdir. Vazanın iki minillik yaşı vardır. Deməli, futbol çox qədim dövrdən qalma bir idman növü imiş.

**Tapşırıq 3.**

"Şirvanşahlar sarayı" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. Zərflərin altından xətt çəkin.

## KÖMƏKÇİ NİTQ HİSSƏLƏRİ

Köməkçi nitq hissələri sözlərin elə qrammatik məna qruplarıdır ki:

1. leksik mənaya malik olmur
2. ayrılıqda cümlə üzvü kimi işlənə bilmir
3. müstəqil suala cavab olmur
4. şəkilçi qəbul edib dəyişmir

Köməkçi nitq hissələrinə qoşma, bağlayıcı, ədat və modal sözlər daxildir.

## QOŞMA

İsmin yiyəlik, yönlük və çıxışlıq halında olan sözlərə qoşularaq müəyyən məna çaları əmələ gətirən köməkçi nitq hissəsinə qoşma deyilir; məsələn, mənim üçün, sənin qədər, evə qədər, səndən ötrü və s.

Qoşmalar qoşulduğu sözlə birlikdə cümlənin bir üzvü olur.

Qoşmalar ismin halı ilə işlədilməsinə görə müəyyən qruplara bölünür:

1. Yiyəlik halda olan sözlərə qoşulanlar: *qədər, kimi, tək, üçün, ilə (la$^2$)*

*2.* Yönlük halda olan sözlərə qoşulanlar: *-dək, -can, -cən, tərəf, doğru, qarşı, sarı, görə, əsasən, qədər, dair, aid, kimi.*

*3.* Çıxışlıq halda olan sözlərə qoşulanlar: *sonra, əvvəl, qabaq, bəri, başqa, qeyri, savayı, ayrı, özgə, ötrü, əlavə.*

Yiyəlik halda olan sözlərə artırılan qoşmaların aşağıdakı

məna xüsusiyyətləri vardır:

1. *Qədər, kimi, tək* qoşmaları yiyəlik halda olan sözlərə qoşularaq bənzətmə mənası əmələ gətirir; məsələn, Təyyarə quş kimi uçurdu.

2. *İlə* qoşması əksərən birgəlik, bəzən də vasitə mənası ifadə edir: məsələn, Əli ilə, telefonla və s.

3. *Üçün* qoşması qoşulduğu sözlə birlikdə səbəb-məqsəd mənasını ifadə edir; məsələn, Əhməd üçün, sənin üçün və s.

Yerlik halda olan sözlərə artırılan qoşmaların aşağıdakı məna xüsusiyyətləri vardır:

1. *Sonra, əvvəl, qabaq, bəri* qoşmaları zaman mənasını ifadə edir: məsələn, Mən səndən sonra danışacam və s.

2. *Başqa, qeyri, savayı, ayrı, özgə* qoşmaları fərqləndirmə mənasını ifadə edir; məsələn, Arzudan başqa hamı yatmışdı.

3. *Ötrü* qoşması qoşulduğu sözlə birlikdə səbəb-məqsəd mənasını ifadə edir; məsələn, Ata-ana daha çox öz övladlarından ötrü çalışır.

## Qoşmaya aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Oxuyun, kimi və qədər qoşmalarının mənasını izah edin.

1. a) Həcər yaxşı oxuyur. Nizami də onun kimi oxumağa çalışır.

b) Biz ölənə kimi torpağımızı düşməndən qoruyacayıq.

2. a) Mən də sənin qədər çalışsam, bütün dərslərimdən “əla” qiymət alaram.

b) Bizim evdən məktəbə qədər olan məsafə iki kilometrdən azdır.

**Tapşırıq 2.**

Qədər, kimi, tək, ilə və üçün qoşmalarını cümlədə işlədin.

**Tapşırıq 3.**

Köçürün, nöqtələrin yerinə kimi, tək qoşmalarından uyğun gələnini artırın.

Tarla bəyaz qar ...
Arzu təz, söz təzə.
Yüzillik dostlar ...
Onlar durub üz-üzə.

(N. Xəzri)

Ucadır göylər ... məhəbbətin də,
Eşqim də göylər ... elə dərindir.
Manim sərvətim də, səxavətim də
Əvvəldən qədrimi bilənlərindir.

(N. Xəzri)

**Tapşırıq 4.**

-dək, -can, -cən, tərəf, doğru, qarşı, sarı, kimi qoşmalarını yönlük halda işlənən sözlərə qoşub cümlədə işlədin.

**Tapşırıq 5.**

Qara hərflərlə verilmiş sözlərin hansı nitq hissəsinə aid olduğunu müəyyənləşdirin.

1. Hamıdan **doğru** danışmaq tələb olunur. 2. Karandaşım **sarı** rəngdədir. 3. **Kimi** axtarırsan? 4. Dostumu kəndə kimi ötürdüm. 5. Mən də sənin **kimi** oxumağa çalışıram.

**Tapşırıq 6.**

Sonra və əvvəl sözlərini həm zərf, həm də qoşma kimi cümlədə işlədin.

**Tapşırıq 7.**

Başqa, özgə sözlərini həm sifət, həm də qoşma kimi cümlədə işlədin.

**Tapşırıq 8.**

Sonra, əvvəl, qabaq, bəri, qeyri, başqa, savayı, ayrı, özgə, qoşmalarını cümlədə işlədin.

**Tapşırıq 9.**

Köçürün, uyğun gələn qoşmaları artırın.

O yazdı zindanda bir ildən ...

Düşünüb sabahı dərindən-dərin
Çöldə gözətçinin ayaq səsləri
Vəzni, ahəngidir onun şerinin.

(B. Vahabzadə)

Mən səni görəndən ...,
Sinəm oldu qəm dəftəri.
Öldür Aşıq Ələsgəri,
Özün günahkar ol, yaylaq!

**Tapşırıq 10.**

*Ötrü* və *ötəri* sözlərini cümlədə işlədin. Həmin sözlərin mənalarını izah edin.

**Tapşırıq 11**

"Yaşlı nəsilə münasibət" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin.

## BAĞLAYICI

Cümlə üzvləri və ya cümlələr arasında əlaqə yaradan köməkçi nitq hissəsinə bağlayıcı deyilir.

Bağlayıcılar sintaktik vəzifəsinə görə iki qrupa bölünür:

1. Cümlənin həmcins üzvlərini, eləcə də tabesiz mürəkkəb cümləni əmələ gətirən sadə cümləri əlaqələndirən bağlayıcılar. Bunlar tabesizlik bağlayıcıları adlanır.

2. Tabeli mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirən bağlayıcılar. Bunlar tabelilik bağlayıcıları adlanır. Göründüyü kimi, tabesizlik bağlayıcıları bərabərhüquqlu tərəflər, tabelilik bağlayıcıları isə biri müstəqil, o biri asılı olan tərəflər arasında işlədilir.

Tabesizlik bağlayıcılarının mənaca altı növü vardır:

1. Birləşdirmə bağlayıcıları: və, ilə (-la$^{2)}$
2. Qarşılaşdırma bağlayıcıları: amma, ancaq, lakin.
3. Bölüşdürmə bağlayıcıları: ya, ya da, ya da ki, və ya, gah, gah da, gah da ki, istər, istərsə.

4. İştirak bağlayıcıları: həm, həm də, həm də ki, o cümlədən, habelə, hətta, da, də, həmçinin və s.
5. İnkarlıq bağlayıcıları: nə, nə də, nə də ki.
6. Aydınlaşdırma bağlayıcıları: yəni, yəni ki, məsələn.

Tabelilik bağlayıcılarının mənaca dörd növü vardır:

1. Səbəb bağlayıcıları: çünki, ona görə ki, buna görə də, ona görə də, onun üçün ki, ondan ötrü ki və s.
2. Şərt bağlayıcıları: əgər, hərgah, madam, madam ki, indi ki, bir halda ki və s.
3. Güzəşt bağlayıcıları: hərçənd, hərçənd ki və s.
4. Aydınlaşdırma bağlayıcıları: ki, belə ki

Bağlayıcılar quruluşca sadə, mürəkkəb və tərkibi olur.

1. Və, ki, nə, həm, gah, amma, ancaq, lakin, nəinki, hərçənd, hətta, əgər, da, də, ya, güya, çünki sadə bağlayıcılardır.
2. Mürəkkəb bağlayıcılar sadə bağlayıcıların müxtəlif sözlərə birləşdirilməsi yolu ilə əmələ gəlir; halbuki, hərgah, habelə və s.
3. Tərkibi bağlayıcılar ən azı iki sözdən əmələ gəlir və ayrı yazılır; ona görə ki, madam ki, və yaxud, ya da ki, istərsə də, həm də, həm də ki, ya da, və ya da ki, belə ki və s.

**Bağlayıcıya aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Yazın, bağlayıcıları göstərin.

Dünya dilləri müxtəlif qruplara bölünür. İtaliyan, ispan, portuqal, fransız və rumun dillərinin hamısı birlikdə roman dillər qrupuna daxildir. İspan dili də, fransız, italiyan və roman dilləri birləşməsindəki “roman” sözü roma sözündən əmələ gəlmişdir.

Həm alman, həm ingilis, həm də İsveç dilləri german dillər qrupuna daxil edilir. Amma rus, ukrayna, belarus dilləri bu qrupa daxil deyildir. Onlar slavyan dilləri qrupuna mənsubdur.

Bəs bizim dilimiz? Azərbaycan dilinə birinci, nə ikinci, nə də üçüncü qrupa daxildir. O, türk dilləri ailəsinə mənsubdur. Türkmən, qaqauz, qazax, özbək, qırğız, tatar dilləri və bir çox

başqa dillər də bura daxildir.

**Tapşırıq 2.**

Bağlayıcıların tələbinə uyğun cümlələr düzəldin

1. ...., çünki ....
2. ...., amma ....
3. ...., ya da ....

**Tapşırıq 3.**

Cümlələri tamamlayın.

**1.** Keçən həftə qərara alınmışdı ki, ... .2. Bir at olmaz ki, ... .3. Beş ildən artıqdır ki, ... .4. Kim xalqın əleyhinə getsə, ... .5. Kim ki, dərslərinə yaxşı hazırlaşır, o, ... .6. Dünən gördüm ki, ... .7. İndi başa düşürəm ki, ... . 8. Elə söz danışırsan ki, ...

**Tapşırıq 4.**

Oxuyun, yerlik hal şəkilçisi ilə -da, -də bağlayıcılarını müqayisə edib fərqləndirin.

Sonada səbr qalmamışdı. Adamlar da əsəbləşmişdilər. Bazarda xalça çox idi. Sona da xalça satırdı. Amma Sonanın xalçası hamının diqqətini cəlb edirdi.

**Tapşırıq 5.**

Tərkibində mürəkkəb və tərkibi olan bağlayıcıları köçürün, mürəkkəb bağlayıcıların altından bir, tərkibi bağlayıcıların altından iki düz xətt çəkin.

1. Həm fəhlələr, həm də aktyorlar tamaşadan razı qaldılar. 2. Yox, ana, mən nə oradan, nə də buradan daha qaçmayacağam. 3. Cəlilzadə müşahidə etdi ki, Dəmirov gündəlik işlərdən başqa, belə bir xəyalpərvərliyə də uğrayır. Halbuki, o belə təsəvvür etmək istəmirdi. 4. Ya otağın havası ağırlaşıb, yaxud ... (cümlələri tamamlayın).

**Tapşırıq 6.**

Oxuyun, tabesizlik bağlayıcıları göstərin.

Başında tufanlar qopandan bəri
Səkkiz ay görmədim camalını mən.
Lakin əməl kimi ey gözəl pəri,
Bir an da getmədin nəzərlərimdən.

(S.Vurğun)

Yenə Günəş öz atını yəhərləyib asimanda,
Toy xəbəri yayacaqdır gah o yanda, gah bu yanda.

(S.Vurğun)

**Tapşırıq 7.**

Köçürün, lazım olan yerdə vergül qoyun.

1. Sərçə muştuluğu eşidəndə cik-cik etməyə başladı amma uçub çağırışa gəlmədi.(S.S.A) 2. Ata əmrini yerinə yetirməyə hazıram ancaq mənim də səndən bir təvəqqəm var. (S.S.) 3. Əmiraslan Gülpərinin əlində olan pulu gah yalvarmaq gah da qorxutmaq yolu ilə öz əlinə keçirməyə çalışırdı. (S.S.A)

**Tapşırıq 8.**

Cümlələri tamamlayın, lazım olan yerdə vergül qoyun.

Nürəddin bu işə çox şad idi amma ... . Nürəddin hər gün gah baxçada bal arısına tamaşa edir gah da ... . Uşaq kəndə gələndən bəri ya çayda balıq tutur ya da ... . Arzu həm özü dərslərinə yaxşı hazırlaşır, həm də ... . Əli də Həsən də Nəsir də VI sinifdə ... .

## ƏDAT

Sözlərin və cümlələrin təsir gücünü artıran köməkçi nitq hissəsinə **ədat** deyilir.

Ədatların aşağıdakı məna növləri vardır:

1. Qüvvətləndirici ədatlar: axı, ən, lap, hətta, daha, artıq, da, də, neçə, ha, ki və s.
2. Dəqiqləşdirici ədatlar: elə, məhz, əsl.
3. Məhdudlaşdırıcı ədatlar: yalnız, ancaq, təkcə, tək, bircə, bir və s.
4. Sual ədatları: məgər, yəni, bəs və s.
5. Əmr ədatları: di, qoy, bax, gəl, gör, görün, gəlin, gəlsənə, ha, -sana, -sənə və s.
6. Arzu ədatları: kaş, kaş ki, təki, barı və s.

Ədatların bəziləri başqa nitq hissələri ilə omonim ola bilər. Omonim ədatlar, əsasən, bunlardır: ki, təkcə, necə, ancaq,

qoy, da, də, bir, bircə, elə, belə, bax, gör, hətta və s.

## Ədatlara aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Oxuyun, ədatları seçib, məna növlərinə görə qruplaşdırın.

Daha buna heç bir söz ola bilməz. Daha bu olmadı. Heç özüm də bilmirəm. Heç bunun yeridir? Axşam bir bizə gəlin. Bu işdən xəbəriniz var? – Hə, var. Hamı salamatdırmı? – Bəli, salamatdır.

**Tapşırıq 2.**

Qara hərflərlə verilmiş sözlərin hansı nitq hissəsi olduğunu söyləyin.

1. Dedi **ki**, gözləsin, indi gəlirəm. Mən **ki** səni xəbərdar etmişdim. 2. Zəng təzəcə vurulmuşdu **ki**, müəllim sinfə daxil oldu. Sən **ki** vaxtında gəldin, sağ ol. Biz **də** sənin kimi vətəndaşıq da! 4. Kitabı stolun üstünə **qoy**!

**Tapşırıq 3.**

Cümlədə işlədin.

Qoy (fel kimi), necə (sifət kimi), bir (say kimi), ancaq (ədat kimi)

**Tapşırıq 4.**

Bu kəlamı necə başa düşürsünüz?

Çalış öz xalqının işinə yara
Geysin əməlindən dünya zərxana.

(N.Gəncəvi)

## MODAL SÖZLƏR

Danışanın ifadə etdiyi fikrə münasibətini bildirən köməkçi nitq hissəsinə modal sözlər deyilir. Modaı sözlərin mənaca aşağıdakı növləri var:

1. Təsdiq bildirənlər: əlbəttə, doğrudan da, həqiqətən, şübhəsiz və s.

2. Ehtimal və şübhə bildirənlər: gərək, yəqin, görünür, bəlkə və s.

3. Nəticə bildirənlər: deməli, xülasə, ümumiyyətlə və s.

4. Bənzətmə və ya müqayisə bildirənlər: sanki, elə bil.

5. Fikrin mənbəyini bildirənlər: məncə, səncə, bizcə və s.

**Modal sözlərə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Yəqin, guya, yoxsa, gərək sözlərini cümlədə işlədin.

**Tapşırıq 2.**

Modal sözün cümlənin əvvəlində işlənməsinə aid beş misal yazın.

**Tapşırıq 3.**

"Azərbaycanın görkəmli yazıçı və şairləri" mövzusunda mətn tərtib edin, mətni öyrənin və təhlil edin. Modal sözlərin altından xətt çəkin.

## NİDA

Danışanın hissini, həyəcanını, qorxu və ya sevincini bildirən sözlərə nida deyilir. Nida nə əsas, nə də köməkçi nitq hissəsidir. Nidaların mənaca aşağıdakı növləri var:

1. Qorxu və narahatlıq bildirənlər: vay, ax, ox, ah və s.

2. Şadlıq, sevinc, təəccüb bildirənlər: paho, bəh-bəh, oho və s.

3. Qəm, kədər bildirənlər: of, ah, oh, oy, eh və s.

4. Çağırış bildirənlər: hey, ey, oy, eh və s.

5. Nifrət və istehza bildirənlər: tfu, xa-xa-xa, xox və s.

Nidalar sadə (ah, oh, ox, oy, of və s), tərkibi (mürəkkəb) (pəh-pəh, ay can, ay-ay-ay və s.). Nidalar ayrı yazılır.

**Nidalara aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Şadlıq, sevinc, təəccüb bildirən nidalara aid beş cümlə yazın.

# SİNTAKSİS
# SÖZ BİRLƏŞMƏLƏRİ

Qrammatikanın sintaksis şöbəsində söz birləşmələri və cümlələr öyrənilir.

Söz birləşməsi iki və daha artıq müstəqil sözün məna və qrammatik cəhətdən birləşməsindən əmələ gəlir. Məsələn: böyük şəhər, dağ havası, səhərin sərin mehi, kitabı oxumaq və s.

Quruluşuna görə söz birləşmələri iki cür olur: sadə, mürəkkəb.

Sadə söz birləşmələri iki müstəqil sözdən ibarət olur: dəniz kənarı, bahar fəsli, doğma torpaq və s.

Mürəkkəb söz birləşmələri üç və daha artıq müstəqil sözdən ibarət olur: qoşa qala qapıları, əzəmətli Şuşa qalası, vətənin azadlığı uğrunda vuruşanlar.

Söz birləşmələri ilə cümlə arasında həm oxşar, həm də fərqli cəhətlər var.

Oxşar cəhətlər:

1. Həm söz birləşməsi, həm də cümlə sözlərin birləşməsindən əmələ gəlir.
2. Həm söz birləşməsində, həm də cümlədə sözlərin sırası eyni olur.
3. Həm söz birləşməsində, həm də cümlədə sözlərin məna və qrammatik əlaqələri əsasən eyni olur .

Fərqli cəhətlər:

1. Söz birləşməsi bitmiş fikri ifadə etmir, cümlə isə bitmiş fikri ifadə edir.
2. Cümlədə intonasiya bitkinliyi var, söz birləşməsində isə belə bitkinlik yoxdur.
3. Söz birləşməsi bir sözdən ibarət ola bilməz. Cümlə isə ola bilər.

Söz birləşməsini əmələ gətirən sözlərdən biri, digəri ondan asılı olur. Asılı söz əsas sözə tabe olur və onu müxtəlif cəhətlərdən izah edir. Məsələn, əlvan (tabe olan) çiçəklər (əsas

tərəf).

Söz birləşmələrinin iki növü var: ismi birləşmələr, feli birləşmələr.

İkinci tərəfi adlarla ifadə olunan birləşmələrə ismi birləşmələr deyilir. Məsələn, oxumaq həvəsi, Xan sarayı, zəngin torpaqlar, səsdən tez. Bir qayda olaraq, birinci tərəf ikinci tərəfi təyin etdiyindən həmin birləşmələrə bir yerdə təyini söz birləşmələri deyilir.

Formasına və məna xüsusiyyətlərinə görə təyini söz birləşmələri üç növə ayrılır:

1. Birinci növ təyini söz birləşmələri.
2. İkinci növ təyini söz birləşmələri.
3. Üçüncü növ təyini söz birləşmələri.

Birinci növ təyini söz birləşmələrin əmələ gəlməsində heç bir formal əlamət iştirak etmir. Bu birləşmələrin ikinci tərəfi əsas sözü, adətən, isimlə, birinci tərəf-asılı sözü müxtəlif nitq hissələri ilə - isimlə, sifətlə, sayla, əvəzliklə, feli sifətlə ifadə olunur. Məsələn, taxta qapı (isim, isim), şirin meyvə (sifət, isim) və s.

İkinci növ təyini söz birləşmələri mənsubiyyət şəkilçisinin köməyi ilə əmələ gəlir. Birləşmənin birinci tərəfi şəkilçisiz, (qeyri-müəyyən yiyəlik halda) olur, ikinci tərəfi isə III şəxsin mənsubiyyət şəkilçisini qəbul edir. Məsələn, Odlar yurdu, İslam dini və s.

İkinci növ təyini söz birləşmələrin tərəfləri bir qayda olaraq isimlə ifadə olunur; məsələn, dağ havası, əsgər anası, ata qayğısı və s.

İkinci növ təyini söz birləşmələrin tərəfləri arasında başqa sözlər artırmaq olmur; məsələn, vətən torpağı.

İkinci növ təyini söz birləşmələrin tərəfləri eyni zamanda cəmlənə bilmir; tərəflər ayrı-ayrılıqda cəmlənir. Məsələn, Qafqaz dağları, dağlar maralı, hava yolları, türk dilləri, sular sonası və s.

İstisna hallarda hər iki tərəf cəmlənir: məsələn,

həmkarlar ittifaqları, atalar sözləri və s.

Üçüncü növ təyini söz birləşmələri ismin yiyəlik hal və mənsubiyyət şəkilçilərinin köməyi ilə əmələ gəlir. Birləşmənin birinci tərəfi ismin yiyəlik hal və şəkilçisi ilə, ikinci tərəfi isə mənsubiyyət şəkilçisi ilə işlənir. Məsələn, Xaqaninin əsərləri, xalqın iradəsi və s.

İkinci növ təyini söz birləşmələrində olduğu kimi, üçüncü növ təyini söz birləşməsinin də tərəfləri, əsasən, isimlərlə ifadə olunur. Məsələn, vətənin sərvəti, sözün qüdrəti və s. Başqa nitq hissələrinə aid sözlər bu birləşmələrin tərəfləri kimi işləndikdə isimləşir (substantivləşir).

Məsələn, oxumağın mənası, yolun uzunu və s. Üçüncü növ təyini söz birləşmələrinin özünəməxsus xüsusiyyətləri onların ikinci növ təyini söz birləşmələrindən fərqləndirir.

a) Bu birləşmələrin hər iki tərəfi şəkilçi ilə formalaşır, ikinci növün isə yalnız ikinci tərəfi şəkilçilər olur: ay işığı – ayın işığı, dağ havası – dağın havası və s.

b) Bu birləşmələrin ikinci tərəfi hər üç şəxsin mənsubiyyət şəkilçisini qəbul edə bilir: məsələn, mənim kitabım, sənin kitabın, onun kitabı, bizim kitabımız, sizin kitabınız, onların kitabı və s.

c) Bu birləşmələrin tərəfləri arasında istənilən qədər söz artırmaq mümkündür: məsələn, Nəsiminin şerləri – Nəsiminin fəlsəfi şeirləri və s.

d) Bu birləşmələrin tərəfləri həm ayrı-ayrılıqda, həm də ikisi eyni zamanda cəmlənir. Məsələn, tarixlərin yadigarı, şairin şeirləri, şagirdlərin kitabları və s.

İkinci və üçüncü növ təyini söz birləşmələri tərəflərinə ayrılmadan bütövlükdə cümlənin bir üzvü kimi çıxış edir. Məsələn, **təkərlər üstündə** səfərdəyəm mən. (B.V.) Gəlmişəm gəzməyə **sizin dağları.**

Ikinci tərəfi feilin təsriflənməyən formaları (mədsər, feili sifət, feili bağlama) ilə ifadə olunan söz birləşmələrinə feili birləşmələr deyilir. Məsələn, vətəni sevmək, vətəni sevən,

vətəni sevəndə və s.

Feili birləşmələrin ikinci tərəfi feillə ifadə olunduğuna görə hərəkət bildirir, birləşmələrin birinci tərəfi isə həmin hərəkətləri müxtəlif cəhətdən izah edir. Məsələn, sən gələndə, baharı qarşılamaq, gec gəlmək, az danışmaq, durub baxmaq, işləyib yorulmaq və s.

Feili birləşmələrə tərkiblər də deyilir. Tərkiblər əsas tərəflərinin adları ilə adlanır:

1. Feili bağlama tərkibləri
2. Feili sifət tərkibləri
3. Məsdər tərkibləri

Əsas tərəfi feili bağlama ilə ifadə olunan tərkiblərə feili bağlama tərkibləri deyilir. Məsələn, **Qürbətdə xan olunca**, Vətənində dilən gəz.(Bayatı)

Əsas tərəfi feili sifət ilə ifadə olunan tərkiblərə feili sifət tərkibləri deyilir. Məsələn, **Həmişə xalq deyən, xalqa söykənən, xalqdan qüvvət alan** özü Xalq olar.

Əsas tərəfi məsdərlə ifadə olunan tərkiblərə məsdər tərkibləri deyilir. Məsələn, insana yalan demək günahdır. (Ə.C)

## Söz birləşmələrinə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Şeiri köçürün, birinci növ təyini söz birləşmələrini mətndən çıxarıb ayrı-ayrılıqda yazın.

Sıra dağlar, gen dərələr,
Ürək açan mənzərələr,
Ceyran qaçar, cüyür mələr
Nə çoxdur oylağın sənin,
Aranın yaylağın sənin...

Ey azad gün, azad insan,
Doyunca iç bu bahardan.
Bizim xallı xalçalardan
Sər çinarlar kölgəsinə,

Alqış günəş ölkəsinə!

(S.Vurğun)

*Nümunə: xallı xalça*

**Tapşırıq 2.**

Qədim, yeni, hündür, həmin, gümüş, oxunan sözlərinə uyğun tərəflər tapıb, onlardan birinci növ təyini söz birləşmələri düzəldin.

**Tapşırıq 3.**

Tərkibində birinci növ təyini söz birləşməsi olan beş cümlə yazın.

**Tapşırıq 4.**

Mətni köçürün, ikinci növ təyini söz birləşmələrinin altından xətt çəkin.

Araz çayı böyük Culfa düzünü iki hissəyə ayırır (O). Hər saxsı parçası, hər məzar daşı, nəsildən-nəslə bir yadigardır. (S.V) Dan yeri yavaş-yavaş qızarır. Qatarımız Araz boyu uzanıb gedən yolla yoxuşa qalxır, get-gedə sürətini azaldır... hərdən fit səsi dağlara əsk-səda salır. Araz dərəsi böyük bir torpağın sinəsində açılmış xəncər yarasıdır. (R.R)

**Tapşırıq 5.**

Verilmiş birləşmələri cümlədə işlədin.

Qala qapıları, "Koroğlu" operası, Bakı Dövlət Universiteti, "İsgəndərnamə" poeması, durna qatarı, yol boyu, Sabir bağı, ana heykəli.

**Tapşırıq 6.**

İkinci növ təyini söz birləşməsi formasında olan on xüsusi ad yazın.

*Nümunə: Xan kəndi, Şuşa qalası.*

**Tapşırıq 7.**

Verilmiş sözləri uyğun gələn qaydada əlaqələndirib üçüncü növ təyini söz birləşməsi düzəldin.

Günəş, qış, Nəsimi, Əcəmi, şəhər, həyat (birinci tərəf); küçələr, soyuq, dərslər, şüa, şeİrlər, sənət (ikinci tərəf).

**Tapşırıq 8.**

Aşağıdakı sözləri isimlərlə və ya başqa nitq hissələri ilə əlaqələndirib üçüncü növ təyini söz birləşməsi düzəldin.

Yaxşı, gözəl, beş, uçmaq, danışmaq, oxuyan, yuxarı, dadlı.

**Tapşırıq 9.**

Üçüncü növ təyini söz birləşməsinin tərəflərindən birinin və ya hər ikisinin isim olmayan nitq hissələri ilə ifadə olunmasına aid özünüzdən beş misal tərtib edin və cümlələrdə işlədin.

*Nümunə: beşin yarısı, yaxşıların xeyirxahlığı.*

**Tapşırıq 10.**

Şəhər, kənd, yol, dağ, bağ sözlərini üçüncü növ təyini söz birləşmələrinin ikinci tərəfi kimi işlədin.

**Tapşırıq 11.**

Şəhərin küçəsi birləşməsinin əvvəlcə birinci tərəfini, sonra ikinci tərəfini, daha sonra hər iki tərəfini cəmdə işlədin.

**Tapşırıq 12.**

Xalq sözünü şəxs əvəzlikləri ilə işlədib üçüncü növ təyini söz birləşmələri düzəldin.

*Nümunə: mənim xalqım.*

**Tapşırıq 13.**

Aşağıdakı ikinci növ təyini söz birləşmələrini cümlədə işlədin.

Xan sarayı, Dərbənd şəhəri, Azadlıq meydanı, dirçəliş günü, Şəhidlər xiyabanı, Şuşa qalası, Göyçə gölü, Sirlər xəzinəsi.

**Tapşırıq 14.**

Aşağıdakı üçsüncü növ təyini söz birləşmələrini cümlədə işlədin.

Vətənin azadlığı, Kürün suları, Xaqaninin poeziyası, Üzeyirin operaları, dağların zirvələri, "Bakının dastanı" (S.V), "Şuşanın yolları" (N.X).

**Tapşırıq 15.**

Mətni köçürün, feili birləşmələrin ikinci tərəflərinin ifadə vasitələrini göstərin.

1. Vətəni sevməyən insan olmaz. (A.S) 2. Ey günəş! Ey bulud! Ey əski dostlar! Adınız gələndə titrəyir dilim. Günəşlə tutuşan, ayla yarışan, Gah məndən inciyən, gah da barışan... Könlümü ardınca çəkib aparır, Yüksəyə qalxdıqca sinəm qabarır. (S.V) 3. Ana oğlunu oyatmamaq üçün yana çəkildi, başını qaldırıb köksünü ötürdü. (M.İ) 4. Dənizdə işləmək quruda işləməkdən maraqlıdır. 5. Muğandan qayıdıb iş otağında Muğanı yazanda tələsmədin sən. (N.X). 6. Hər gün çiçəklənən ana diyarda, Bizim arzumuz da gül açacaqdır.

**Tapşırıq 16.**

Mətni köçürün, feili birləşmələrin tərəflərinin münasibətini (tərəflər arasındakı məna əlaqələrini) izah edin.

1. Yazıram, oxuyun, dinləyin məni, Könül söyləyəni, könül deyəni. (N.X) 2. Qəlbim dediyini mən yazdım bir-bir. (N.X) 3. Nə üçün şeir yazan şair əlləri Elmin dəryasında üzə bilməsin? (S.V) 4. Bil ki, səni sevən, sənə inanan Könül ilqarını pozmaz dünyada.(R.R) 5. Ancaq hərdən məni yadına salsan Gec gəlib, tez gedən bir qonaq kimi, Bil ki, sənsiz mənə dar gəlir cahar. (R.R)

**Tapşırıq 17.**

“Konfransda” mövzusunda dialoq tərtib edin, dialoq şəklində tərtib etdiyiniz mətni nəsrə çevirib danışın.

## SİNTAKSİS ƏLAQƏLƏR

Söz birləşmələrini və cümlələri əmələ gətirən sözlər arasında həm məna əlaqələri, həm də sintaktik əlaqələr olur.

Sintaktik əlaqələrin iki növü var: tabesizlik əlaqəsi, tabelilik əlaqəsi.

Tabesizlik əlaqələri eyni hüquqlu sözlər arasında olur. Tabesizlik əlaqəsində olan sözlərdən biri o birinə tabe olmur, biri o birini aydınlaşdırmır, hər ikisi eyni qrammatik formada olur. Məsələn, **Zövqlər, duyğular** dəyişir hər an, **Gəldikcə, getdikcə** nəsillər bir-bir. (B.V) Acılı, şirinli günlər görmüşük.(B.V)

Tabesizlik əlaqəsi cümlədəki sözlər arasında özünü göstərir. Bu əlaqə ya intonasiya vasitəsi ilə, ya da tabesizlik bağlayıcıları ilə müəyyənləşir. Məsələn, Var olsun, şerimiz, şairlərimiz, Hər **gülə, çiçəyə** təzə ad verir. (S.V); **Qızlar və oğlanlar** yanaşı oturmuşdular. (M.H)

Tabelilik əlaqəsində olan sözlərdən biri o birinə tabe olur. Tabelilik əlaqəsinin üç növü var:

1. Uzlaşma əlaqəsi
2. İdarə əlaqəsi
3. Yanaşma əlaqəsi

Tabe sözün şəxs və kəmiyyətə görə əsas sözlə uyğunlaşmasına uzlaşma əlaqəsi deyilir. Məsələn, mən tələbəyəm, mənim müəllimim.

Uzlaşma əlaqəsi həm mübtəda ilə xəbər arasında, həm də ikinci və üçüncü növ təyini söz birləşmələrinin tərəfləri arasında olur. Uzlaşma əlaqəsi mübtəda ilə xəbər arasında olanda xəbər mübtədadan asılı olub onunla uzlaşır. Məsələn, **biz nöqtə qoymuşuq acıya**, dərdə (M.A).

Mübtəda ilə xəbər arasında şəxsə görə uzlaşma heç vaxt pozulmur. Kəmiyyətə görə uzlaşma isə birinci və ikinci şəxslərin tək və cəmində həmişə olduğu halda, üçüncü şəxsin cəmində gah olur, gah da pozulur. Məsələn, uşaqlar oxuyurlar.

Ikinci və üçüncü növ təyini söz birləşmələrinin tərəfləri arasında da uzlaşma əlaqəsi olur. Bu birləşmələrdə ikinci tərəflər birinci tərəflərlə uzlaşır.

Ikinci növ təyini söz birləşməsinin birinci tərəfi şəxs əvəzlikləri ilə ifadə oluna bilmədiyinə görə uzlaşma yalnız üçüncü şəxsə görə olur: Qız qalası, Xəzər dənizi.

Üçüncü növ təyini söz birləşməsində isə uzlaşma hər üç şəxsə görə olur: məsələn, mənim dostum, bizim dostumuz, sənin dostun, sizin dostunuz, onun dostu. Üçüncü şəxs cəmdə kəmiyyətə görə uzlaşna olmur.

Əsas sözün tələbi ilə tabe sözün ismin adlıq halından çıxıb başqa hala düşməsinə idarə əlaqəsi deyilir. Məsələn,

Leylək qışa qalması,
Köçdü isti ellərə (R.R.)

İdarə əlaqəsində asılı söz isim və ya substantivləşmiş başqa nitq hissələrindən olur. Əsas söz isə çox vaxt feil olur, lakin başqa nitq hissələri də əsas söz kimi çıxış edə bilir. Məsələn, yuxudan oyanmaq, əsgərlərdən biri, dağlardan ağır, oxumağa həvəs, dağlara yol, böyüyə hörmət, ondan bilikli, gedəni qaytarmaq və s.

Tabe sözün heç bir qrammatik şəkilçi qəbul etmədən əsas sözə tabe olmasına yanaşma əlaqəsi deyilir. Məsələn, azad insan, göy çəmən, durub baxmaq və s.

**Sintaktik əlaqələrə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Cümlələri köçürün, tabesizlik əlaqəsində olan sözləri seçib yanaşı yazın.

Bizi sevindirsin eşqin, əməlin, Vəfada, dözümdə Banuçiçək ol. (B.V) Arzunu, istəyi dəyişir zaman.(B.V) Məhəl qoymaz nə yağışa, nə küləyə təyyarələr. (B.V) Çalış, Nəbi, gecə-gündüz yarat sən, Bəd sözləri öz sinəndən yar, at sən. (N.X).

**Tapşırıq 2.**

Tabesizlik əlaqəsində olan bədii əsər adlarından bir neçəsini yazın.

*Nümunə:"Leyli və Məcnun", "Hərb və sülh".*

**Tapşırıq 3.**

Cümlələri köçürün, tabelilik əlaqəsində olan sözləri seçib yazın.

Rasim şagird ikən gözəl şəkillər çəkərdi. (M.İ.) Məktəbdə divar qəzetini o tərtib edərdi. (M.İ.) Mədinə Rasimi görəndə qızardı və özünü bir cür hiss etdi.(M.İ.) Rasim onu bilirdi ki, Mədinə yaxşı şagirddir. (M.İ.) Təbiət quranda Azərbaycanı, Onu sığallamış qüdrətin əli.(S.V.)

**Tapşırıq 4.**

Sözlərin əlaqəsinə görə cümlənin sxemini düzəldin.

Lirik qəzəllər yazan dahi Füzuli gözəl poemaları ilə də dünyada şöhrətlənmişdir.

**Tapşırıq 5.**

Mətni köçürün, uzlaşma əlaqəsində olan sözləri seçib yanaşı yazın.

Sən bizim ellərin ruhuna bir bax. (S.V.) Küylüdür, haraylıdır Bakının küçələri.(R.R.) İzlərəm göydəki yıldızları mən.(H.C.) Dinlər səni azadə könüllər.(H.C.) Payız günü idi. Balaca şəhərin küçələrini duman bürümüşdü. Xırdaca evlər duman kimi görünürdü. Mən Arazda şaxələnən çinardım. (M.A.) Vətən qarşısında cavabdehik biz. (N.X.) Təkərlər üstündə səfərdəyəm mən, Bir anın içində yüz yerdəyəm mən. (B.V.)

**Tapşırıq 6.**

Sən yollar boyunca səfərdəsən (B.V.) –cümləsinin mübtəda və xəbərini üç şəxsin tək və cəminə görə dəyişin.

**Tapşırıq 7.**

Köçürün, idarə əlaqəsində olan sözləri cümlələrdən çıxarıb yanaşı yazın.

...Balaca otaqda kiçik bir məclis qurulmuşdu. İllər keçdi. Etibar böyüdü. Boy atdı. Bağçaya, məktəbə getdi. Dilarə ali məktəbi bitirdi. Müəllimliyə başladı. Bu gün Dilarə dərsdən tez gəlmişdi. Etibar da məktəbdən gəlmiş, oynamağa getmişdi. (M.İ.)

**Tapşırıq 8.**

Yuxudan oyanmaq, əsgərlərdən biri, dağlardan ağır, oxumağa həvəs, dağlara yol, böyüyə hörmət, ondan bilikli, gedəni qaytarmaq sözlərində əsas və asılı sözlərin hansı nitq hissələrinə aid olduğunu göstərin.

**Tapşırıq 9.**

Verilmiş misallarda əsas tərəflərin hansı nitq hissələrindən ibarət olduğunu göstərin.

İşdən qayıdıram, bağda çalışırıq, xəstəxanada növbətçiyəm, səfərə çıxmaq, gözlərini çəkməyən, hər şeydəb danışanda, yoldan teleqraf, dağlara yürüş, səndən ötrü, gecikdiyimə görə,

xalqın qəzəbi.

**Tapşırıq 10.**

Aşağıda verilmiş söz birləşmələrində yanaşan tərəflərin hansı nitq hissəsindən ibarət olduğunu göstərin.

Ağır dərd, duzlu danışıq, milli qəhrəmanlarımız, axırıncı sıra, beşinci dəstə, cəld keçmək, axşam qayıdanda, yaxınlaşıb baxmaq, döyüşən əsgərlər.

## CÜMLƏ

Cümlə sözlərin bitmiş fikir ifadə edən birləşməsinə deyilir.

Məqsəd və intonasiyasına görə cümlələr dörd cür olur: nəqli cümlə, sual cümləsi, əmr cümləsi, nida cümləsi.

Deyiliş zamanı bu cümlə növlərinin fərqlənməsində intonasiyanın köməyi olur. Yəni, eyni bir cümləni intonasiyanın köməyi ilə həm nəqli, həm sual, həm də nida cümləsi kimi işlətmək olur.

Nəqli cümlələr bir hadisə, əşya, əlamət və s. haqqında məlumat vermək məqsədilə işlədilir. Nəqli cümlələr adi intonasiya ilə tələffüz edilir. Nəqli cümlələr başqa cümlə növlərinə nisbətən daha çox işlədilir. Çünki insanlar öz fikirlərini daha çox nəqli cümlələr vasitəsilə ifadə edirlər.

Sual məqsədilə işlədilən cümlələrə sual cümləsi deyilir. Sual cümləsinin üç növü var:

1. Sual əvəzliklərinin köməyi ilə yaranan sual cümləlləri.
2. Sual ədatlarının köməyi ilə yaranan sual cümlələri.
3. Yalnız sual intonasiya vasitəsilə əmələ gələn sual cümlələri.

Əmr cümlələri əmr, istək, arzu, xahiş, öyüd, nəsihət və s. kimi mənalar ifadə edir. Əmr cümləsinin xəbəri felin əmr şəkli ilə ifadə olunur. Bu, əmr cümləsi üçün qrammatik göstərici hesab olunur. Məsələn, Tez olun, tutun Eldarı! (S.V) Gün o gün olsun ki, qurtarsın dava. (S.R.)

Yüksək hiss-həyəcanla tələffüz edilən cümlələrə ida

cümləsi deyilir. Nida cümlələri, əsasən, iki yolla əmələ gəlir:

1. Yalnız intonasiya vasitəsilə əmələ gələnlər.
2. Nidaların köməyilə.

## Cümləyə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Cümlələr qurun və yazın.

1. Sözlərdən: yaşıllaşmaq, ağaclar; gözəlləşmək, kəndlər; çiçək, qəşəng; isti, hava; hovuz, dolu, suilə.

2. Sözlərdən və söz birləşmələrindən: biz, işıqlanmaq, kəndə çatanda; hündür, şəhərin binaları; yaşayır, Sənubər, beşmərtəbəli bina; işləmək, sən gələndə, mən; açıq, evin qapısı, axşamlar.

3. Söz birləşmələrindən: Əlinin atası, məktəbin direktoru, şəhərin mərkəzi, məktəbin binası, evin üstü, televizorun antenası; idarənin xidmətçisi, pəncərəni silən.

**Tapşırıq 2.**

Nəqli cümləyə aid beş cümlə yazın.

**Tapşırıq 3.**

Sual cümləsinin hər bir növünə aid iki misal yazın.

**Tapşırıq 4.**

Şeiri oxuyun, əmr cümlələrini müəyyənləşdirin, onların xəbərlərinin feili əmr şəklinin hansı şəxsində olduğunu deyin.

Gəl, ört pəncərəni, qalaq üz-üzə,
Bir sən ol, bir də mən, bir də gözlərin.
Vüsal qərq olurkən hicran dənizə
Ağ bir yelkən olsun o son sözlərin.
Bir sən ol, bir də mən, bir də dərdimiz,
Ağlayaq doyunca, gülək doyunca.
Baş-başa qaldıqca bu möhnətdə biz,
Döysün qapıları külək doyunca.
Döysün qoy, açmayaq, yorulsun külək,

Qəmli hicran qalsın qapıda dustaq.
Bir an vüsalınla çırpınsın ürək,
Sonra...sonra yenə biz ayrılmalıyıq.
(R.Rza)

**Tapşırıq 5.**

Mətni oxuyun, cümlələri məqsəd və intonasiyaya görə qruplaşdırın.

"Quran" islamın müqəddəs kitabıdır. Bir dəfə yüksələn bayraq bir daha enməz! (M.Ə.R). Biz ayrılan zaman demədin ki, sən, Bir də bu yerlərə gələcəkmisən? (S.V) Sən bizim ellərin ruhuna bir bax, Ondan inciməmiş bir əziz qonaq. (S.V) Qara torpaq! Qara torpq! Sənin dərdin nə böyükmüş! (S.V)

Yaşasın məhəbbət dediyim pəri!
Yaşasın səadət, o yaz səhəri!
Yaşasın anamız müqəddəs Vətən!
Oyansın səhərlər zəfər səsindən! (S.V)

## CÜMLƏ ÜZVLƏRİ

Cümlə üzvləri bir-biri ilə həm mənaca, həm də qrammatik cəhətdən bağlı olur və bir sintaktik suala cavab verir. Cümlə üzvləri əsas nitq hissələri ilə ifadə olunur. İsim daha çox mübtəda və tamamlıq vəzifəsində, sifət, say daha çox təyin, zərf-zərflik, təsirlənən feillər xəbər vəzifəsində işlənir. Əvəzlik əvəz etdiyi nitq hissəsinin vəzifəsində işlənir. Məsələn, iri itlər qəzəblə hürüşürdülər. Siz Nuriyyə deyilsinizmi?

Cümlə üzvləri söz birləşmələri ilə də ifadə olunur. Məsələn, mal-qara örüşdən qayıdanda kəndə səs düşürdü.

Nitq hissələri ilə ifadə olunan üzvlər sadə, söz birləşmələri ilə ifadə olunanlar isə mürəkkəb üzvlər adlanır.

Cümlənin beş üzvü var. Bu üzvlər cümlənin təşkilində oynadıqları rola görə iki növə ayrılır:

1. Baş üzvlər: mübtəda, xəbər.
2. Ikinci dərəcəli üzvlər: tamamlıq, təyin, zərflik.

Mübtəda kim? nə? bəzən də hara? Suallarından birinə

cavab verir, ismin adlıq halında olan sözlər və birləşmələrlə ifadə olunur. Mübtəda cümlənin ən müstəqil üzvü olub, qrammatik cəhətdən heç bir üzvdən asılı deyil. Mübtəda fikir özülüdür, fikir mənbəyidir. Cümlədəki fikir mübtədaya görə nizamlanır.

Mübtədanın ifadə vasitələri müxtəlifdir. O daha çox isim və əvəzliklərlə ifadə olunur; məsələn, Murad universitetində oxuyur. O, bizim məktəbi bitirib.

Məsdərlər də mübtəda vəzifəsində işlənə bilir; məsələn, yaşamaq mənə həm acı, həm də şirin görünürdü.

Sifət, say, işarə əvəzlikləri, feili sifətlər isimləşərək mübtəda vəzifəsində işlənə bilir.

Mübtəda söz birləşmələri ilə də ifadə olunur; yəni mürəkkəb idarə və təşkilat adları, ikinci və üçüncü növ təyini söz birləşmələri, məsdər və feili sifət tərkibləri cümlədə mübtəda vəzifəsində işlənə bilir.

Mübtəda quruluşca sadə və mürəkkəb olur. Nitq hissələri ilə ifadə olunan mübtədalar sadə, söz birləşmələri ilə ifadə olunan mübtədalar mürəkkəb olur.

Xəbər cümlənin baş üzvü olub, haqqında danışılanın hərəkət və ya əlamətini bildirir.

Xəbər nə edir? kimdir? nədir? necədir? və s. suallarına cavab verir.

Mübtəda kimi xəbər də həm nitq hissələri, həm də söz birləşmələri ilə ifadə olunur. Xəbər ən çox təsriflənən feillərlə ifadə olunur. Xəbər təyini söz birləşmələri, məsdər və feili sifət tərkibləri və s. ilə də ifadə oluna bilir; məsələn, Azərbaycanın elmi mərkəzlərindən biri **Bakı Dövlət Universitetidir. Mən dağların səsiyəm!**

Nitq hissələri ilə ifadə olunan xəbərlər sadə, söz birləşmələri ilə ifadə olunanlar mürəkkəb xəbər adlanır. Xəbər ifadə vasitəsinə görə iki cür olur:

1. Feili xəbər
2. İsmi xəbər

Feİli xəbər təsriflənən feİllərlə - feİlin əmr, xəbər, vacib, arzu, lazım və şərt şəkilləri ilə ifadə olunur. Məsələn: ay camaat, **yol verin**. Pəhləvan **ayağa durdu**.

Feİli xəbər feİli frazeoloji birləşmələrlə də ifadə olunur; məsələn, igidlər **dərdə düşdü**. Səməd **köksünü ötürdü.**

İsmi xəbər adlarla-isim, sifət, say, əvəzlik və zərflərlə ifadə olunur; məsələn, qayıqlar **dənizdir**. Dəniz **fırtınalıdır**.

İsmi birləşmələrlə, məsdər, feili sifət və feili sifət tərkibləri ilə ifadə olunan xəbərlər də ismi xəbərlərdir; məsələn, onun anası Xədicəbanu **arvadların ən xoşbəxtidir**. Məqsədim **oxumaqdır.**

Dilimizdə var, yox, lazım, gərək, mümkün, bəs sözləri müstəqil ismi xəbər kimi işlənə bilir; məsələn: Mənim bir nigaran təbiətim var. Evdə heç kim yoxdur.

Feili xəbərlər mübtədaya aid hərəkəti, ismi xəbərlər mübtədaya aid əlaməti bildirir.

Xəbərlər mübtəda ilə şəxsə görə uzlaşır. Mübtəda hansı şəxsdə olsa, xəbər də həmin şəxsdə olur, həmin şəxsin şəkilçisini qəbul edir və onunla uzlaşır; məsələn: Mən bədii kitablar çox oxuyuram. Sən bu günlərdə şəhərə gedəcəksən və s.

Xəbər mübtəda ilə kəmiyyətcə də uzlaşır – mübtəda tək olduqda xəbər də tək, cəm olduqda xəbər də cəm olur; məsələn: mən oxuyuram, sən oxuyursan, o oxuyur və s.

III şəxsin cəmində xəbər mübtəda ilə kəmiyyətcə uzlaşdığı kimi, uzlaşmaya da bilər. Bu aşağıdakı qayda üzrə olur.

1) III şəxsdə insan anlayışı bildirən mübtəda cəm olduqda xəbər də əksərən cəm olur; məsələn: şagirdlər gözəl binalara tamaşa edirdilər. Bəzi hallarda xəbər belə mübtədalarla kəmiyyətcə uzlaşmaya bilir; məsələn, nümayəndələr qonağı qarşılamağa getmişdi.

2) Heyvan və quş anlayışı bildirən mübtəda cəm olduqda xəbər cəm də ola bilir, tək də; yəni xəbər mübtəda ilə

kəmiyyətcə uzlaşa da bilir, uzlaşmaya da; məsələn, itlər hürüşürdü-itlər hürüşürdülər.

3) Xəbər insan və heyvan anlayışı bildirməyən mübtədalarla kəmiyyətcə uzlaşmır; məsələn, yarpaqlar töküldü. Evlər tikildi.

**Cümlə üzvlərinə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Oxuyun. Nümunədə göstərilən qayda ilə təhlil edin və hər bir üzvün hansı nitq hissəsi ilə ifadə olunduğunu söyləyin.

1. Onlar bağçada miçətkən qurdular. 2. Sultan artisti çağırmağı tapşırdı. 3. Əlləzoğlu səndələyib divara dəydi. 4. Səməd yaxınlaşdı, Məsimdən kağızı aldı, oxudu və fikrə getdi. 5. Mən ocağa ayrı kağız atdım. 6. O, titrək, yumşaq, nəm və soyuq barmaqları ilə Gülbənizdən yapışdı.

Nümunə: onlar bağçada miçətkən qurdular.

Cümlə üzvlərinin şərti xətlərini unutmayın:

———— mübtəda

════ xəbər

------------- tamamlıq

**Tapşırıq 2.**

Oxuyun, isimləri tapıb, hansı cümlə üzvü vəzifəsində işləndiyini izah edin.

1.Qızılgülü dəstə-dəstə dərəm mən.(Qurbani) 2. Almanı, heyvanı, narı, turuncu – bu dördünü dərən əllər sevinsin! (Qurbani) 3. Göyərçin qanadlarını çalaraq havaya qalxdı. (İ.Ə.) 4. Mən həkim dostumla rayon mərkəzinə qayıdırdım. (İ.Ə.) 5. Əli çəlikli, balacaboy bir qoca irəli çıxdı. (İ.H.) 6. Bağça, həyət adamla dolmuşdu. (İ.H.) 7. Şeir gündəlik ruzum, Balım, çörəyim, duzum. (X.R.U.)

**Tapşırıq 3.**

Oxuyun, cümlələrin mübtədasını tapın, onların nə ilə ifadə olunduğunu söyləyin.

Təbiət gözəldir. İnsan təbiəti də gözəl olmalıdır. Təbiət mənzərələri rəssam tablolarına can verir. Rəssam tablolarının təbiəti eyni olmur. Rəssam tabloları təbiətdən ilham alaraq yaradır.

**Tapşırıq 4.**

Verilmiş ismi və feili birləşmələri cümlədə mübtəda vəzifəsində işlədib yazın.

Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Respublikası Təhsil Nazirliyi, əkin yeri, tarlanın məhsulu, rəyasət heyətində oturanlar, yoldaşlara kömək etmək.

**Tapşırıq 5.**

Oxuyun, xəbərlərin köməyi ilə mübtədaları tapıb, nə ilə ifadə olunduğunu söyləyin.

1.Birdən su çalxalandı. Od da çatırdayıb alovlandı. (İ.Ş.) 2. Bir dəstə atlı gəlirdi. Onlar güllə səsi eşidəndə yəhərə sinib cilovu buraxdılar. (M.C.) 3. Hava soyuq idi. (Ə.V.) 4. Daha dözmək mümkün deyil. Onunla danışmaq tamamilə əsəbdir. (İ.H.)

**Tapşırıq 6.**

Oxuyun, cümlələrin qrammatik əsasını göstərin, xəbərlərin hansı suala cavab olduğunu söyləyin.

1.İlk bəşər humanisti Məzdəkdən söhbət aç sən. (X.R.U.) 2. Dolsun muğamatla evim, ürəyim, Bütün yer üzünə mən ondan deyim! (C.N.) 3. Tezliklə Krım tam azad olacaq. (İ.Ş) 4. Sən, elə bil, doğma qohumumsan. Səndən ayrılmaq nə qədər çətindir! (İ.Ş.) 5. Bu gün növbədə idim. (İ.Ş.) 6. Vüqar könülsüz-könülsüz maşına yanaşdı. (B.V.) 7. Bu gün çox qəmgin idim. (İ.Ş.).

**Tapşırıq 7.**

Verilmiş frazeoloji birləşmələri cümlədə xəbər vəzifəsində işlədin.

Yada salmaq, bel bağlamaq, nəfəsini dərmək, qulaq asmaq, ürəyini boşaltmaq, yola düşmək.

**Tapşırıq 8.**

Oxuyun, xəbərləri tapıb hansı nitq hissəsi və ya söz birləşməsi ilə ifadə olunduğunu söyləyin.

1.Mərhəmət xanım daha höcət etmədi. (V.B.) 2. Mənim gözlərim sərraf gözləridir. (V.B.) 3. Alagöz çox şirin yatmışdı (V.B.) 4. Ovçu dostum bildirdi ki, bu dağı qalxmaq onun hünəri deyil. (Z.N.) 5. Dağa qalxmaq asan işdir, düşmək daha çətindir. (Z.N.) 6. Dağlar gözəlini əlimdən alan mənim qartalım idi. (Z.N.).

**Tapşırıq 9.**

Oxuyun, xəbərləri tapıb, ismi və ya feili xəbər olduğunu söyləyin.

Adam çox danışmalalı, başqasının sözünü yarımçıq kəsməməlidir. Böyüklərlə danışarkən kinayə işlətməməli, mülayim səslə sözünü deməlidir. Qeybət, böhtan, iftira və yalançılıqdan çəkinməli, heç vaxt belə şeyə yol verməməli. Bu cür xasiyyəti olan adamlarla ünsiyyət saxlamamalı, onlara qulaq asmamalıdır. Ümumiyyətlə, az danışmalı. Çox eşitməlidir.

Bir filosofdan soruşdular: "Nə üçün az danışır, çox qulaq asırsan?" Dedi: "Çünki mənə iki qulaq veriblər, bir dil, yəni iki eşit, bir de".

(Nəsrəddin Tusi)

**Tapşırıq 10.**

Oxuyun, feili xəbərləri tapıb. Feilin hansı şəkli ilə ifadə olunduğunu söyləyin.

1.İndi biz gölü keçib, onların mühasirəsini yarmalıyıq. 2. Düşmən bunu hiss edib, fasiləsiz atəşə başladı. 3. Hər yarım metrdə dirək vurulmalıdır. 4. Snayperlər işə başladılar. 5. Biz ön cəbhə xəttini minalayasıydıq.6. Insan insan kimi yaşamaq istəyir. 7. Nə üçün mən onunla görüşə bilmədim? 8. Biz bu evdə gecələyəsi olduq. 9. Mən birinci dəstə ilə getməliyəm. 10. Onun məktubu bütün tələbəlik illərimi yadıma saldı.

(İ.Şıxlı)

**Tapşırıq 11.**

Köçürün, frazeoloji birləşmələrlə ifadə olunmuş

xəbərlərin altından xətt çəkin.

1.Bu sual kişini lap təbdən çıxartdı. 2. Qoyun başımızı dolandıraq, bizi xataya salmayın. 3. Onu da atası Güneyd kimi Ərdəbildən didərgin salarlar. (F.K) 4. O, ağanı hirsləndirməmək üçün kababı özü bişirməyi qərara aldı (İ.Ş) 5. Bir xeyli adam onların ardınca üz qoydu. 6. Mən özüm də onu dilə tutacağam. (İ.Ş) 7.Özü mənim yanıma pənah gətirib.

**Tapşırıq 12.**

Verilmiş sözlərdən birincilərini mübtəda, ikincilərini xəbər vəzifəsində işlətməklə cümlələr qurub yazın.

Onlar, yola düşmək; onlar, istirahət etmək; camaat, qayıtmaq; ağaclar, çiçəklənmək; quşlar, otlamaq; ördəklər, üzmək; çiçəklər, solmaq; çıraqlar, yanmaq; göylər, guruldamaq;

## CÜMLƏNİN İKİNCİ DƏRƏCƏLİ ÜZVLƏRİ

Cümlələrin ikinci dərəcəli üzvləri tamamlıq, təyin və zərflikdir. İkinci dərəcəli üzvlərdən tamamlıq və zərflik xəbərlə bağlı olur və xəbərləri izah edib aydınlaşdırır.

Tamamlıq cümlənin ikinci dərəcəli üzvü olub, hərəkət və əlamətin obyektini bildirir. İsmin adlıq və yiyəlik hallarından başqa, qalan hallarda əşya, obyekt bildirən sözlər və birləşmələr cümlədə tamamlıq vəzifəsində işlənir. Bu cür tamamlıqlar kimə? nəyə? kimi? nəyi? nə? kimdə? nədə? kimdən? nədən? suallanna cavab verir. Məsələn: Rasim əlcəyi (nəyi?) mənə (kimə?) verdi. Mən bu xəbəri (nəyi?) səndən (kimdən) eşitmişəm.

İşin, hərəkətin, əlamətin obyektini bildirən bəzi qoşmalı sözlər və birləşmələr də cümlədə tamamlıq olur. Məsələn: O, fırça ilə (nə ilə?) şəkil çəkirdi. Sən macəra romanları haqqında (nə barədə?) bir şey bilirsənmi?

Tamamlıq da mübtəda kimi, isim və əvəzliklərlə daha çox ifadə olunur: məsələn: Əjdər Nazimini səslədi.

Sifət, say. işarə əvəzlikləri, zərf və feli sifətlər cümlədə isimləşərək tamamlıq vəzifəsində işlənə bilir; məsələn: Mənim

rəfiqəm qırmızını çox sevir. Müdiriyyət onuncuları mükafatlandırdı. Bunları Adilin atası yollayıb.

Məsdərlər də cümlədə tamamlıq vəzifəsində işlənə bilir; məsələn: Yaşamağı, işləməyi böyüklərdən öyrənirik.

Nitq hissələri ilə ifadə oluan tamamlıqlar quruluşca sadə sayılır.

Mürəkkəb tamamlıqlar ikinci və üçüncü növ təyini söz birləşmələri, feili sifət və məsdər tərkibləri ilə ifadə olunur.

Tamamlıq vasitəsiz və vasitəli olur. Vasitəsiz tamamlıqlar ismin təsirlik halında olur, təsirli fellərlə əlaqələnir və kimi? nəyi? nə? suallanrıdan birinə cavab verir. Məsələn, Fərmanı (kimi?) rayon mərkzinə çağırdılar. Müstafa məktubu (nəyi?) anasına verdi. Nazim məktub (nə?) yazırdı.

Təsirlik hal müəyyənlik və qeyri-müəyyənlik bildirməklə iki cür olduğundan, vasitəsiz tamamlıqlar da iki cür olur:

Müəyyəmlik bildirən vasitəsiz tamamlıqlar.

Qeyri-müəyyənlik bildirən vasitəsiz tamamlıqlar.

Müəyyənlik bildirən vasitəsiz tamamlıqlar müəyyən təsirlik halda olan (təsirlik hal şəkilçili) söz və birləşmələrlə ifadə olunur: məsələn; Bəxtiyar, məni da özünlə apar.

Qeyri-müəyyənlik bildirən vasitəsiz tamamlıqlar qeyri-müəyyən təsirlik halda olan söz və birləşmələrlə ifadə olunur. Tamamlığm bu növü nə? sualına cavab verir. Məsələn, Gəlin, bağlarımızdan gül dərək, çiçək dərək, fəzaları fəth edən igidlərə göndərək. (Ə.C)

Vasitəli tamamlıqlar ismin yönlük, yerlik, çıxışlıq hallarında olan, eyni zamanda ilə, üçün, ötrü, qarşı, haqqında, barəsində qoşmaların qoşulduğu sözlər və birləşmələrlə ifadə olunur, əşya, obyekt bildirir. Tamamlığın bu növü kimə? nəyə? kimdə? nədə? kimdən? nədən? kim ilə? nə ilə? kim üçün? nə üçün? nə barədə? nə haqda? və s. suallardan birinə cavab olur. Məsələn: Rəşidə mühüm bir vəzifə tapşınblar. Səndə gözəl qabiliyyət var. İtkinlər barəsində nə bilirsiniz?

Təyin cümlənin ikinci dərəcəli üzvü olub, isimlə və isimləşmiş sözlərlə ifadə olunan üzvləri müxtəlif cəhətdən izah edir və necə? nə cür? hansi? neçə? nə qədər? neçənçi? suallarından birinə cavab olur.

Təyin əksərən sifət, say, feili sifət və işarə əvəzlikləri ilə ifadə olunur; məsələn. Yaşıl və cavan meşə oyanırdı. (R.S.) Məndən işıq alır min kənd, min şəhər. (S.V.)

İsim və zərflər də atributivləşdikdə (sifətləşdikdə) təyin vəzifəsində işlənə bilir; məsələn: Daş bina yenə əzəmətlə ucalırdı.

Təyin ismi birləşmələr və feiili sifət tərkibləri ilə də ifadə olunur; məsələn: Polis rəisi Kərimov prokurora zəng vurdu.

Cümlədə isimlə və isimləşmiş sözlərlə ifadə olunan bütün üzvlərin təyini ola bilir.

Nitq hissələri ilə ifadə olunan təyinlər sadə, söz birləşmələri ilə ifadə olunanlar mürəkkəb təyinlər sayılır.

Zərflik cümlənin ikinci dərəcəli üzvü olub, hərəkətin icrasını və ya əlamətin meydana çıxmasını müxtəlif cəhətdən izah edir; məsələn: Uşaqlar ucadan danışır, həyətdə oynaşır, dəhlizdə gəzib söhbət edirdilər.

Zərflik əksərən zərflərlə - tərzi-hərəkət, zaman, yer, miqdar zərfləri ilə ifadə olunur. Zərflik yer və zaman mənalı isimlər, feili bağlamalar, qoşmaların artırıldığı isim və məsdərlər, sual əvəzlikləri və s. ilə ifadə olunur. Bu zəifliklərə sadə zərfliklər deyilir.

Mürəkkəb zəfliklər ismi və feili birləşmələrlə ifadə olunur: məsələn, Boz. dağın qoynunda bir dəniz vardır.

Zəifliyin aşağıdaki məna növləri vardır:

Tərzi -hərəkət zərfliyi.

Zaman zərfliyi.

Yer zərfliyi.

Kəmiyyət və ya dərəcə zərfliyi.

Səbəb- məqsəd zərfliyi.

Tərzi-hərəkət zərfliyi işin, hərəkətin icra tərzini bildirir və necə? nə cür? nə tərzdə? nə vəziyyətdə? suallarından birinə cavab verir, tərzi-hərəkət zərfləri, feili bağlama və feli bağlama tərkibləri, qoşmalı sözlər və birləşmələrlə ifadə olunur; məsələn: Gəmi asta-asta sahilə yan aldı. Adam düşünmədən danışmaz.

Zaman zərfliyi işin, hərəkətin, hadisənin zamanını bildirir və nə vaxt? nə zaman? haçan? nə zamanadək? nə vaxtadək? nə vaxta kimi? suallarındam birinə cavab verir, zaman mənalı isimlər, feili bağlama və feli bağlama tərkibləri, ismi birləşmələr və s. ifadə olunur.

Yer zərfliyi işin, hərəkətin, hadisənin yerini bildirir və hara? haraya? harada? haradan? suallarından birinə cavab verir, yer bildirən isimlər, ismi birləşmələr və s. ifadə olunur; məsələn: Oraya nə təhər gəlim? Şəhərdən dünən qayıtmışam.

Kəmiyyət zərfliyi işin, hərəkətin nə qədər, hansı nisbətdə icra oluduğunu bildirir və nə qədər? sualına cavab verir. Zərfliyin bu növü bəzən hərəkət və ya əlamətin dərəcəsini də bildirir və nə dərəcə? suallarına cavab verir. Kəmiyyət zərfliyi miqdar zərfləri, ismi birləşmələr və s. ilə ifadə olunur.

Səbəb-məqsəd zərfliyi hərəkətin və ya əlamətin səbəbini, məqsədini bildirir, niyə? nə üçün? nə səbəbə? nədən ötrü? nəyə görə? nə məqsədlə? süallanna cavab verir və üçün, ötrü, görə qoşmalarının artırıldığı sözlər, birləşmələr, feili bağlama və feili bağlama tərkibləri ilə, ismi birləşmələrlə sual əvəzlikləri, məsdər və məsdər tərkibləri ilə ifadə olunur.

**Cümlənin ikinci dərəcəli üzvlərinə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Mötərizədəki sualların əvəzinə, tamamlıqlar artırıb köçürün. Tamamlıqların nə ilə ifadə olunduğunu deyin.

1. Eldar (nəyi?) (kimə?) göndərdi. 2. Atam (kim üçün?) (nə?) aldı. 3. Biz bu gün (nədə?) iştirak edəcəyik. 4. Məktəblilər ukraynalı (kimə?) (nə?) yazdılar. 5. Biz (nə ilə?) (nə?) doğradıq. 6. Biz (nədə?) (kim üçün?) (nəyə?) qulaq asdıq. 7. Bu (nəyi?)

sizin inşaatçılar tikmişlər.

**Tapşırıq 2.**

Verilmiş feili sifət və məsdorləri, feili sifət və məsdər tərkiblərini cümlələrdə tamamlıq vəzifəsində işlədin.

Yaşamaq, oxuyan, yaymaq, darıxan, dünən kəndə gedənlər, dərslərini yaxşı yazırlayanlar, hər şeyə ciddi yanaşmaq, verilən ev tapşırıqlarını yerinə yetirmək

**Tapşırıq 3.**

Buraxılmış xəbərləri artırmaqla cümlələri tamamlayın. Artırdığınız xəbərlərin təsirli, yoxsa təsirsiz feillərlə ifadə olunduğunu müəyyənləşdirin.

1. Süsən kitabı Süsən kitabdan
2. Ramiz pianonu Ramiz pianonoya
3. Uşaqlar Nazimi Uşaqlar Nazimə

Xəbərlər: çaldı, yaxınlaşdı, oxudu, köçürdü, dedilər, gördülər.

**Tapşırıq 4.**

Verilmiş söz və birləşmələri cümlədə müəyyənlik bildirən vasitəsiz tamamlıq vəzifəsində işlədib yazın.

Kitab, təyyarə, skafandr, Bakı nefti, sinif rəhbəri, dərs kitabları.

**Tapşırıq 5.**

Oxuyun, əvvəlcə baş üzvləri, sonra tamamlıqlan tapıb göstərin. Tamamlıqlann vasitəsiz və ya vasitəli olduğunu izah edin.

Yağış komamızı uçurur. 2. Evlərin divarı çiy kərpicdən hörülmüşdür. 3. Şair kəndlilərlə bu bağçada söhbət edərdi. 4. Mən vətənin böyüklüyünü, cəlalını duyuram. 5. Sement verin! Beton tökün! Qaçırmayın Kürü gözdən! 6. Adamlar gölə baxmaqdan, gül-çiçək toplamaqdan doymurdular. 7. Dur, əhvalatı sənə danışım. 8. Onu əvvəlcə özündən soruş! 9. Bunun qonaqlığı sən deyəndən olmayıb. 10. Vüqarın sadə məntiqi İsməti susmağa məcbur etdi.

**Tapşırıq 6.**

Verilmiş sözləri və söz birləşmələrini təyin vəzifəsində işlətməklə cümlələr qurub yazın. Gözəl, şair, çoxlu, belə, hansı, uçuşan, alınmış, məktəb müdiri, iclasın sədri, dünən bizə xəbər gətirən, mənim sizə yazdığım, bu günlərdə Qubaya gəzməyə göndəriləcək.

**Tapşırıq 7.**

Verilmiş nöqtələrin yerinə müvafiq təyinlər artırıb köçürün. Təyinlərin altından dalğalı xətt çəkin.

1. O dar cığırların yerinədə ... bir yol gördü. 2. Uşaqlar ... Göy gölə səyahətə hazırlaşırdılar. 3. Bu, ... Nizami muzeydir. 4. Biz ... qonaqları təntənə ilə qaşıladıq. 5. ... Eldarov işçilərə ... tapşırıq verdi. 6 Məktubu hamımız böyük maraqla oxuduq. 7. ... adam ... çarpayıda uzanmışdı.

**Tapşırıq 8.**

Oxuyun, nə qədər? nə dərəcədə? niyə? nə üçün? nədən ötrü? suallarına cavab verən zərflikləri tapıb göstərin, ifadə vasitələrini və quruluşca növünü izah edin.

Vaqon olmadığı üçün maşınlarla hərəkət edirdik. Ramazan o gecə Xumar xala haqqında çox düşündü. Əməlin dediklərindən nəticə çıxarmaq üçün hökmdar vəzir-vəkilə göstəriş verdi. A bala, Gülzardan mənə o qədər danışmısan ki .... arvad asfalt səkiyə keçmək üçün balaca cığıra düşdü. O özünü son dərəcə xöşbəxt sayırdı. Xumar xala gözlərini bir nöqtəyə zilləyib xeyli baxdı. Əhməd artıq dərəcədə həyacanlı idi. Biz tamamilə yorulmuşduq. Eh, Xumar xala, hələ səninlə o qədər yaxşı günlər keçirəcəyik ki.

**Tapşırıq 9.**

Verilmiş sözləri və birləşmələri cümlədə zaman zərfliyi vəzifəsində işlədib yazın.

İndicə, həmişə, dünən, axşamçağı, axşamüstü, səhərə yaxın, payız, axşam, yay, qış. oxuyarkən, dan yeri ağarmamış, ilin əvvəllərində.

**Tapşırıq 10.**

Verilmiş sözləri və birləşmələri cümlədə yer zərfliyi

vəzifəsində işlədin.

Bura, irəli, içəri, aşağı, yuxan, ev, məktəb, Bakı, bağ, çayın kənarı, meşənin ortası.

**Tapşırıq 11.**

Verilmiş sözləri və birləşmələri cümlələrdə kəmiyyət zərfliyi vəzifəsində işlədin.

Xeyli, bir qədər, az- çox, tamamilə, çox-çox, az-az, o qədər, yüz faiz, artıq dərəcədə, o dərəcədə, həddindən çox.

**Tapşırıq 12.**

Verilmiş sözləri və birləşmələri cümlələrdə səbəb zərfliyi vəzifəsində işlədin.

Yatdığı üçün, işə gecikdiyi üçün, dostları ilə görüşə getdiyinə görə, nə səbəbə, kimin sayəsində.

**Tapşırıq 13.**

"Azərbaycanın görkəmli sair və yazıçıları" mövzusunda mətn tərtib edin və planını tutun.

## CÜMLƏ ÜZVLƏRİNİN ƏLAVƏSİ

Cümlədə özündən əvvəlki üzvün mənasını izah edən, konkretləşdirən sözə və ya söz birləşməsinə əlavə deyilir.

Bütün cümlə üzvlərinin əlavəsi olur. Mübtədanm əlavəsi mübtədanın, xəbərin əlavəsi isə xəbərin mənasım konkretləşdirmək, izah edib aydınlaşdırmaq üçün işlədilir, məsələn: Yaşasın səadət - o yaz səhəri.

Dilimizdə tamamlıq və zərfliyin əlavələri də işlədilir.

Əlavələr izah etdiyi sözlərdən tire (-) ilə ayrılır.məsələn: Fikrim dənizə - Xəzərə yönəldi. Lakin bəzən əlavədən əvvəl vergül qoyulur; məsələn: dünən, mayın 17-də bütün parom və baıjları təhvil verdik.

Əlavədən əvvəl, yəni bağlayıcı işləndikdə də vergül qoyulur;

Cümlə üzvlərinin əlavəsinə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Köçürün, əlavələri tapın altından xətt çəkin, buraxılmış durğu işarələrini artırın.

1. Ə.Ələkbərov o görkəmli səhnə xadimi hamının sevimlisi idi. 2. Əhməd Quliyev bizim sexin rəisi işçiləri təbrik etdi. 3. Arif Nəzərli yeni inspektor yaxşı bir məruzə hazırlamışdı. 4. Məhsul olmayanda yeni sex vaxtında mal almayanda rəisin qanı qaraldı. 5. Qoy var olsun Azərbaycan Odlar yurdu ana vətən! (S.V) 6. Kürd Əhməd həmin günü yəni avqustun 7-də Təbrizdən Tehrana yola düşdü. (M.İ.) 7. Qarı həmin yerində cecimin üstündə yatmağındadı. 8. Bir azdan orda Gülgəzin dayandığı yerdə başqası dayanmışdı. (İ.H.)

**Tapşırıq 2.**

Köçürün, mötərizədə verilmiş sözləri əlavə kimi işlədin.

1. Aşağıdan (evlər idarəsinin balaca klubundan) müsiqi səsi gəlirdi. 2. Tofiq (o şirindil oğlan) o gün qələbə bayrağı kimi əllərdən düşmədi. 3. Ana, on dörd gündən sonra bayramdır (martın 21-dir.) 4. Hər səhər onun atası qaymağı sahibinə (Məşədi Möhsünə) çatdırırdı. 5. Səmədin sol çiyninin dalında gözlüklü ilan (kobra) başı dikəlmişdi. 6. Yanıq divarların bərabərində (orta yolun sağında) Əlləzoğlunun evinin qamış damı bozarırdı.

**Tapşırıq 3.**

Oxuyun, cümlələrə aşağıda verilmiş əlavələrdən müvafiq olanını artınb köçürün.

Hacı da qubernatorun köməkçisinə bir şikayət məktubu yazdırdı. Ayın iyirmi iksində gecə yola düşdük. Qızlardan biri musiqi dərnəyinə yazılmışdı. Yenə yanaşı addımlamağa başladılar. Qoşa çarpayı kibrit çöpunun düşdüyü yerdə idi. Xalıq da oturub orda.

*Əlavələr*: Təbrizdə, qoşa, yəni şər qarışanda, divarın dibində, vəznəlik şiyə, dilli dilavər balaca Nərgiz.

# HƏMCİNS ÜZVLÜ CÜMLƏLƏR

Eyni üzvlə bağlı olub, eyni suala cavab verən bərabər hüquqlu sözlərə həmcins üzvlər

Tərifdən göründüyü kimi, həmcins üzvlər cümlədə eyni bir üzvə aid olur, eyni bir suala cavub verir; məsələn, Biz həm işləməli, həm də oxumalıyıq. Həmcins üzvləri bir-biri ilə ya təkcə nidalama intonasiyası, yaxud da intonasiya və tabesizlik bağlayıcıları ilə əlaqələnir. Cümlənin bütün üzvləri həmcins ola bilir. Və, ilə bağlayıcıları ilə bağlanan həmcins üzvlərdən başqa digər həmcin üzvlər arasında vergül qoyulur. Həmcins üzvləri əlaqələndirən tabesizlik bağlayıcıları mənaca beş qrupa ayrılır:

1. Birləşdirmə bağlayıcıları; və, ilə (-la, -lə) məsələn: Ayaz Murovun ətrafındakı dərələrə və təpələrə baxırdı.

**Qeyd**: Və bağlayıcısını ilə qoşması ilə qarışdırmamalı. İlə bağlayıcı kimi işləndikdə "və" bağlayıcısı ilə əvəz oluna bilir.

2. Bölüşdürmə bağlayıcıları: ya, ya da, və ya, yaxud da, gah, gah da, məsələn: Akif bu il ya aliməktəbə, ya da (yada ki, yaxud da) texnikoma daxil olacaqdır.

3. İştirak bağlayıcıları: həm, həm də, (həmdə ki), hətta, da, də; məsələn, Silah da, məşəl də, güc də bilikdir.

4. İnkar bağlayıcıları: nə. nə də (ki); məsələn: Səkinə zahirən nə Pərişan kimi narahat, nə də Rüstəm kimi acıqlı idi.

Misallardan göründüyü kimi, həm, həm də, həm dəki; da (də); ya, ya da, ya da ki, gah, gah da, gah da ki; nə, nə də, nə də ki təkrarlanan bağlayıcılardır.

5. Qarşılaşdırma bağlayıcıları: amma, lakin, ancaq; məsələn: Mən qızın gözəl səsini eşidirdim, lakin nə söylədiyini ayıra bilmirdim.

Həmcins üzvləri bağlayan amma, ancaq, lakin qarşılaşdırma bağlayıcılarından əvvəl vergül qoyulur; məsələn: Bəzən dalğalar sahili döyəcləyir, amma (ancaq, lakin) tufan zamanı çatdığı nöqtəyə heç yaxın da gələ bilmir.

Həm-həm də, nə - nə də, ya - ya da, gah - gah da

bağlayıcılan ilə bağlanan həmcins üzvlər də təkrar olunan bağlayıcılardan əvvəl vergül qoyulur.

Həmcins üzvlərin hamısına aid olan və onlan ümumiləşdirən cümlə üzvü ümumiləşdirici söz adlanır, məsələn: Hər tərəfdə suda, quruda, uzaqda, yaxında zenit topları səs-səsə verdi.

Ümumiləşdirici sözlər həmcins üzvlərdən həm əvvəl, həm də sonra işlənə bilir.

Ümumiləşdirici söz həmcins üzvlərdən əvvəl gələrsə ondan sonra iki nöqtə qoyulur, məsələn: Bu axının içərisində hər cür adam: fəhlə, kəndli, tacir, ruhani, ziyalı, xırda alverçi tapmaq olardı. (M.İ.)

Ümumiləşdirici söz həmcins üzvlərdən sonra gələrsə ondan əvvəl tire işarəsi qoyulur; məsələn: Qadın, kişi, qoca, cavan - hamı tarlada idi.

**Həmcins üzvlərə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Oxuyun, həmcins üzvlü cümlələrdə hansı üzvlərin həmcins olduğunu, həmin üzvlərin hansı üzvlə bağlı olduğunu və lıansı suala cavab verdiyini söyləyin.

Zəmilərdən qalxan nəmli torpaq qoxusu havaya bir təzəlik, mülayimlik gətirmişdi. Buludlu göy intizar çəkən bir qəlb kimi çırpınır, bir an da eyni vəziyyətdə qalmırdı. Cida boyu qalxan günəş cənuba axan müxtəlif biçimli, müxtəlif şəkilli buludlar arasında gah çıraq kimi yanır, gah köz kimi sönür, gah kəhraba kimi saralır, gah sədəf kimi parıldayırdı. Karvan-karvan ötən buludların ardınca nəsə bir aydınlıq olacağı yəqin idi. Aşağılarda baş-başa verən söyüd, iydə, zoğal ağadan küləyin səmtinə doğru can atmaqda idi.

**Tapşırıq 2.**

Buraxılmış durğu işarələrini artırmaqla köçürün. Həmcins üzvləri müəyyənləşdirib altından xəttini çəkin.

Yuxusunda da o, meşələri dağlar dərələri görür gah dovşan gah kəklik gah da ceyranlarla oynayırdı. Bütün

qab-qacağı bütün ləmələri döşəməni və tavanı yuyacaq silib-təmizləyəcəklər. İsgəndərlə Gülbahar Cəlal ilə Humay Vaqif ilə İldırım təqlid edilməyə layiq qəhrəmanlardır. Mən ağılsız bir söz danışanda dərslərimə pis baxanda şuluqluq eləyəndə anam hamıdan çox inciyir ürəyinə salıb fikir eləyirdi. Vətən sevgisi xalq məhəbbəti övlad eşqi bu qəhrəmanlardakı ülviliyi qat-qat artırır.

**Tapşırıq 3.**

Oxuyun, bağlayıcı ilə bağlanan həmcins üzvləri göstərin, bağlayıcıların növünü göstərin. Rüstəm kişi yenə boz ata mindi və maldarlıq fermasına sürdü. Ata yerdən qalxmağa təşəbbüs etdi, lakin bacarmadı. Yer də, su da meşə də indi bizim əlimizdədir. Xoşbəxtlikdən bu gün nə Rüstəm kişi nə Şirzac, nə də Salman gəlmişdir. O gah tikanlıqda təmiz itən, gah da az qala atın ayağına düşən Şahnigann ağaran paltarından başqa, heç nəyi görmürdü. Xanımgilə gəldiyi gündən həm evin səliqəsinə həm də burada yaşayan adamların xasiyyətinə bələd olurdu. Mən ya onu, ya da Zabitəni itirməli idim.

**Tapşırıq 4.**

Sərbəst mətn tərtib edin.

**Tapşırıq 5.**

Oxuyun, ilə sözünün hansı cümlələrdə qoşma, hansılannda bağlıyıcı olduğunu söyləyin. Kür uğultu ilə axırdı. (I.Ş.) Quşlar pırıltı ilə onun ayağının altından qalxırdı. (l.Ş.) Bəhram ilə Zərəfşan bizi nahar süfrəsinə dəvət etdilər. (R. S.) Azər ilə Cəmil çoxdan dostlaşmışdılar. Onlar şaxları əlləri ilə kənar edirdilər. “Qılınc” ilə “Qələm” rəmzi, məcazi adlardır.

**Tapşırıq 6.**

Və, amma, da, də, həm, həm də, nə, nə də bağlayıcılannı işlətməklə həmcins üzvlü cümlələr qurub yazın. Buraxılmış durğu işarələrini artırıb və bağlayıcılann növünü müəyyən edib köçürün.

Xanım bu sirrdən gərək onlar və ya başqa adam nə indi nə də

sonra xəbərdar olmasın! Bir yeni rəng alır Mil də Muğan da. Çayın şınltısı həm uzaqda çalınan ney səsinə qarışır həm də ahəngdar bir şəkildə onunla birləşir. O, Xumar xala ilə Ramazanın xəyali anası arasında oxşarlıq görürdü.

**Tapşırıq 7.**

Oxuyun, ümumiləşdirici sözləri və həmcins üzvləri göstərin.
Arvad, kişi, qoca, cavan - hər kəs bacardığını eləyir, əlindən gələni əsirgəmirdi. (Ə.V.) Uzun illərin vərdişi onu yenə hər şeydən: ən ağır cansıxıcı düşüncələr də, intizar və kədərlərdən ayıraraq dəftər-qələmə sarı gətirdi. Hər ikisi: nənə və nəvə dərhal evdən çıxdılar. Gözəl bağlar, gözəl çəmənlər, gözəl sular - bunlar təbiətin vəsaiti-ilhamıdır.

## SADƏ CÜMLƏNİN NÖVLƏRİ

Baş üzvlərin iştirakına görə sadə cümlənin iki növü vardır. Cüttərkibli cümlələr, təktərkibli cümlələr.

Hər iki baş üzvün iştirakı ilə qurulan cümlələrə cüt tərkibli cümlələr deyilir. İkinci dərəcəli üzv lərin iştirak edib-etməməsinə görə cüttərkibli cümlələr müxtəsər və ya geniş olur. İkinci dərəcəli üzvləri olmayan cüttərkibli cümlələr müxtəsər, ikinci dərəcəli üzvlər iştirak edən cüttərkibli cümlələr geniş olur Məsələn: Göylər guruldadır. Dağlar onun gözəlliyinə heyran qaldı.

Baş üzvlərin biri əsasında qurulan sadə cümlələrə təktərkibli cümlələr deyilir. Təktərkibli cümlələr iki növə ayrılır. Xəbər əsasında fomıalaşanlar, mübtəda əsasında formalaşanlar.

Xəbər əsasında formalaşan təktərkibli cümlələrə şəxssiz, qeyri-müəyyən şəxsli, ümumi şəxsli cümlələr, mübtəda əsasında formalaşanlara isə adlıq cümlələr daxildir. Dilimizdə elə cümlələr var ki, onlann mübtədası olmur və eyni zamanıda belə cümlələrdə mübtəda təsəvvürü qeyri-mümkündür. Məsələn: Çən, çiskin idi.

Mübtədası olmayan və onun təsəvvür edilməsi qeyri-mümkün olan təktərkibli cümlələrə şəxssiz cümlələr

deyilir. Şəxssiz cümlələrin xəbəri üçüncü şəxsin təkində olur. Məsələn: Axşamdır. Səssizlikdir. Kənddə toydur. Bəzən şəxssiz cümlələrin xəbəri feili frazeoloji vahidlərlə ifadə olunur; Məsələn: Cavanşirin ona yazığı gəldi.

Hərəkət və hökmün qeyri-müəyyən şəxsə aid olduğunu bildirən təktərkibli cümlələrə qeyri-müəyyən şəxsli cümlə deyilir; məsələn: Bizi hərbi hissəyə gətirdilər.

Qeyri-müəyyən şəxsli cümlələrin bir qismində elə bil, elə bil ki, sanki, deyəsən, guya ki, və s. sözlər işlənir və belə cümlələrdə icraçı qeyri-müəyyən deyil, qeyri-real olur - yəni bu cür cümlələrdə işin real icraçısı olmur; məsələn: Elə bil (elə bil ki. deyəsən, sanki), Qəmərin başına bir vedrə qaynar su tökdülər.

Qeyri-müəyyən şəxsli cümlələrin xəbəri III şəxsin cəmində olur.

Hərəkət və hökmün eyni zamanda hamıya aid olduğunu bildirən təktərkibli cümlələrə ümumi şəxsli cümlə deyilir; məsələn: Palaza bürün, elnən sürün. Nə əkərsən, onu biçərsən.

Ümumi şəxsli cümlələr ümumiləşmiş mənalar ifadə edir, ona görə də belə cümlələr əksərən atalar sözləri və məsəllərdən, hikmətli sözlərdən ibarət olur.

Əşyanın, hadisənin adını çəkməklə onun mövcudluğu haqqında məlumat verən təktərkibli cümlələrə adlıq cümlə deyilir; məsələn: Qışın ortalan. Qar. Çovğun... Kəndin kənarında səfalı bir yer. Adlıq cümlələr vasitəsi ilə hər hansı bir hadisənin danışılan vaxtda mövcud olduğu bildirilir, lakin cümlənin xəbəri olmadığından həmin hadisə haqqında əlavə məlumat və ya hökm verilmir. Adlıq cümlələr ən çox bədii əsərlərdə, şer və nəsrdə, qəzet və jurnal məqalələrində işlədilir. Adlıq cümlələr insanın həyacan və düşüncələrini yığcam və təsirli etmək üçün ən yaxşı vasitələrdəndir.

Bir və ya bir neçə üzvü buraxılan, lakin asanlıqla bərpa edilən cümlələrə yanmçıq cümlələr deyilir. Yanmçıq cmlələrdə buraxılmış üzvləri əvvəlki cümlələrin köməyi və ya nitq şəraiti

ilə asanlıqla bərpa etmək olur.

Fikrin ifadəsi üçün lazım olan bütün üzvlərin bilavasitə iştirak etdiyi cümlələrə bütöv cümlələr deyilir. Bütün cüttərkibli və təktərkibli cümlələr bütöv cümlələrdir.

Sadə cümlənin növünə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Oxuyun, cüttərkibli cümlələri seçib yazın.

1. Kimsə küçə ilə tələsik keçir. Patrul qışqırır. Yolçu dayanmır. Avtomat dillənir. 2. Gecədir. Hər tərəf qar. Uzaqda çənli dağlar. 3. Dəniz fırtınalıdır. Külək əsir. Biz körpü tikirik. 4. Xəzərin sahili. ... Gecəyarıdır. ... həmdəmim yurdumun insanlandır. 5. Biz çardaqda oturmuşduq. Birdən şirin bir musiqi axıb gəldi. 6. Xançoban sıldırım bir qaya başında oturub tütək çalırdı. Yamaca yayılmış qoyunlar başlarını sallayıb onu dinləyirdilər.

**Tapşırıq2.**

Qoxuyun, cümlələri müqayisə edin. Hansı cümlələr cüttərkibli müxtəsər, hansılar genişdir?

| | |
|---|---|
| Külək əsir | Şiddətli külək əsir |
| Lalə titrəyir | Lalə soyuqdan titrəyirdi. |
| Yağış yağırdı | Dünən axşamdan başlayan yağış yenə ara vermədən yağırdı. |
| Ev görünürdü | Cavan çinar ağacları ilə əhatə olunmuş ev uzaqdan aydın görünürdü. |

**Tapşırıq 3.**

Oxuyun, verilmiş cümlələrin təktərkibli olduğunu əsaslandırın.

1. Bir dəfə gecəyarısı kəndə hay düşdü. 2. Mənə so…uqdu. 3. Bakı ... Dəniz sahili... Qağayılar... 4. Onlara təzə binada ev verdilər. 5. Qaranlıq gecə idi. 6. 1905-ci ilin baharı idi. 7. Fabrik söhbətindən çoban Vəlinin ağlı bir şey kəsmədi. 8. Deməli, bizim gözümüz baxa-baxa camaatı soyurlar? 9. Bərkdən-boşdan çıxan kadrları hər yerdə əziz tuturlar.

**Tapşırıq 4.**

Oxuyun, şəxsli cümlələri müəyyənləşdirib, müxtəsər və ya geniş olduğunu söyləyin.

Ağalar! Xanımlar! Dostlar! Bu gün şəhərimizin həyatında şərəfli və tarixi bir gündür. 2. O zaman afır idi. Mən sizə qonaq gəlmişdim. 3. Günün batabat zamanı idi. 4. Cahan ağanın qayıdan vaxtıdır. 5. Səfərqulu bəyin ağlı başına gəlmişdir. 6. Qan fışqınb divarları qırmızı rəngə boyayanda aşağıda Səkinə arvadın, yuxarıda Hürünün ürəyi getdi.

**Tapşırıq 5.**

Oxuyun, qeyri-müəyyən şəxsli cümlələri tapıb göstərin.

Nə isə, məsələni qoydular mənim boynuma, dedim bəs dodaqlarımdan qıfıl asdılar. (B.B.) Bərkdən-boşdan çıxan kadrları hər yerdə əziz tuturlar. (M.C.) Nəriman gözlərini ağır-ağır açdı. Sən razı olarsan, mənim haqqımda pis danışsınlar? (M.l.) Bizi bu gün tezdən qaldırdılar. (l.Ş.) Deyirlər çeşmədə qaynayan bu su Nakam aşiqlərin göz yaşlarıdır. (S.V.)

**Tapşırıq 6.**

Oxuyun, adlıq cümlələrin qrammatik əsasını göstərin və onun nə ilə ifadə olunduğunu söyləyin.

Məktəb! Şirin duyğularla və sevinclərlə dolu aylar. 2. Tikilməkdə olan evin birinci mərtəbəsi. Səliqəsizlik. 3. Tikinti idarəsi. Böyük pərdənin dekorasiyası. 4. Pərdə qabağı. Sol tərəfdə telefon butkası, sağda ağac və skamya. 5. Təlaş... Ölənlər və yarananlar... Zavodun idarəsi. Qəbul otağı.

**Tapşırıq 7.**

Oxuyun, adlıq cümlələrin şeir dilində roluna diqqət yetirin.

Payız... Sərin-sərin əsir küləklər.
Təbiət üzləşir qəmlə, kədərlə.
Gecə... Bir qaraltı... Zil qara gecə...
Gözlərdə ehtiras... Alınlarda tər...
Onları, elə bil sıxır gen küçə.
Gecə... Bir qaraltı... Bir qara fikir,
Özgə qazanına uzanan dörd əl.

Nəğmələr... Oxuyur qız da, oğlan da.
Axşam... Göy fikirli... Dəniz nigaran...
Ayrılıq... Qövr edir qəm də, kədər də.
Orta əsrlərdən qalma bir saray...
Yan-yana düzülmüş burda salonlar.

**Tapşırıq 8.**

Oxuyun, yarımçıq cümlələri tapıb göstərin və onları əvvəlki cümlələrə əsasən bütöv cümlələr şəklinə salın.

1.Bişirdiyin nədir? - Düyü. 2. Adam sevindiyindən aglayarmı, ana? - Ağlayar, oğlum ağlayar. 3. Nə istəyirsən, xala? - Oğlumu. 4. Ana, Savalan yanır? - Yanır? - Yanır, bala, yanır. 5. Siz nə üçüin mənə belə suallar verirsiniz? - Gələcək taleyinizlə maraqlandığıma görə. 6. Əhməd lələ, kənddən nə vaxt qayıdırsan? - Sabah. 7. İdarədə daha kim olub? - Daha heç kim. 8. Bu oğlan kimdir? - Mənim dostumdur.

## QRAMMATİK CƏHƏTDƏN CÜMLƏ ÜZVLƏRİ İLƏ BAĞLI OLMAYAN SÖZLƏR

Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərin hamısı cümlə üzvü olmur. Xitab və ara sözlər belələrindəndir.

Cümlədə müraciət olunanı bildirən sözlərə xitab deyilir. Məsələn: Qızım, hər gecənin bir gündüzü var.

Xitab, adətən, insana aid sözlərlə ifadə olunur. Çünki bir qayda olaraq, insana müraciət edilir, insanla danışılır. Başqa canlılara da, hətta cansız əşyalara da xitab olunur. Belə xitablar bir qayda olaraq, bədii dildə, xüsusən şerdə işlənir. Məsələn: Dolaşma sıldırım, sal qayalarda, Daşlar ayağını əzər, maralım! Salam a gədiklər, salam, a dağlar!

Xitab ismin adlıq halında olur və bu cəhətdən mübtədaya oxşayır. Lakin xitab xüsusi intonasiya ilə deyilir və fasilə ilə cümlənin başqa hissələrindən ayrılır. Xitab cümlənin hər yerində, yəni əvvəlində, ortasında və axırında işlənə bilir.

Cümlənin əvvəlində işlənən xitabdan sonra intonasiyadan asılı olaraq, vergül, ya nida işarəsi, cümlənin ortasında işlənən xitabın hər iki tərəfində vergül, cümlənin sonunda işlənən xitabdan əvvəl vergül, xitabdan sonra isə cümlənin tələbinə uyğun olaraq hər hansı bir işarə qoyulur. Xitab ayn-ayrı sözlərlə də, söz birləşmələri ilə də ifadə oluna bilər. Xitablar ey, ay, a, heç kimi köməkçi vasitələrlə də istifadə olunur. Belə vasitələr hər hansı bir sözün xitab olmasına kömək edir.

Ara sözlər danışanın ifadə etdiyi fikrə münasibətini bildirir. Ara sözlər ya ayn-ayrı sözlər, ya söz birləşmələri, ya da cümlə şəklində olur.

Ara sözlərin aşağıdakı məna növləri var.

1.Yəqinlik bildirənlər: Əlbəttə, şübhəsiz, həqiqətən, düzü, doğrudan da, yəqin ki, doğrusu.

2.Güman və şübhə bildirənlər: Bəlkə, bəlkə də, güman, güman ki, deyəsən, ehtimal, ehtimal ki, olsun, olsun ki, görəsən, görünür, olmaya.

3.Fikrin mənbəyini, kimə aid olduğunu bildirənlər: Məncə, bizcə, mənə görə, sənə görə... deyilənə görə və s.

4.Nəticə bildirənlər: Nəhayət, beləliklə, deməli, demək, xülasə, qısası, əwala. əvvələn, əksinə, birincisi, ikincisi və s.

5.Təəssüf bildirənlər: Heyif, heyi ki, təəssitf, çox heyif, çox heyif ki.

## Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərə aid çalışma nümunələri:

**Tapşırıq 1.**

Müxtəsər və geniş xitabların hərəsinə aid üç misal yazın, (nəzərə alın ki, geniş xitablarda müxtəsər xitablardan fərqli olaraq, təyin də olur).

*Nümunə*: Dost, haradan gəlirsən? (müxtəsər xitab)

Əziz dost yalnız sənə etibar edirəm. (geniş xitab)

**Tapşırıq 2.**

Köçürün, eyni sözlərlə ifadə olunmuş mübtədalarla xitabları

fəqləndirin.

a) Gör necə qovuşur, yollara yollar,
Siz necə gözəlsiz, yollar a yollar. (N.X.)
Burdan Vaqif ötmüş, Vidadi keçmiş,
Gərək ki onları tanıya yollar.
Onların izləri hanı, a yollar? (N.X.)

**Tapşırıq 3.**

Dostlar, müəllim, cavanlar sözlərini həm mübtəda, həm də xitab kimi işlədin.

**Tapşırıq 4.**

Ara sözləri göstərin. Hər bir ara sözün cümlənin məzmunu ilə əlaqədar ifadə etdiyi münasibəti aydınlaşdırın.

Peyğəmbərə itaət edən şəxs, şübhəsiz ki, allaha itaət etmiş olur. Ey ağıl sahibləri, Allahdan qorxun ki. bəlkə, nicat tapasınız. Ey insanlar! Yer üzündəki şeylərin təmiz və halal olanlarını yeyin. Şeytanın izi ilə getməyin! Həqiqətən Şeytan sizinlə açıq-açığına düşməndir. Əlbəttə, Allah hər şeyə qadirdir. ("Qurani Kərim"dən).

**Tapşırıq 5.**

Mətni köçürün, ara sözlərin altından xətt çəkin.

-Səncə, bu gövdəli, qollu-budaqlı palıd nəyə görə yerə yıxılıbdır?

-Yəqin ki, bu gecə güclənən küləyə görə.

-Axı, niyə külək illər uzunu əzəmətli olan palıdı tərpədib yıxmadı. Ancaq bu gecə yıxa bildi. -Yəqin ki, palıdın kökü-kötəci çürüyübmüş.

-Kökü- köməci göz qabağında deyilmi? Baxsan görərsən ki, heç bir çürüklüyü yoxdur. Görünür, sirri dərindədir.

-Necə dərindədir?

-Gövdənin içindədir.

-Axı, belə baxanda bu nəhəng tamam sapsağlamdır.

-Elə bu sapsağlamıq, bu nəhənglik onu lovğalandırıbdır. Özü görkəminə aludə olub, bu dağın ətəyində çox qürrələnibdir.

-Demək, belə bir gövdənin öz içindən heç xəbəri

olmayıb?

-Bax, yıxılışı belə böyük bir ərazini tutan palıq öz içində kiçik böcəyin necə olduğunu saya hesaba almayıbdır.

-Demək, palıd öz içində düşmən yatdığını bilməyibdir.

-Bilsə də, fikirləşib ki, bu balaca böcəkcik nəçidir. Qoy cəhənnəm olsun, sıxıla-sıxıla, canı çıxı-çıxa mənim mərhəmətim sayəsində yaşasın.

-Görünür, daha bu balaca böcəyin bir gün dəhşətli qurda - iti dişli canavara çevriləcəyini anlamayıbdır.

## SÖZ CÜMLƏLƏR

Dilimizdə elə cümlələr var ki. onlar üzvlənmir, yəni belə cümlələrdə baş və ya ikinci dərəcəli üzv göstərmək mümkün deyil. Üzvlənməyən cümlələr içərisində söz cümlələr daha çox diqqət cəlb edir.

Bir sözdən ibarət olub üzvlənməyən cümlələrə söz-cümlə deyilir.

Bəli, xeyr, yox, əsla ədatlan təklikdə işlənərək bütöv bir cümləni əvəz edib söz - cümlə olur; məsələn: Sən də onu axtarırdın? - Bəli

Bəzi modul sözlər də. məsələn: əlbəttə, bəlkə də. şübhəsiz, şəksiz, yəqin ki, sözsüz, əsla və s. söz -cümlə kimi işlənə bilir.

Söz -cümlələrdən sonra, adətən, nöqtə, nida, üç nöqtə, az hallarda sual işarəsi qoyulur.

### Söz cümlələrə aid çalışma nümunələri

**Tapşırıq 1.**

Oxuyun, söz - cümlələri müəyyənləşdirin. Hansı nitq hissələrinin söz cümlə kimi çıxış etdiyini söyləyin.

1.Sən ona dedin, kişi özünü öldürüb? - Bəli, xanım. 2. Təzə ev almısan? - Hə. 3. Bilmirsən, bu nə mahnı idi. Zaur? - Yox. 4. Bura Ağayevanın evi deyil? - Xeyir, bala 5. Ziyadxanı tanıyırsan? - Yox. 6. Bu vaxt orada niyə durmusan? Heç. 7.

Medal istəyir? - Qətiyyən. 8. Səni özfəaliyyət dəməyinə yazacayıq. - Hay? 9. Bəs niyə özünü bu kökə salmısan? - Əh! 10. Sizi məhkəmə məsuluyyətinə cəlb edərlər... - Eh, ay müəllim! 11. Veysəl orada başına adam cəlb edib, mənə quyu qazmır ki? Xeyr, əsla! 12. Sənədləri verin qol çəkim. Baş üstə! 13. Şer xoşuna gəldimi? - Əlbət ki.

**Tapşırıq 2.**

Yazın və orfoqrafiya lüğəti ilə yoxlayın.

Giley?güz..r> a..toqələm, bərabər?yanlı, bir?m..torlu, boy?aboy, bəy..nnamə, mü..ffəqiyyət qazanmaq, f..aliyyətə başlamaq, prinsip..al məsələ.

## MÜRƏKKƏB CÜMLƏ

İki və daha artıq sadə cümlənin birləşməsindən ibarət olan cümlələrə mürəkkəb cümlə deyilir. Mürəkkəb cümlə öz quruluşuna görə sadə cümlədən fərqlənir. Sadə cümlənin bir, mürəkkəb cümlənin iki və daha artıq qrammatik əsası olur.

Mürəkkəb cümləni təşkil edən sadə cümlələrin ya hamısı bərabər hüquqlu olur, yaxud da tərkib hissələrindən biri qrammatik cəhətdən müstəqil, digəri ondan asılı olur.

Mürəkkəb cümlələr iki növə ayrılır: 1) tabesiz mürəkkəb cümlələr, 2) tabeli mürəkkəb cümlələr.

Bərabər hüquqlu sadə cümlələrin birləşməsindən əmələ gələn mürəkkəb cümləyə tabesiz mürəkkəb cümlə deyilir.

Tabesiz mürəkkəb cümlənin tərkib hissələrini əlaqələndirmək üçün aşağıdakı bağlayıcılardan istifadə edilir.

1. Birləşdirmə bağlayıcı sı: və.
2. Qarşılaşdırma bağlayıcılan: amma, ancaq, lakin.
3. İştirak bağlayıcılan: həm, həm də (ki), hətta, da, də.
4. İnkar bağlayıcılan: nə, nə də, nə də ki.
5. Bölüşdürmə bağlayıcılan: ya, ya da, gah, gah da, istər, istərsə də və s.
6. Aydınlaşdırma bağlayıcılan: yəni, məsələn və s.

Tabesiz mürəkkəb cümlələrin tərkib hissələri arasında

aşağıdakı məna əlaqələri mövcüddür:

1. Zaman əlaqəsi.
2. Ardıcıllıq əlaqəsi.
3. Səbəb - nəticə əlaqəsi.
4. Aydınlaşdırma əlaqəsi.
5. Qarşılaşdırma əlaqəsi.
6. Bölüşdürmə əlaqəsi.

Zaman əlaqəli tabesiz. mürəkkəb cümlələrin tərkib hissələrində eyni zamanda baş verən hadisələr sadalanır.

Ardıcıllıq əlaqəli tabesiz, mürəkkəb cümlələrin tərkib hissələrində müəyyən ardıcıllıqla baş verən hadisələr sadalanır.

Səbəb - nəticə əlaqəli tabesiz mürəkkəb cümlələrdə birinci tərkib hissədəki iş səbəbi, ikinci tərkib hissədəki iş onun nəticəsini bildirir.

Aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə tərkib hissələrdən biri o birinin ifadə etdiyi fikri aydınlaşdırır.

Qarşılaşdırma əlaqəli tabesiz cümlələrin tərkib hissələrindəki iş və hadisələri bir - biri ilə qarşılaşdırılır.

Bölüşdürülmə əlaqəli tabesiz mürəkkəb cümlələrdə tərkib hissələrindəki iş və hadisələr ya növbə ilə bir - birini əvəz edir, yaxud da iki və daha artıq işdən yalnız birinin mümkünlüyü ifadə olunur.

Tərkibindəki sadə cümlələrdən biri qrammatik cəhətdən digərinə tabe olan mürəkkəb cümləyə tabeli mürəkkəb cümlə deyilir.

Tabesiz mürəkkəb cümlələrdən fərqli oluraq, tabeli mürəkkəb cümlələri əmələ gətirən sadə cümlələrdən biri qrammatik cəhətdən müstəqil, digəri ona tube olur. Tabe edən hissə baş cümlə, tabe olan budaq cümlə adlanır.

Budaq cümlələri baş cümləyə bağlayan bir sıra vasitələr vardır.

Budaq cümlələrin bir qismi baş cümləyə tabelik bağlayıcıları (ki, çünki, ona görə ki. əgər, hərgah, madam ki və s.) ilə bağlanır.

Belə budaq cümlələr baş cümlələrdə əvvəl də, sonra da işlənə bilər.

Budaq cümlələr baş cümləyə yalnız intonasiya ilə bağlana bilir; məsələn: Qara pəhləvan gördü, yox, hərif çox qüvvətlidir.

Budaq cümlələrin bir qrupu baş cümləyə kim, nə, neçə, hansı, haçan, nə vaxt, hara, nə qədər və s. əvəzliklərlə - bağlayıcı sözlərlə bağlanır. Bağlayıcı sözlər çox vaxt ki ədatı ilə birgə işlənir: kim ki, kimi ki, kimə ki, hər nə ki, nəyi ki, nəyə ki, hara ki, harada ki, nə qədər ki və s. Məsələn: Kim ki çox çalışır, daha çox zəhmət haqqı alır. O haraya ki gedir, uşağı da özü ilə ora aparır. Necə demişdiniz, elə də eləmişəm və s.

Bağlayıcı sözlər bağlayıcılardan fərqli olaraq, cümlə üzvü olur.

Yazıda tabeli mürəkkəb cümlələrin tərkib hissələri bir-birindən vergüllə ayrılır.

Budaq cümlə baş cümləyə ki, çünki, ona görə də bağlandıqda feildən sonra, o biri bağlayıcılardan əvvəl vergül qoyulur, məsələn: Qız deyir ki, rayondan təzə gəlmişəm. O sevinirdi, çünki zəhməti hədər getməmişdi.

## Mürəkkəb cümləyə aid çalışma nümunələri

**Tapşırıq 1.**

Oxuyun, sadə (qrammatik əsası) cümlələrlə mürəkkəb (iki və daha çox qrammatik əsası olan) cümlələri fərqləndirin.

1.Yaz yaxınlaşırdı. Rüstəm kişi rayona verdiyi məlumatda göstəriridi ki, bu il yaza yaxşı hazırlaşırlar. 2. Havada odlu kösövlər oynayırdı, girdə işıq dənələri yanıb sönürdü. 3. Hava həyacanı siqnalı veriləndə evdəkilər zirzəmiyə getdilər. Mərcan nənə dama çıxmaq istədi. Ancaq o bilirdi ki, gəlininin acığı tutacaq. 4. Gün getdikcə qalxır, hava isinir, bənd çəkiləcək yerin altı düzlənirdi. 5. Balaca İsmayıl söhbətlərə qulaq asırdı. O görürdü ki, Dədə bəy sərkərdə olmaq təklifindən məmnun qaldı. 6. Qüvvələr az idi, hamı bir yerdə olmalıydı! 7.

Meşələr istinadgahım, dağlar arxam, buludlar havadarımdır. Günəş həmdəmim, külək mehribanımdır.

**Tapşırıq 2.**

Oxuyun, əvvəl birləşdirmə, sonra iştirak, axırda bölüşdürmə bağlayıcılı tabesiz mürəkkəb cümlələri seçib yazın.

1.Əsən külək onun qəlbinə doldu və elə bil, bədəninə yeni qüvvət gəldi. 2. Gecə də keçir, otaq da soyur. 3. Cəmil ilə Biləndər qəti bir fikrə gəlməmişdilər, amma Tahir nədənsə onun mərci udacağına inanırdı. 4. Ya sən durub qohumun, dostungilə gedərsən, ya da birisi durub sənin yanına gəlir. 5. Həm abidələrlə yaxşı tanış olduq, həm də yoldaşlarımızdan biri şəkillərimizi çəkdi. 6. Şeyx Heydər onun səhvini düzəltdi və Sultan da onun dediklərini təkrar eldi. 7. Mən ona qulaqburması verərəm və sənin də qızın qayıdar gələr atasının evinə. 8. Qoca da gülürdü, Ədilə də gülürdü. 9. Muxtargilin evində oturmuş o adamlar qorxmuşdu, və indi yəqin, qanları qara idi. 10. Ya uşaqlar kəndə gələcək, ya da biz onlan görməyə gedəcəyik.

**Tapşırıq 3.**

Oxuyun, əvvəl qarşılaşdırma, sonra inkar, birləşdirmə bağlayıcılı tabesiz mürəkkəb cümlələri seçib yazın.

1.Xanım xala mənə baxa-baxa bu sözləri deyirdi, amma mənim tüklərim biz-biz olmuşdu. 2. Şikəstəgilin eyvanında işıq yanırdı, ancaq həyət bacada adam görünmürdü. 3. Otuz ildən sonra mənim otuz doqquz yaşım olacaqdı və mən bunu heç cürə ağlıma sığışdıra bilmirdim. 4. Nə işıq azalıb-çoxalır, nə də kişi azacıq qımıldanırdı. 5. Bu fikirləri müxtəlif yerə yoza-yoza çiçəklərin üstünə uzandı və onu yuxu apardı. 6. Mən günlərlə gəzdim, amma kəklikdən səs-soraq yox idi. 7. Əvvəl-əvvəl nə Ələm dindi, nə də İnnab danışdı. 8. İndi nə toplar dillənir, nə da tayyarələr uçurdu. 9. Lazımı göstəriş verərik və ifaçın oğlanı, bizim kiçik şəhərimizin Laçın oğlunu tezliklə işlə təmin edərlər. 10. Nə kabab bişirdi, nə də Bakıdan, Yevlaxdan, Ağdamdan təzə ərzaq gətirilmişdi.

**Tapşırıq 4.**

Zaman əlaqəli tabesiz mürəkkəb cümlələri köçürün, buraxılmış durğu işarələrini artırın. Cümlələrin qrammatik əsasının altından xətt çəkin.

1. Evlər yanmış var-yox talanmış camaat qılılmışdı. 2. Nə o, bunu dindirir nə də bu onu danışdırır. 3. Şərəfnisə xanım ikinci damda ağlaya-ağlaya yun darayır kiçik bacısı Gülçöhrə yanında oynayır. 4. Gələnlər içərisində nə Kərəm var idi nə Zahid nə də Mehdi onları gördüyünü söylədi. 5. Nə İmran dillənir nə də Nərgiz onu içəri dəvət edirdi.

**Tapşırıq 5.**

Oxuyun, tabesiz mürəkkəb cümlələrin tərkib hissələnini müəyyənləşdirin. Tərkib hissələrdəki hadisələrin necə ardıcıllıqla baş verdiyini söyləyin.

1. Həyətdə daşlar düzüldü, böyük ocaq qalandı, qazan asıldı, aşpazlar çırmandı, çömçələr, kəfkirlər işə düşdü. 2. Artıq səs lap yaxından gəli rvə bir an sonra meşədən iki at qoşulub iraraba çıxıb yola düşür. 3. Gülarənin əllərininizi qapının üzərində əbədi bir iz olaraq qaldı və Gülarə içəri daxil olub qapını bağladı. 4. Bütün kənd evlərinin qapıları və pəncərələri açılır, adamlar yola tökülür.

**Tapşırıq 6.**

Oxuyun, ardıcıllıq və səbəb-nəticə əlaqəli tabesiz mürəkkəb cümləri fərqləndirin.

1. Dərslər qurtanr, uşaqlar yay tətilinə buraxılır. 2. Bir azdan dava qurtarar, gözəl, rahat bir həyat başlayar. 3. Hərdən şəhərin üzərini bö/, duman basır, aradan çox keçmədən gün çıxır, sonra göy güruldayıb yağış yağırdı. 4. Torpaq qızır, qar əriyir, çaylar bulanır. 5. Elektrik məftilləri qılıldı, işıq söndü. 5. Gün çıxdı, ağacın yuyulmuş, təmizlənmiş yarpaqlan sanki gülümsədi. 6. Daşın dalında gizlənibsən, sifətini görmürəm.

**Tapşırıq 7.**

Oxuyun, aydınlaşdırma əlaqəli tabesiz mürəkkəb cümlələrdə ümumilik bildirən və aydınlaşdıran tərkib hissələrini göstərin.

1. İndi Qüdrət ondan heç bir şey gizlədə bilməzdi: ananın gözlərini aldatmaq onun qəlbini aldatmaq qədər çətin idi. 2. Sahədə qızğın iş gedirdi; kimisi çalalara gübrə tökür, kimisi qələmə əkirdi. 3. Yoğurub yapdığımız kökə yaxşı bişməmişdi: içi çiy idi. 4. Reyxstaqı seyr elədim iki il qabaq: Meyit kimi tökülmüşdü qaşı-qabağı. 5. O gün hamının yadında qalmışdı: soyuq qış günü idi, müharibə-filan olmasa da, rayondan xeyli cavan gedirdi.

**Tapşırıq 8.**

Oxuyun, verilmiş baş cümlələrə müvafiq budaq cümlələr artırıb yazın.

1. Mən bilirəm ki,.... 2. Bizə məlum idi ki,.... 3. O zaman sizə gəldim ki 4. Mən çətinliklə yeriyirdim, çünki.... 5. Səlim bu sözlərlə kifayətlənmədi, ona görə ki....

**Tapşırıq 9.**

Oxuyun, budaq cümlələrə müvafiq baş cümlələr artırıb yazın.

1. Hər kəs çox çalışsa,.... 2. Harada ki torpaq münbitdir

3. Ürəyi necə istəyirdisə,.... 4. Əgər tez gəlsən …… 5. Kim necə istəyirdisə

**Tapşırıq 10.**

Oxuyun. Baş və budaq cümlələri müəyyənləşdirin. Budaq cümlələrin baş cümləyə hansı vasitələrlə bağlandığını söyləyin.

1. Su istəyirsə, vermə. 2. Neçə gün idi ki, göy üzünü bulud alır və çəkilirdi. 3. Nə qədər təkid etdilərsə, Bəsti pay almadı. 4. Bildim ki, bu adamın sinəsi məndən yanıqlıdır. 5. Kim pay almaq istəyir, irəliyə dursun. 6. Hərgah gedəcəksə tez gəlsin. 7. Küçəyə çıxanda gördüm, oğlun bir nəfərin qoluna girib hara isə gedir. 8. Külək əsdimi, yağış yağacaq.

**Tapşırıq 11.**

Oxuyun, tabeli mürəkkəb cümləni əmələ gətirən sadə cümlələri və sadə cümlələrdə baş üzvləri göstərin.

Onu fikirləşirəm ki, qış yatağında bu il ot azdır. 2. Biz də yeməsək bir başqası yeyəcək. 3. Körpələr oynayır, bir-birini itələyib yıxır, bizi məşğul eləyirdilərsə də öz dərdimiz özümüzə

bəs idi. 4. Mən də ona fikir verməsəm axırı nə olar? 5. Kimin ki şikayəti vardı o, zalda gözləyirdi. 6. Mən harda yaşayıramsa o da orada yaşayır.

## BUDAQ CÜMLƏLƏRİN NÖVLƏRİ

Tabeli mürəkkəb cümlələr budaq cümlələrinə görə fərqlənir və budaq cümlələr də cümlə üzvlərinə uyğun gəlir. Budaq cümlələr başlıca olaraq aşağıdakı növlərə aynlır:

-Mübtəda buaq cümləsi.

-Xəbər buaq cümləsi.

-Tamamlıq buaq cümləsi.

-Təyin buaq cümləsi.

-Zərflik buaq cümləsi.

Mübtəda budaq cümləsi ya baş cümlənin buraxılmış mübtədası əvəzinə işlənir, yaxud da baş cümlədə işarə əvəzliyi ilə ifadə olunan mübtədanı izah edir; məsələn, Hamıya məlumdur ki, payızda bol meyvə olur.

Xəbər budaq cümləsi baş cümlənin işarə əvəzlikləri ilə ifadə olunmuş xəbərini izah edib aydınlaşdırır; məsələn: İgid odur ki, apardığını gətirsin.

Baş cümlənin xəbəri adətən odur, budur, o idi, bu idi, elədir, belədir, oradadır, buradadır, onun üçündür, bunun üçündür və s. sözlərlə ifadə olunur və budaq cümlə onların izahına xidmət edir.

Xəbər budaq cümləsi bəzən baş cümlədən əvvəl gəlir və baş cümləyə bağlayıcı sözlərlə bağlanır; baş cümlə qarşılıq bildirən söz xəbər vəzifəsində işlənir; məsələn; Hər kim tez gəlsə, bu yer onundur.

Tamamlıq budaq cümləsi ya baş cümlənin tamamlığı əvəzində işlənir, yaxud da baş cümlədə işarə əvəzlikləri ilə ifadə olunan tamamlığı ifadə edir.

Tamamlıq budaq cümləsi daha çox baş cümlənin feili xəbərinə aid olur. Lakin bəzən baş cmlədəki ismi xəbərə də aid ola bilir; məsələn: Heç onun ixtiyari yoxdur ki, sənə bir söz

desin.

Tamamlıq budaq cümləsi baş cümləyə ki bağlayıcısı olmadan da (intonasiya ilə) bağlana bilir; məsələn: Mən bilirəm, sən nə demək istəyirsən.

Tamamlıq vasitəli və vasitəsiz olduğu kimi tamamlıq budaq cümləsi də vasitəli və ya vasitəsiz tamamlığın suallarına cavab verir.

Təyin budaq cümləsi baş cümlənin isimlə və ya isimləşmiş sözlərlə ifadə olunan hər hansı bir üzvünü təyin edir və necə? nə cür? hansı? suallarından birinə cavab verir; məsələn: Elə sürücü lazımdır ki, heç bir çətinlikdən qorxmasın.

Zərfiik budaq cümlələrinin aşağıdakı növləri vardır:

Tərzi hərəkət budaq cümləsi - baş cümlədəki hərəkətin nə cür icra olunduğunu bildirir. Bəzən tərzi hərəkət budaq cümləsinin əvvəlində elə bil, guya, sanki, deyəsən sözləri işlənir və budaq cümlənin bu növü müqayisə məzmununa malik olur. Bəzən budaq cümlə ismi xəbərlə əlaqələnir və dərəcə çalarma malik olur. Tərzi hərəkət budaq cümləsi bəzən baş cümlədən əvvəl gəlib, ona bağlayıcı sözlə bağlanır.

Zaman budaq cümləsi - baş cümlədəki hərəkətin zamanım bildirir. Nə vaxt?, nə zaman?, haçan? suallarına cavab olur və baş cümlədən həm əwəl. həm də sonra gələ bilir; baş cümlədə o vaxt, o zaman , onda sözləri işlənir və budaq cümlə vasitəsilə izah edilir. Zaman budaq cümləsi baş cümlədən əvvəl gəldikdə budaq cümlə baş cümləyə o zaman ki, o gün ki, o vaxt ki, haçan ki, elə ki və s. bağlayıcı sözlərlə bağlanır. Baş cümlədə qarşılıq bildirən onda sözü olur (olmaya da bilər).

Yer budaq cümləsi - baş cümlədəki hərəkətin icra olunduğu yeri bildirir və haraya?, harada?, haradan? suallarından birinə cavab olur. Yer budaq cümləsi baş cümlədən əvvəl gəlir və baş cümləyə haraya, haradan, harada və s. bağlayıcı sözlərlə bağlanır. Baş cümlədə isə bunlara müvafiq olaraq, üç halda - yönlük, yerlik, çıxışlıq hallarında qarşılıq bildirən oraya, orada, oradan sözlərindən biri işlənir və budaq

cümlə vasitəsilə işlənir.

Kəmiyyət budaq cümləsi - baş cümlədəki hərəkətin və ya əlamətin miqdarını bildirir, nə qədər? sualına cavab verir. Baş cümlədən əvvəl gəlir və baş cümləyə nə qədər, hər nə qədər, nə qədər ki bağlayıcı sözlərlə bağlanır. Baş cümlədə isə bunlara müvafiq olaraq qarşılıq bildirən o qədər, o qədər də, bir o qədər, bir elə sözlərindən biri işlənir və budaq cümlə vasitəsilə izah edilir.

Səbəb budaq cümləsi - baş cümlədəki hərəkətin və ya əlamətin səbəbini bildirir və niyə?, nə üçün?, nə səbəbə?, nə məqsədə?, nəyə görə? suallarından birinə cavab verir. Səbəb budaq cümləsi baş cümlədən sonra gəlir və baş cümləyə ki, çünki, ona görə ki, ondan ötrü ki bağlayıcı sözlərlə bağlanır.

Məqsəd budaq cümləsi - baş cümlədəki hərəkətin və ya əlamətin məqsədini bildirir və niyə?, nə üçün?, nə məqsədə?, nəyə görə? suallarından birinə cavab verir. Məqsəd budaq cümləsi baş cümlədən sonra gəlir və baş cümləyə ki bağlayıcısı ilə bağlanır. Baş cümlədə məqsəd zərfliyi vəzivəsində ona görə, ondan ötrü sözləri ola da bilər, olmaya da.

Şərt budaq cümləsi - baş cümlədəki hərəkətin şərtini bildirir və hansı şərtlə sualına cavab olur.

Şərt budaq cümləsi, əsasən, baş cümlədən əvvəl gəlir və ona şərt şəkilçisi (-sa,-sə) və ya şərt bağlayıcılan ilə bağlanır. Şərt budaq cümləsi baş cümləyə bəzən təkcə intonasiya ilə də bağlana bilir.

Qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələrdə baş və budaq cümlənin məzmunu bir - biri ilə qarşılaşdırıhr. Budaq cümlə baş cümlədə ifadə olunan hərəkətə qarşı duran hadisəni, vəziyyəti bildirir və belə cümlələr şərti olaraq nəyə baxmayaraq? sualına cavab olur. Qarşılaşdırma budaq cümləsi haş cümlədən əwəl gəlir və ona, əsasən, -sa,- sə şəkilçisi və da, də, belə odatjan, yaxud nə qədər bağlayıcı sözü ilə bağlanır. Qarşılaşdırma budaq cümləsi baş cümləyə qarşılıqlı şəkildə işlənən hərçənd (düzdür, dognıdur) - amma (ancaq,

lakin, fəqət) bağlayıcılan ilə də bağlanır.

**Budaq cümlələrin növlərinə aid çalışma nümunələri:**

**Tapşırıq 1.**

Oxuyun, baş və budaq cümlələri müəyyənləşdirin. Budaq cümlədə bağlayıcı sözü, baş cümlədə qarşılıq bildirən sözü göstərin.

1. Hər kim cavab vemıək istəyir, o. əlini qaldırsın. 2. Kim ki camaata xor baxır, elə bil, o, öz əli ilə öz gözlərini bağlayır. 3. Kim ki özünü əziyyətə salıb bir balaca işləyir, o dolanır. 4. Ürəyin hər nə isləyirsə, o, bizdə var. 5. Uşaqlar, kim təmiz yazsa, bir qaydada yazsa, o. beş alacaqdır.

**Tapşırıq 2.**

Verilmiş baş cümlələrə mübtəda budaq cümləsi artınb yazın.

1. İclasda qərara alındı ki, ... . 2. Hamıya aydın oldu ki, ... . 3. Hamıdan tələb olunur ki,.... 4. Protokolda o da yazılmışdır ki 5. Düz beş ildir ki, ... .

**Tapşırıq 3.**

Verilmiş baş cümlələrə xəbər budaq cümləsi artırmaqla tabcli mürəkkəb cümlələr düzəldib yazın.

1. Orta məktəbdə ana dili tədrisinin məqsədi budur ki
2. Düzgün yazmağı öyrənməyin əhəmiyyəti bundadır ki,
3.Azərbaycan dilinin saitlər ahəngi elədir ki 4.Bizim rəyimiz, belədir ki 5. İşin yaxşı cəhəti burasındadır ki

**Tapşırıq 4.**

Xəbər budaq cümləli tabeli mürəkkəb cümlələrə aid dörd cümlə düzəldib yazın.

**Tapşırıq 5.**

Oxuyun, baş və budaq cümlələri göstərin. Tamamlıq budaq cümləsinin baş cümləyə hansı vasitələrlə bağlandığını, baş cümlədə işarə əvəzliyinin olub - olmadığını izah edin.

Deyirlər ki, şirin yuxu gözəl nemətdir. O, arxayın olacaqdı ki, zavod qazma borularından da istifadə edə biləcəkdir. Mən öz-özümdən soruşdum ki, bəs nə vaxt işıqlar

yanacaq. İnanıram, siz tapşırığı uğurla yerinə yetirəcəksiniz. Onu da yaxşı başa düşürəm ki, əlinizdəki işlər təcilidir.

**Tapşırıq 6.**

Verilimş budaq cümlələrə tamamlıq budaq cümləsi artınb köçürün.

1. Müəllim tapşırdı ki, ... . 2. Əhməd inanırdı ki, ... . 3. İmran qorxurdu ki… .4. Rəna bilmirdi ki,.... 5. Uşaqlar çalışırdılar ki,.... 6. Mən xəbər tutdum ki,....

**Tapşırıq 7.**

Budaq cümlələrə müvafiq baş cümlələr artınb tabeli mürəkkəb cümlələr düzəldib yazın.

1. ... ki, sabah muzeyə gedəcəyik. 2. ... ki, sən ləyaqətli dostsan. 3.... ki, professor Mirzə Kazım bəy çox dil bilirmiş. 4. Kimi ki imtahan etdilər, ona .... 5. Hər nəyi deyirsən, onu ....

**Tapşırıq 8.**

Oxuyun, sadə geniş cümlələrdəki feili sifət tərkiblərini təyin budaq cümləsinə çevirməklə tabeli mürəkkəb cümlələr düzəldib yazın, (bunun üçün baş c ümlədə o, elə, həmin və s. əvəzliklərindən, baş və budaq cümlələr arasında ki bağlayıcısından istifadə edin.)

Nümunə: Mən işin xeyirinə olan tənqidi sevirəm. - Mən o tənqidi sevirəm ki, işin xeyirinədir.

1. Kərim hədsiz dərəcədə çox danışan adamdır. 2. Mən bir neçə dəfə birinçilik qazanmış atı deyirəm. 3. Biz dirilik suyu kimi həyat verən dağ bulaqlarını nəzərdə tuturuq. 4. Mən əməyi sevən insanlara üz tuturam.

**Tapşırıq 9.**

Təyin budaq cümləsi artınb yazın.

1. Elə gecələr var ki,.... 2. Biz məktəbin həyətində elə bir bağ salmışıq ki,... . 3. Mən o kəndləri gəzmişəm ki 4. Qartal o dağlarda yuva qurur ki… . 5. Elə çəmənlər var ki… . 6. Elə çiçəklər gördüm ki… .

**Tapşırıq 10.**

Oxuyun, tərzi-hərəkət budaq cümlələrinin baş cümləyə nə ilə

bağlandığını izah edin, baş cümlədə qarşılıq bildirən sözləri göstənn.

1. Kim necə istəyirdisə, eləcə də yaşayıb işləyirdi. 2. Mən necə deyirəm, sən o cür hərəkət etməlisən. 3. Kərbəlayi Məhəmmədəli kağızı necə ki, deyir, eləcə də yazdırıbdır. 4. Məsələni necə başlamışdılarsa, eləcə də qurtardılar. 5. Allah kora necə baxsa, kor da Allaha elə baxar.

**Tapşırıq 11.**

Verilmiş baş cümlələrə tərzi-hərəkət budaq cümlələri artırıb yazın. Baş üzvlərin altından xətt çəkin.

1. Külək qarı elə sovurdu ki…. . 2.Tezliklə işlərimizi elə qurmalıyıq ki… 3.Məruzəçi elə həyacanla danışırıdı ki….. 4. Qulam o dərəcədə sakit oturmuşdu ki….. 5. Uşaqlar bu axşam o qədər şən idilər ki…..

**Tapşırıq 12.**

Verilmiş baş cümlələm budaq cümlələr artırıb yazın. Budaq cümlələrin növünü müəyyənləşdirin.

1. İşiniz elədir ki,.... 2. Bu elə işdir ki,.... 3. İşiniz elə gərginləşdi ki,....

**Tapşırıq 13.**

“Azərbaycanın dövlət atributları” mövzusunda mətn tərtib edib, planını tutun. Mənasını bilmədiyiniz sözləri lüğətdən tapıb yazın.

**Tapşırıq 14.**

Oxuyun, budaq cümlələrin əvvəl gələn tərkib hissədə - baş cümlədə hansı sözləri ifadə etdiyini söyləyin.

1. Cəfər paşa Telli xanımın mənzilinə o zaman yetişdi ki, aşıq Cünun Koroğlunu tərifləyirdi. 2. Biz o vaxt xoşbəxt oladuq ki, vətən torpaqları tam azad oladu. 3. Mən onda şəhərə çatdım ki, qaranlıqlaşırdı. 4. Sandıq kişi o zaman usta Hüseynin dükanına yetişdi ki, usta bir müştərinin başını qırxıb, qanatdığı yerlərə pambıq düzürdü.

**Tapşırıq 15.**

Baş və budaq cümlələri müəyyənləşdirin. Köçürün,

buraxılmış durğu işarələrini artırın.

1. Hədiyyə geyinib işə getmək istəyirdi ki Malayeva əlində uzun bir siyahı içəri girdi. (M.C.) 2. Bu söz onun ağzından çıxmamışdı ki doğrudan da bir möcüzə oldu. (M.C.) 3. O zaman ki qarlı dağlar örtülərdi dumana Dənizlərin dalğasından səs düşərdi ormana. (S.V.) 4. Elə ki məclis qurtardı hamı dağlışdı. 5. İki vers getməmişdilər ki kənardan bağların arasından dolu kimi güllə yağdı.

**Tapşırıq 16.**

Oxuyun, yer budaq cümləli tabeli budaq cümləri sadə cümlələrə çevirib yazın.

1. Harda əsir oğluna həsrət qalan ana var, mən ora gedəcəm! (Ə.C.) 2. Harada ki əməyimə düzgün qiymət vermirlər, mən orada işləmək istəmirəm. 3. Bir yerdə ki böyüyə hörmət olmadı, orada xeyir - bərəkət olmaz. 4. İndi harada iki qazıntı aparılır, keçmişdə orada böyük bir şəhər olub.

Nümunə: O yerlərdə ki qar əriyir, orada suyun şırıltısından durmaq olmur Qar əriyən yerlərdə suyun şırıltısından durmaq olmur.

**Tapşırıq 17.**

Oxuyun, sadə cümləri kəmiyyət budaq cümləli tabeli mürəkkəb cümlələrə çevirib yazın.

*Nümunə*: Bu il keçən ilkindən ikiqat artıq məhsul topladıq - Keçən il nə qədər məhsul toplamışdıqsa, bu il ondan ikiqat artıq topladıq.

1. O, bacardığı qədər işlədi. 2. O, ürəyi istədiyi qədər işlədi. 3. Səməd lazım olduğu qədər işləyirdi.

**Tapşırıq 18.**

Azərbaycan atalar sözlərindən 10 nümunə yazın və əzbərləyin.

**Tapşırıq 19.**

Oxuyun, verilmiş səbəb zərfliklərini səbəb budaq cümlələrinə çevirib yazın.

Nümunə: Hava yavavş- yavaş qaranlıqlaşdığı üçün Əhməd

otağın işığını yandırdı. Əhməd otağın işığını yandırdı, çünki hava yavaş- yavaş qaranlıqlaşırdı. Əhməd otağın işığını ona görə yandırdı ki. hava yavaş-yavaş qaranlıqlaşırdı.

Uşaqlar şəhərə çatdıqları üçün sevinirdilər. 2. Qapı açıq olduğu üçün Əsmər qonağın dediklərini eşidirdi. 3. Sənin kimi dostu oluğu üçün Vahid fəxr eləsin. 4. Gecə səhərə qədər yatmayıb kitab oxuduğu üçün gözləri qızarmışdı.

**Tapşırıq 20.**

Oxuyun, məqsəd budaq cümlələrini baş cümləyə bağlayan vasitələri göstərin. Cümlələri sadələşdirin.

1. Müəllimlər keçmiş dərsi ona görə təkrar edirlər ki, şagiridlər biliklərinə daha möhkəm yiyələnsinlər. 2. Zakir dostu Fərruxa teleqram göndərdi ki, onun gəlişindən xəbərsiz olmasın. 3. Məktəbin özfəaliyyət dərnəyi gecə- gündüz hazırlaşırdı ki, müsabiqədə birincilik qazansın. 4. San pişik palıda yaxınlaşdı ki, yavaşca yuxarı dırmaşsın.

**Tapşırıq 21.**

Oxuyun, verilmiş məqsəd zərfliklərini məqsəd budaq cümlələrinə çevirib yazın.

*Nümunə*: O, tamaşaçıları güldürmək üçün dediyi sözlərə hamıdan çox özü gülürdü. - O, dediyi sözlərə hamıdan çox özü gülürdü ki, tamaşaçını da güldürsün.

1. Onlar vətəni müdafiə etmək üçün vuruşurdular. 2. O, fikrini camaata daha aydın çatdırmaq üçün, bir daha söz aldı. 3. Biz gözəl bir park salmaq üçün bu yerləri düzləyirik. 4. Tahir ali məktəbəjlaxil olmaq üçün səbr və ciddiyyətlə çalışır.

**Tapşırıq 22.**

Verilmiş baş cümlələrə müvafiq şərt budaq cümləsi artıraraq köçürün.

1. ... , ürəyim sakit olmayacaq. 2. …, başımıza bu müsibət gəlməzdi. 3. Bir şərtlə razı olaram ki,... . 4...., düşmənin nəfəsini kəsə bilmərik. 5. S...., öz xalqın üçün yararlı ola bilməzsən. 6. ...., onun qədrini bilmərik.

**Tapşırıq 23.**

Verilmiş, sxemlər əsasında şərt budaq cümləli tabeli mürəkkəb cümlələr düzəldib yazın.

... sa, ....

Əsgər... sə,....

Madam ki,...,....

Hərgah... sa,....

Əsgər...,....

**Tapşırıq 24.**

"Milli ordumuz" mövzusunda mətn tərtib edin, plan tutun və məzmununu danışın.

**Tapşırıq 25.**

Verilmiş, sxemlər əsasında qarşılaşdırma budaq cümləli tabeli mürəkkəb cümlələr düzəldib yazın.

1. ... $sa^2$, $da^2$....
2. ... $sa^2$, belə,....
3. Nə qədər... $sa^2$, yenə də…
4. Hərçənd..., lakin ....

# ƏDƏBİYYAT


1. Abdullayev K.M. Azərbaycan dili sintaksisinin nəzəri problemləri. Bakı: Maarif. 1999
2. Alxasov K.K. Müasir Azərbaycan dilində vasitəsiz nitq. Bakı: Maarif, 2001
3. Axundov A.A. Azərbaycan dilinin fonetikası. Bakı, 1982
4. Axundov A.A., Əmirova A.Y. Məktəblinin orfoqrafiya lüğəti. Bakı: Təhsil, 2004
5. Balıyev H.B. Azərbaycan dili. Bakı: Nərgiz, 2001
6. Quliyeva A.A., Soltanov F.M. Məktəblinin orfoqrafiya - orfoepiya qrammatika lüğəti. Bakı: Nurlan, 2004
7. Seyidov Y.M. Azərbaycan dili. Bakı: Bakı Universiteti, 2005
8. Azərbaycan dili. I kitab, APRDƏİ - nin nəşri, Bakı, 1988
9. Azərbaycan dili, II kitab, APRDƏİ - nin nəşri, Bakı, 1998
10. Əhmədov B.A. Azərbaycan dilinin qısa etimoloji lüğəti, Bakı, 1999
11. Azərbaycan dilinin izahlı lüğəti, I hissə, Bakı, 1966
12. Azərbaycan dilinin izahlı lüğəti, II hissə, Bakı, 1980
13. Azərbaycan dilinin izahlı lüğəti, III hissə, Bakı, 1983
14. Azərbaycan dilinin izahlı lüğəti, IV hissə, Bakı, 1987
15. Azərbaycanca rusca lüğət (prof. M.T.Tağıyev redaktəsi ilə), I cild, Bakı, 1986
16. Azərbaycanca - rusca lüğət (prof. M.T.Tağıyev redaktəsi ilə), II cild, Bakı, 1989
17. Azərbaycanca - rusca lüğət (prof. M.T.Tağıyev redaktəsi ilə), III cild, Bakı, 1997
18. Azərbaycanca - rusca lüğət (prof. M.T.Tağıyev redaktəsi ilə). IV cild, Bakı, 2001
19. Программа по курсу ‹‹Азербайджанский язык для иностранцев››, Баку, 2004
20. Türkologiya kafedrası üzrə proqramlar, Bakı, 2002
21. Müasir Azərbaycan dili kafedrası üzrə proqramlar, Bakı, 2004

## MÜNDƏRİCAT

Ön söz........................................................................................ 3
FONETİKA................................................................................ 5
Əlifba. Əlifbanı bilməyin əhəmiyyəti................................... 6
Səslərin növləri. Saitlərin təsnifi prinsipləri.......................... 7
Samitlər. Samitlərin növləri…………………………............. 10
Qoşasaitli sözlərin yazilişi və tələffüzü..................................12
Qoşasamitli sözlərin yazılışı və tələffüzü...............................14
Sonu qoşa samitlə bitən söz köklərinin yazılışı.......................15
Sonu Q və K İlə bitən çoxhecali sözlərin yazilişi və tələffüzü..16
Heca. Sözün sətirdən sətirə keçirilməsi.................................. 17
Vurğu........................................................................................ 18
Ahəng qanunu......................................................................... 20
Fonetik hadisələr...................................................................... 22
LEKSİKA……………………………………........................ 25
Sözün həqiqi və məcazi mənası............................................. 25
Təkmənalı və çoxmənalı sözlər……………………………. 27
Sözlərin məna qrupları
Omonimlər………………………………………………….. 28
Sinonimlər.............................................................................. 29
Antonimlər.............................................................................. 31
Əsil Azərbaycan sözləri və alınma sözlər............................ 32
Yeni sözlər (neologizmlər), köhnəlmiş sözlər (arxaizmlər)... 34
Frazeoloji birləşmələr.......................................................... 35
MORFOLOGİYA…………………………........................ 37
Azərbaycan dilində söz yaradiciliği vasitələri……….......... 37
Sözün tərkibi. Kök və şəkilçi. Leksik və qrammatik
şəkilçilər................................................................................ 37
Şəkilçilərin növləri................................................................ 39
Şəkilçilərin yazılışı................................................................ 41
Sözlərin quruluşca növləri.................................................... 43
Sözün başlanğıc formaları.................................................... 45
Əsas nitq nissələri. İsim........................................................ 46
Sadə və düzəltmə isimlər...................................................... 47

İsim düzəldən şəkilçilərin yazılışı........................................ 51
Mürəkkəb isimlərin əmələ gəlməsi və orfoqrafiyası............ 52
Ümumi və xüsusi isimlər……………………….................... 54
Mürəkkəb adlar və onların yazılışı....................................... 56
Tək və cəm isimlər............................................................ 58
İsmin mənsubiyyətə görə dəyişməsi.................................... 59
İsmin hallanması............................................................... 61
Bəzi ikihecalı isimlərdə son saitin düşməsi.......................... 68
Sifət.................................................................................. 70
Sifətin quruluşca növləri………………………….............. 72
Sifətin müqayisə dərəcələri....................................................75
Sifətin isim kimi işlənə bilməsi............................................ 77
Say……………………………………………………… 78
Sayin quruluşca növləri…………………………………… 78
Sayin məna növləri………………………………………… 79
Saylarin yazilişi və tələffüzü…………………………......... 81
ƏvəzlİK……………………………………………….... 82
Feil. Feilin məna növləri……………………………….…... 86
Feilin quruluşca növləri…………………………………..... 88
Təsdiq və inkar feillər……………………………………… 90
Təsirli və təsirsiz feillər……………………………........... 91
Feilin qrammatik məna növləri ……………………….…..... 92
Feilin təsriflənən formalari………………………….……... 95
Feilin mürəkkəb şəkilləri..................................................... 100
Feilin təsriflənməyən formaları........................................... 103
Zərf. Zərfin quruluşca növləri............................................. 105
Zərfin mənaca növləri........................................................ 108
Köməkçi nitq hissələri. Qoşma........................................... 110
Bağlayıcı.......................................................................... 113
Ədat................................................................................. 116
Modal sözlər..................................................................... 117
Nida.................................................................................. 118
Sintaksis. Söz birləşmələri.................................................. 119
Sintaksis əlaqələr.............................................................. 125

Cümlə………………………………………................... 129
Cümlə üzvləri................................................................ 131
Cümlənin ikinci dərəcəli üzvləri..................................... 137
Cümlə üzvlərinin əlavəsi................................................ 143
Həmcıns üzvlü cümlələr................................................. 145
Sadə cümlənin növləri.................................................... 148
Qrammatık cəhətdən cümlə üzvləri ilə
bağlı olmayan sözlər...................................................... 152
Söz cümlələr…………………………………..................... 155
Mürəkkəb cümlə…………………………………....... 156
Budaq cümlələrin növləri……………………………… 162
Ədəbiyyat......................................................................... 171

*Çapa imzalanmışdır: 28.07.2023*
*Format : 60x84 1/16.*
*Fiziki çap vərəqi: 11.*
*Tiraj: 50 .*

---

*"CLASS PRİNT" mətbəəsində çap olunmuşdur.*
*Ünvan: Bakı ş, Yasamal r, Mətbuat pr,22.*
*Mob:. +99455 555 99 07.*
*+99470 555 99 07*
*classprint.mmc@gmail.com*